

**Fəzail Ağamalı dünyasını dəyişdi**

Səh: 2-də



**Ramiz Mehdiyevin ev dustaqlığı daha 3 ay uzadılacaq!**

Səh: 3-də



**Səfər Mehdiyev keçmiş köməkçisini niyə həbs etdirdi?**

Səh: 6-da

## Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!

www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com




№02 (2398) * 10 fevral 2026-cı il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiymətі 50 qəpik

# Nazir rektor Kamal Abdullanın oğlunu işsiz qoydu!




*Əmrə əsasən, Mehdi Kamal oğlu Abdullayev Bələdiyyələrlə iş baş idarəsinin rəis müavini vəzifəsindən öz arzusu ilə azad edilib.*



*İlham Əliyev Fərman imzaladı*

Bax səhifə 2

**Jurnalistlər binasının komendantı bu işə də əl atıb və...** ✓2

**"Tərtər işi"ndə zərərçəkən maddi və mənəvi ziyana görə 10,5 milyon manat tələb edir!** ✓5

**Restorana mal əti kimi satacaqları at ətini özlərinə yedirdib tv-də göstərəcəklər!** ✓5

**26 məhkəmə qərarı prokurorluqda ört-basdır edilir** ✓7

**ŞOK: Sığorta bir ailəni belə məhv etdi!** ✓10

**Abşeron rayonunda torpaq qalmaqalı səngimir** ✓12

Bax səh.2

## Bu şəxslər pensiya kapitalını vaxtından əvvəl geri götürə bilər-harda və necə?

Bax səhifə 5



**Müəllim müqəddəsliyi - keçmişin hörməti və müasir dövrün sınaqları...**

Bax səhifə 11



**Vüqar Səfərlinin əmlakının müsadirəsi barədə bu da son qərar!**

## Evi dağıdılan bayırşəhər sakinləri təzminat alacaq, əgər...

✓2



**Nəcməddin Sadıkov bu general-leytenantı da güdaza verdi** ✓3



**Bakı milyonçusunun memarlıq abidəsi və şəhid məzarlığı dağıdıldı** ✓4-8-9



# İlham Əliyev Fərman imzaladı

**“Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, 2025-ci il dekabrın 4-də Riqa şəhərində imzalanmış “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilib.

Saziş qüvvəyə mindikdən sonra Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Hökumətinə bildiriş göndərməlidir.

# JURNALİSTLƏR BİNASININ KOMENDANTI BU İŞƏ DƏ ƏL ATIB VƏ...

## *KOMENDANTIN YALAN ELANLARI!*



**Hörmətli dostlar, I Jurnalist binasının komendantı, Sevil Yusifova adlı qadın Votsapda “Elanlar” səhifəsi açıb, binanın 153 ailəsini (məndən başqa) ora məcburi qoşub, yalan elanlarla, şəxsən mənə şər-böhtan atmaqla məşğuldur. Bu yalanların bir-neçəsini sizin diqqətinizə çatdırmaq istəyirəm.**

Deməli, komendant elan edir ki, guya mən Jurnalist binasında daimi yaşadığım 7-8 ildə bir dəfə də kommunal ödəniş etməmişəm və xanıma 3 min manatdan çox pul borcluyam. Əvvəla, binanın hazırkı komendantı Mətbuat Agentliyinin nə hüquqi, nə də fiziki varisidir, yəni bizim Mətbuat Agentliyinə olan borclarımızın komendanta heç bir dəxli yoxdur. Agentlik Jurnalist binalarından könüllü imtina edib və bütün proseslərə xitam verilib.

Sonra, mən Sevil Yusifova binanın komendantı postunu zəbt edənə qədər (adam seçkiləri saxtalaşdırıb, I binada 154 ailə yaşayır, amma onu 20-25 adam seçib), aylıq ödənişləri etmişəm və aşağıdakı qəbzləri sizə təqdim edirəm. Hamısını tapmadım, amma aşağıdakı çəkildə 10-dan çox qəbz var. Qəbzlərin hər biri 200-300 manatlıqdır, içində 130, 100 manatlıq da var. Yəni, mən ildə 1-2 dəfə ödəniş etmişəm, amma bütün ayları vermişəm. Bu qəbzlərdə 2 mindən yuxarı pul var.

Hörmətli dostlar, buyurun baxın və Sevil adlı komendantın mənim haqqımda yaydığı yalan və böhtanlarla tanış olun. Bir də təkrar edirəm, mən saxta seçilmiş komendanta hesabat verməyə borclu deyiləm, amma dostlara, qonşulara hesabat verirəm...

**Qalib ARİF**

## İTMİŞDİR

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Abşeron rayonu, “Şəfəq” qəsəbəsi, ev-32, mənzil 9-da yaşayan Bayramov Elçin Süleyman oğlunun adına verilmiş həmin mənzilin ilkin sənədləri itdiyi üçün etibarsız sayılır.

# BU ŞƏXSLƏR PENSİYA KAPİTALINI VAXTINDAN ƏVVƏL GERİ GÖTÜRƏ BİLƏR-HARDA VƏ NECƏ?

**Bu sual Azərbaycanda həmişə aktual olub. Bir çox ölkələrdə isə, məsələ qanunla tənzimlənir və sadə həlli yolu var. Məsələn, pensiya kapitalını vaxtından əvvəl, yaxud istədiyin vaxt geri götürə bilərsənmi???**




**Bu məsələnin qonşu Gürcüstanda daha asan həlli yolu var. Məsələn, Mülki işlər və uşaqların hüquqları üzrə ixtisaslaşmış vəkil Nuqbera Rostiaşvili vətəndaşların pensiya yığımı, torpaq sahələrinin sənədləşdirilməsi və sığorta iddiaları ilə bağlı sualları cavablandırıb.**

Tezadlar.az xəbər verir ki, vəkilin sözlərinə görə, ölkənin “Pensiya Agentliyi haqqında” qanununa görə, pensiya yığımı yalnız müəyyən hallarda çıxarıla bilər. Bunlar pensiya yaşına çatanda, daimi olaraq Gürcüstanı tərk edən vətəndaşlar və ya sağlamlıq vəziyyəti ağır şəkildə pisləşmiş şəxslər.Sitat: “Pensiya yaşına çatmış vətəndaş onun pensiya fonduna yığılan vəsaiti çıxara bilər. Bu yaş kişilər üçün 65, qadınlar üçün 60-dır. Həmçinin, əgər vətəndaş daimi olaraq Gürcüstanı tərk edirsə və başqa ölkənin vətəndaşıdırsa, yığımı çıxarmaq üçün müraciət edə bilər. Ağır xəstəlik və ya əmək qabiliyyətinin tam itirilməsi halında vətəndaş pulun çıxarılmasını birdəfəlik və ya mərhələli şəkildə tələb edə bilər. Əgər siz ikinci qrup əlilsinizsə, bu o deməkdir ki, siz yığımı tam və ya qismən çıxarmaq hüququna maliksiniz, Pensiya Agentliyinə müraciət əsasında. Bunun üçün əlilliyi təsdiq edən sənəd təqdim olunmalıdır”.

Bəs Azərbaycanda bu mümkündürmü? Sual hələki açıq qalırg Millət Vəkilləri isə bu sualın qanunda təsbit olunmuş cavabını əsaslandırmağa isə tələsmirlər.

# TƏCİLİ: NAZİR REKTOR KAMAL ABDULLANIN OĞLUNU İŞSİZ QOYDU!

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsinin rəis müavini Mehdi Abdullayev öz arzusu ilə tutduğu vəzifədən azad edilib. Tezadlar.az xatırladır ki, bununla bağlı ədliyyə naziri Fərid Əhmədov müvafiq əmr imzalayıb. Əmrə əsasən, Mehdi Kamal oğlu Abdullayev Bələdiyyələrlə iş baş idarəsinin rəis müavini vəzifəsindən öz arzusu ilə azad edilib.**



Qeyd: M.Abdullayev bu vəzifəyə 2024-cü ildən təyin edilmişdi. O, daha əvvəl isə Nazirliyin ləğv edilən Əhalinin Dövlət Reyestri Xidmətinin rəis müavini vəzifəsində çalışıb. 2022-ci ildən Ədliyyə Nazirliyində fəaliyyətə başlayan M.Abdullayev o vaxta qədər əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin müşaviri vəzifəsində işləyib.

Nəhayət, M.Abdullayev Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullanın və AMEA-nın vitse-prezidenti vəzifələrini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru Gövhər Baxşəliyevanın oğludur.

# Fəzail Ağamalı dünyasını dəyişdi

**Keçmiş millət vəkili Fəzail Ağamalı dünyasını dəyişib. Bu barədə Tezadlar.az-a sabiq millət vəkilinin partiya silahdaşları məlumat verib. F.Ağamalı az əvvəl Türkiyədə müalicə aldığı xəstəxanada vəfat edib. Fəzail Ağamalının qızı, millət vəkili Günay Ağamalı da faktı təsdiq edib.**



Qeyd edək ki, Fəzail Ağamalı 35 il Ana Vətən Partiyasına sədrlik edib. Bir neçə ay öncə isə həmin partiyanın sədri olmaq uğrunda övladları arasında münaqişə baş vermişdi. O, şəkər xəstəliyindən və təzyiqdən əziyyət çəkirmiş.

Allah rəhmət eləsin.

# Tahir Budaqov bu rayona icra başçısı təyin edildi

**T.Y.Budaqovun Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.**



Tezadlar.az xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sənədə əsasən, Tahir Yaqub oğlu Budaqov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

Qeyd edək ki, Tahir Budaqov yeni təyinatdan əvvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsində çalışırdı.

# EVİ DAĞIDILAN BAYIRŞƏHƏR SAKİNLƏRİ TƏZMİNAT ALACAQ, ƏGƏR...

**Bakının qədim yaşayış və tarix məkanı olan Bayırşəhərin başına açılan müsibətlərdən dəfələrlə yazmışıq. Lakin tariximizə cavabdehlərin gözü qarşısında bu mədəniyyət nümunəsi, turizm məkanı olmalı bir ərazi dağıdılır.**



“Bir tərəfdən baxanda, Bayırşəhər söküntülərində təzə heç nə yoxdur. Mülkiyyət haqqında daşdan keçməli olan kağızların daşlar altında qalması birinci dəfə deyil...”.

Tezadlar.az xəbər verir ki, bunu özünün sosial şəbəkə hesabında ReAL Partiyasının qurucu üzvü İlqar Məmmədov qeyd edib.

İ.Məmmədov əlavə edib: “Amma o biri tərəfdən də baxaq. Əvvəlki ərazilərdə “Qış” və “Mərkəzi” adlı parkların salınacağı öncədən bilinirdisə, Bayırşəhərdəki evlərin yerində nə olacağı hələ də dəqiq məlum deyil. Bu, ciddi hüquqi fərq yaradır. Hətta Memarlar İttifaqının sədri, Bakının keçmiş baş memarı öz müsahibəsində deyib ki, Bayırşəhərin gələcəyi nə Baş planda yer alıb, nə də şəxsən onun özünün bu haqda ətraflı xəbəri var. Deyir, yenidənqurma layihəsini xarici bir şirkət “biz hazırladığımız materialdan açıqaydın istifadə etməklə” tərtib edib, lakin heç kimə göstərmir. İstinad elədiyi “material”a əsasən, Bayırşəhərdə hansısa başqa şəhərsalma həlləri tapılmalıdır, o cümlədən, bəzi köhnə tikililərin otellərə çevrilməsi, eləcə də yeni 3-4 mərtəbəli evlərin tikilməsi. Başqa sözlə, biri var səni evindən şəhərin park ehtiyacına görə çıxarırlar, biri də var daha zəngin insanların tarixi mərkəzdə lüks ev və biznes ehtiyacına görə. Əgər söküntü yerində park olmasa, onda Bayırşəhər sakinləri Avropa Məhkəməsində daha böyük həcmdə təzminat alacaq. Maddi və mənəvi təzminatın həcmini müəyyən edərkən, parkın salınması ilə lüks evli məhəllənin tikilməsi arasında fərqi Məhkəmə məncə nəzərə alar. Bunu deməkdə məqsədim təkcə Bayırşəhər sakinlərinə hüquqi strategiya təklif etmək deyil. YAP hökuməti o ərazidə park yox, evlər və biznes obyektləri tikəsi olsa, yaxşı olardı ki, o yeni mülkləri varlılara indi düşündüyündən də baha satsın, büdcədə ehtiyat fondu yaratsın. Niyə? Çünki 2 il əvvəl seçkidə Bayırşəhər əhalisi bütün ölkə kimi, YAP’ın namizədlərini dəstəklədi, amma qarşıdakı seçkidə çoxluq bunu daha etməyə bilər və onda, Avropa Məhkəməsinin qərarı ilə sakinlərə təzminatın ödənilməsi vaxtı gələndə, ödənişi sizin yox, bizim hökumət etməli olacaq. İndiki hökumətin günahına görə bizim hökumətin bütün əhalidən pul yığıb zorla köçürülənlərə ödəməsi fikri heç xoşuma gəlmir...”.

İndi iş qalır Bakının tarixinə və tarixi abidələrinə, qədim yaşayış məskəni olmasına cavabdehlərin hərəkətinə...

**A.Məmmədli**

**Dövlətçilik əleyhinə xüsusilə ağır cinayətlər törətməkdə ittiham olunan Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin 4 aylıq ev dustaqlığı başa çatır.**

# Ramiz Mehdiyevin ev dustaqlığı daha 3 ay uzadılacaq!



Tezadlar.az xəbər verir ki, bu müddət irihəcmli cinayət işi üzrə ibtidai istintaq tədbirləri üçün yetərli olmayıb. Əlavə sübutların toplanılmasının zəruriliyi nəzərə alınaraq Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) qətimkan tədbiri müddətinin uzadılması ilə bağlı bu günlərdə məhkəməyə müraciət edəcəyi gözlənilir. Qanunvericiliyə görə, xüsusilə ağır cinayət işləri üzrə ibtidai istintaq müddəti maksimum 19 aydır. Bu cinayət işi üzrə 4 aylıq ilkin müddət isə fevralın 14-ü başa çatır. Yeni təqdimat və vəsatətə Səbail Rayon Məhkəməsində baxılmalıdır.

Qeyd edək ki, Ramiz Mehdiyev dövlətə xəyanət, hakimiyyəti zorla ələ keçirməyə yönələn hərəkətlər və cinayət yolu ilə qazanılmış əmlakı leqallaşdırmaqda ittiham olunur. Ötən ilin 14 oktyabrında onun barəsində 4 aylıq ev dustaqlığı qətimkan tədbiri seçilib. Davam edən istintaqla eyni cinayətlə bağlı AXCP sədri Əli Kərimli, onun müavini Məmməd İbrahim və Ramiz Mehdiyevin yaxın adamı olmuş Eldar Əmirov da həbs edilib. Hazırda DTX-nin İstintaq Baş İdarəsində ibtidai istintaq hərəkətləri aparılır. Cinayət işləri üzrə çoxsaylı şahidlərin dindirildiyi bildirilir.

Tezadlar.az-a verilən məlumata görə, Ramiz mehdiyevin ev dustaqlığı daha 3 ay uzadılacaq.

**A. Məmmədli**

# Moskvada ordu generalını güllələyən Dubayda həbs edildi



**General-leytenant Vladimir Alekseyevin qətlə yetirilməsinə cəhdlə bağlı şübhəli bilinən şəxs Dubayda saxlanılıb. Tezadlar.az “Ria Novosti”yə istinadla xəbər verir ki, bu barədə Rusiyanın Federal Təhlükəsizlik Xidməti məlumat yayıb.**

Rusiya İstintaq Komitəsinin açıqlamasına görə, hücumun birbaşa icraçısı hesab edilən Rusiya vətəndaşı Lyubomir Korba Birləşmiş Ərəb Əmirliklərinin hüquq-mühafizə orqanlarının dəstəyi ilə Dubayda saxlanılaraq Rusiya tərəfinə təhvil verilib. Bildirilir ki, iş üzrə digər şübhəlilərdən biri Moskvada tutulub, daha bir nəfərin isə hazırda Ukraynada olduğu iddia edilir. İstintaq Komitəsi qeyd edir ki, Korba Ukrayna kəşfiyyat xidmətlərinin göstərişləri əsasında hərəkət edib. Onun 2025-ci ilin dekabrında Moskvaya terror aktı törətmək məqsədilə gəldiyi və hadisədən bir neçə saat sonra ölkəni tərk etdiyi bildirilir. Kremlin sözçüsü Dmitri Peskov bildirib ki, Rusiya prezidenti Vladimir Putin hadisənin gedişi barədə mütəmadi məlumatlandırılır.

Xatırlatma: V.Alekseyevə sui-qəsd 6 fevral səhəri Moskvanın Volokolamskoye şosesindəki yaşayış binasında baş verib. O, bir neçə güllə yarası alıb və xəstəxanaya aparılıb. General-leytenant Silahlı Qüvvələrin Baş Qərargahının Baş İdarəsinin birinci müavini vəzifəsini tutur. 2017-ci ildə Rusiyanın Qəhrəmanı adını alıb.

# Nəcməddin Sadıkov bu general-leytenantı da güdaza verdi

**Tarix heç kimin əməlini unutmur! Beləliklə, Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin sabiq müavini-Əməliyyat Baş İdarəsinin rəisi olmuş general-leytenant Ayaz Həsənovla bağlı məhkəməyə müraciət olunub.**

Tezadlar.az xatırladır ki, onunla bağlı mülki iddia qaldırılıb. İddiaya Bakıda məhkəmələrin birində baxılacaq. İddia icraata götürülüb. Məhkəmənin hazırlıq iclası fevralın 13-nə təyin edilib. Sabiq Baş Qərargah rəisinin müavini Ayaz Həsənovun ev alqı-satqısı ilə bağlı verdiyi sözə əməl etmədiyi iddia olunur. Belə ki, o, Novxanıda yerləşən bağ evini satarkən evi təmir edəcəyini desə də, verdiyi sözə əməl etməyib. Alıcı Ayaz Həsənova bununla bağlı bir neçə dəfə müraciət etsə də, müsbət cavab ala bilməyib. Ona görə də alqı-satqı müqaviləsinin ləğvi ilə bağlı məhkəməyə müraciət edilib. Hazırlıq iclasında general-leytenantın əmlaklarına həbs qoyulması ilə bağlı vəsatətin veriləcəyi gözlənilir.



Qeyd edək ki, general-leytenant Ayaz Həsənov 2017-2021-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Əməliyyat Baş İdarəsinin rəisi vəzifəsində çalışıb. 2021-ci il iyulun 23-də vəzifəsindən azad edilib. O, Silahlı Qüvvələrinin sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkovun yaxın adamı kimi tanınır. Və onun ayağında yüz milyonlarla yeyintinin olduğu bildirilir.

# SON DƏQİQƏ: ABŞ-ın vitse-prezidenti İrəvanda mitinqlə qarşılanıb

**İrəvan sakinləri etiraz aksiyası keçiriblər.**




Tezadlar.az bildirir ki, bu barədə “Sputnik Armenia” Telegram kanalı məlumat verib.

Vaşinqton vətəndaşları ABŞ-ın vitse-prezidenti J.D.Vensin paytaxta gəlişindən sonra etiraz aksiyası təşkil ediblər. Hadisə Marşal Baqramyan prospektində baş tutub. İştirakçılar Azərbaycandakı erməni əsirlərinin azad edilməsini tələb ediblər.

“Etiraz İrəvanın mərkəzində Vensə məktubun imzalanması ilə başa çatıb. ABŞ-ın vitse-prezidentinə ünvanlanan kollektiv mətndə itkin düşmüş şəxslərin taleyi və Qarabağ sakinlərinin vətənlərinə qaytarılması mexanizmi ilə bağlı suallar da yer alıb”, - deyə nəşr bildirib.

**E.ŞİRİNOV**

# RUBEN VARDANYAN BU GÜN MƏHKƏMƏ QARŞISINA ÇIXARILIR

***“Bir ildən çoxdur davam edən məhkəmə prosesində təqsirləndirilən şəxslərin barəsində yekun məhkəmə qərarı (hökm) elan edilib”***

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi məhkəmənin növbəti iclasının vaxtı məlum olub. Tezadlar.az xəbər verir ki, cinayət işi üzrə proses fevralın 10-da davam etdiriləcək.**



Qeyd edək ki, məhkəmə prosesi dekabrın 30-da qeyri-müəyyən müddətədək təxirə salınıb. Buna səbəb həmin cinayət işi üzrə hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət məhkəmə heyətinin (ehtiyat hakim Günel Səmədova) digər iş (15 nəfər Ermənistan vətəndaşının barəsində cinayət işi) üzrə məhkəmə iclasında müşavirəyə getməsi göstərilib. Beləliklə, R.Vardanyanın barəsində cinayət işi üzrə növbəti məhkəmə iclası məhkəmə heyəti müşavirədən qayıdandan sonra keçiriləcək.

Xatırlatma: Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası fevralın 5-də davam etdirilib.

Ötən il yanvar ayının 17-də başlamış və bir ildən çoxdur davam edən məhkəmə prosesində təqsirləndirilən şəxslərin barəsində yekun məhkəmə qərarı (hökm) elan edilib.

# Bakı milyonçusunun memarlıq abidəsi və şəhid məzarlığı dağıdıldı

**Keçirəm mətləbə: "Təzadlar" qəzetinə ictimaiyyət nümayəndələri tərəfindən müxtəlif problemlərlə bağlı müraciətlər olur. Redaksiya bu müraciətləri heç vaxt diqqətdən kənarda qoymur, problemlərə işıq salır və çözməyə çalışır. Buna oxucular dərc etdiyimiz yazılardan şahidlik edirlər. Budəfəki müsahibimiz isə hazırda Türkiyədə yaşayan soydaşımızdır: Rəna Əliyeva! O, 20 ildən çox müddət ərzində ona vədlər verib, sənədlər təqdim edərək ulu babasından qalan tarixi mədəni abidəmiz olan məscidin və digər tarixi irsin qorunmasını təşkil etməyən, zamanında bərpasını gözardı edən Mədəniyyət Nazirliyindən şikayətçidir.**

## *"Mədəniyyət Nazirliyi babam Hacı Sultan Əlinin tikdirdiyi məscid dağıldıqdan sonra məscidi şəxsi vəsaitimlə bərpa edə biləcəyimi bildirdi..."*



*Məsçidin fotosu - 2005-ci il*

Rəna xanım redaksiyamıza uzun illər zamanını sərf edərək əldə etdiyi arxiv və məhkəmə sənədləri, müxtəlif qurumlara ünvanladığı müraciətlər, verilən cavab məktubları ilə gəlib.

***

Müsahibədən öncə biz də həmin sənədlərlə tanış olduq, araşdırdıq və səhihliyinə tam əmin olduq:

**-Rəna xanım, istərdim özünüz barədə, nəsil-şəcərənizlə bağlı oxuculara ətraflı məlumat verəsiniz.**



-Mən - Rəna Əliyeva Nadir qızı (Haşimi) 1964-cü ildə Bakı şəhərinin Yasamal rayonunda, babamın əvvəllər «Saray" deyilən mülkündə anadan olmuşam. Türkiyəyə getməzdən əvvəl uzun müddət Rusiyada yaşamışam. Azərbaycan vətəndaşıyam. Ulu babamın adı Hacı Sultan Əli (Haşimi) Haşim oğlu Bakı milyonçusu olub. Mən nəslimizlə - ulu babalarımla bağlı bütün faktları arxivdən əldə etmişəm. Sağ olsun Arxiv İdarəsinin əməkdaşları ki, mənə kömək etdilər və bu sənədləri əldə etdim. Yəni, faktlarla, sənədlərlə danışıram. Anam Ədibə xanım Hacı Sultan Əlinin oğlu Möhtəşəm Haşiminin qızıdır. Mən onun nəticəsiyəm və bunu məhkəmədə də təsdiq etdirmişəm. Biz Sultan nəvələriyik, ondan daha əvvəl isə haşimilər nəslindənik.

**-Məlumatlara görə, İordaniya krallarının nəsli haşimilər nəslindən olublar. Və hazırda İordaniya Haşimilər Krallığı da məhz bu tarixi fakta görə belə adlandırılıb. Əsl adı Əmr ibn Əbdi-Mənaf olan Haşim Həzrət Məhəmməd Peyğəmbərin (s) atasının babasıdır. Qüreyş soyundan olub. Siz həmin haşimilər nəslindən bəhs edirsiniz?**

-Bəli, vaxtilə Ərəbistandan İrana köç edən haşimilərə farslar orada yaşamağa problem yaratdığı üçün o zaman Araz çayını keçərək Lerik, Astara, Lənkərandan... yol alıblar Şirvanşahlar Sarayına. O rayonlar müqəddəs torpaqlardır, çünki haşimilər o ərazilərdən keçiblər.

**«Babamıza atasından miras qalmış həmin mülkün də bir hissəsi sökülərək yerində həmin metro stansiyası inşa edilib..."**

Zəlzələdən sonra Şirvanşahlar Sarayından indiki «20 yanvar", "Şamaxinka" adlanan ərazidən aşağılara doğru eniblər... Hacı Sultan Əli babam Möhtəşəm Haşimini evləndirəndə indiki "Nizami" metrostansiyasının yanındakı ərazidə yerləşən sarayının yanında daha bir saray tikdirib. Yusif əfəndinin oğlu Loğman babamızın qızı Şirvan xanımı, hansı ki, İçərişəhərdə yaşayırmışlar, oradan gəlin gətiriblər. Azərbaycanda sovet hökuməti qurulduqdan sonra həmin saraylar ləğv olundu və arxivdən sənədlər mənə malikanə kimi qeyd olunaraq verildi. Hazırda da həmin saray mövcuddur. Məlum olduğu kimi, həmin dövrdə ailəmizə məxsus saraylar da bizdən alınıb və ailəmizə cəmi 2 otaq verilib. Babamıza atasından miras qalmış həmin mülkün də bir hissəsi sökülərək yerində həmin metro stansiyası inşa edilib. Ümumiyyətlə, metro ətrafı ərazi ulu babalarıma aid olub. Əlimdə bu barədə təsdiqlənmiş sənədlər var. Babam 1880-ci illərdə həmin ərazidə "Axund hamamı" da tikdirib. Hazırda hamam yerli əhəmiyyətli memarlıq abidəsi kimi qorunur. Babamın tikdirdiyi hamamın kitabəsi var. Onu da AMEA-da tərcümə etdirmişəm. Tərcüməsi belədir: *"Hicri 1306 (miladi 1888 -1889) Kərbəlayi Zeynalabdin memar-usta tərəfindən inşa olunmuşdur. "İlahi, bu imarət əbədi olaraq qalsın. Sahibi isə düşmənlərə qalib olsun." "*

**«İlk dəfə Balaxanıda neft çıxaran ulu babam olub. Məşhur Rokfellerlər ulu babamla ortaq olublar..."**

**-Hətta bir neçə il öncə Mədəniyyət Nazirliyinin xüsusi mülkiyyətdə olan həmin hamamın lövhəsini üzərindən çıxararaq satmağa çalışdığı da deyilirdi...**

-Bəli, həmin hamam vaxtilə nazirlikdən icarəyə götürülmüşdü, hətta sauna kimi istifadə olunub...

**-Hacı Sultan Əli (Haşimi) milyonçu olmaqla yanaşı, həm də xeyriyyəçi olub.**

-İlk dəfə Balaxanıda neft çıxaran ulu babam olub. Məşhur Rokfellerlər ulu babamla ortaq olublar. Hətta onlara torpağı da ulu babamın atası Haşimi verib - orda neft çıxarmaq üçün şərait yaradıb. Əldə etdiyim sənədlərə əsasən, ulu babam Hacı Sultan Əli 1851-ci ildə Balaxanıda doğulub, 1927-ci ildə vəfat edib. Sultanəli Haşimi və Kərbəlayi Loğman babalarımın adları 1910-cu ildə Çar hökumətinin Balaxanı kəndinin fəxri vətəndaşları siyahısındadır **(32 nəfərlik siyahını - sənədin surətini göstərir. RED.)**. Bakıda ilk telefon xətti də babam üçün çəkilib. Bunu sənəddəki siyahıdan görmək olur: Hacı Sultan Əlinin telefon nömrəsi - 1. 11. Rusların dövründə Haşimi familiya kimi Aşumov adlandırılıb. Hacı Sultan Əli gənc yaşlarında bacısı Tərlan xanım tərəfindən üç dəfə evləndirilib. Amma heç birindən övladı olmayıb. Sonradan bacısı onu övladı olan dul bir xanımla evləndirib. Həmin qadından oğul övladı dünyaya gəlib. Və bundan sonra əvvəlki xanımlardan da övladlar dünyaya gəlib: iki qız, dörd oğlan. Onları da gimnaziyada oxutdurub. Sonradan kiçik oğlu Mövsüm Haşimi (o zaman Aşumov) indi "AZİ" deyilən ADNSU-nun 1934-cü ildəki ilk məzunlarından olub. Babam xeyriyyəçi olub. Məscidlər tikdirib, onun vəsaiti ilə məktəblər açılıb. O zamanlar birinci hamam, sonra isə yanında məscid tikərmişlər. Hamı dəstamaz alıb məscidə ibadətə girərmiş. Uzaq yoldan gələn yolçular da məscidlərdə gecələyərmişlər. Babamın harda mülkü olubsa, orada birinci hamam, sonra qadınlarla izdivaclardan, ola bilsin ki, dini nikahlardan uşaqlar dünyaya gəlib.

Rəna xanım söhbətinə davam edir:

-...Ulu babam çox maarifpərvər olub. O, nəinki öz övladlarının, hətta mədənlərində çalışmaq üçün müxtəlif bölgələrdən gəlmiş şəxslərin uşaqlarının da təhsil almasını istəyib. Ona görə də onlar üçün Balaxanıdakı mülklərindən birini məktəbə çevirib. Təqdim etdiyim bu şəkildən gördüyünüz kimi, məktəbin açılışında M.Ə.Sabir, H.Z.Tağıyev, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Bakı şəhərinin Axundu (hansı ki, ulu babamın atası Sultan Haşimi axund təyin edib), Hacı Sultan Əli və digər şəxslər iştirak edirlər. Arxa tərəfdəki yeniyetmə oğlanlar isə babamın mədənlərində çalışanların övladlarıdır.

**«Əminə bibim (Sultan Əli Haşiminin qızı) danışırdı ki, o vaxt M.Ə.Sabiri Şamaxıda öldürmək istəyirmişlər, şair Sultan Əli təcili babamın yanına gələrək ondan kömək istəyib və..."**

Hansı ki, həmin məktəbdə təhsil alacaqdılar. Və hətta həmin uşaqların papaq quruluşundan kimin övladı olduğu məlum olurmuş. Çünki hər bölgənin öz papaq görünüşü vardı: şiş, yastı və s. Əminə bibim (Sultan Əli Haşiminin qızı) danışırdı ki, o vaxt M.Ə.Sabiri Şamaxıda öldürmək istəyirmişlər. Şair Sultan Əli babamın yanına gələrək ondan kömək istəyib. Sabir o zaman xəstə imiş. Babam da onu Ləhiş bağlarına göndərib. Ləhiş bağlarındakı loğman da onu müalicə edib... Onun hər sarayında loğmanı olub. O, bir müddət Balaxanıda babamın mülklərindən birində yaşayıb və həmin məktəbdə də müəllimlik edib. Həmin təhsil ocağı sovetlər dönəmində də məktəb kimi fəaliyyət göstərirdi. Sonralar həmin məktəb restavrasiya edilərək restoran edildi.



*Hacı Sultan Əlinin kiçik oğlu Mövsüm Haşimi...*

məscid tikdirib. Balaxanı kəndində 69 nömrəli məktəb var, əvvəllər məscid olub. Babam həmin məsciddə insanları qəbul edər, dərd-sərlərini, yaxud təkliflərini dinləyərmiş...

**"Mənim babamın tikdirdiyi məktəbdə hazırda küftə satırlar..."**

Onu da deyim, milyonçular övladlarının hələ kiçik yaşlardan evdəki təlim-tərbiyəsinə ciddi diqqət göstərərmişlər. Məlumatlara görə, Bakıya gəmilərlə İsveçrədən, Fransadan və digər Avropa ölkələrindən "qubernantka"lar gətirərmişlər ki, həmin qadınlar milyonçuların övladlarına həm xarici dil öyrətsinlər, həm də təlim-tərbiyəsində iştirak etsinlər. Fikir verənizsə, Balaxanıda yaşayan insanlar arasında açıq göz rəngli, sarışın insanlar çoxdur. Hansı ki, Ərəbistandan köç edənlərin əksəriyyəti qarabuğdayı olublar. O zaman varlı şəxslərin ailələrində həmin "qubernantka"

**«İndi Sabirin dərs dediyi məktəbdə küftə satılır, içki içilir... "Balaxanı küftəsi - Natiqin küftəsi" adlı..."**

Bildiyim qədər, bir xanım iş adamı Balaxanıdan olan yüksək vəzifəli şəxslərin köməyi ilə məktəbi özəlləşdirib. Sahibkar əvvəl toy salonu kimi istifadə edib. Sonradan görüb ki, işin üstü açılacaq, satıb. Satdığı adamlar indi oranı məşhur küftəxana ediblər - **"Balaxanı küftəsi - Natiqin küftəsi"**. İndi Sabirin dərs dediyi məktəbdə küftə satılır, içki içilir...



**"1918-ci ildə Bakıda baş verənlərlə bağlı xəbəri də Türkiyəyə babam Hacı Sultan Əli göndərmişdi..."**

Vaxtilə Hacı Zeynalabdin Tağıyev bənna olanda - inşaat işlərinə baxanda babamın bir çox tikinti işlərini həyata keçirib.

**-Bəli, əvvəllər bənnalıq etsə də, sonralar Bibiheybətdə aldığı torpaqda neft quyusu fontan vurdu və Zeynalabdin Tağıyev milyonçu, eyni zamanda tanınmış xeyriyyəçi, mesenat oldu. Azərbaycan xalqı üçün böyük miras qoyub. Əməlləri öyməklə bitməz...**

-Xeyr... O vaxtlar milyonçular ev tikdirirmiş və qızıllarını saxlamaq üçün evlərində xüsusi arakəsmə hördürüb qızılları orada saxlayırmışlar. İndiki kimi banklar yox idi... Bir gün belə bir ev inşa olunanda Tağıyevin gözlərini bağlayıb faytonla əraziyə aparıblar. Həmin şəxs illər sonra vəfat etdikdən sonra övladları mülklərini satmağa başlayıb. Fərsiz övladlar çox olur... Tağıyev də həmin mülkü alıb. Ölən şəxsin heç bir ailə üzvü isə bu barədə məlumata malik olmayıb.

**-Bütün bunlar iddiadır. Siz bunu hardan bilirsiniz?**

-Bu barədə mənə ulu babam Hacı Sultan Əli Haşiminin qızı Əminə xanım danışıb - babam Möhtəşəmin bacısı.

**-Yenə də vurğulayım ki, bu təsdiq olunmamış iddiadır və ilk dəfədir ki, eşidirəm... Ola bilsin ki, Tağıyevin sonradan milyonçu olması belə şayiələrə səbəb olub... Bəs necə oldu ki, ulu babanızla, köklərinizlə bağlı araşdırmalar aparmağa başladınız?**

-Mən uşaqlıqda Hacı Sultan Əlinin qızı Əminə xanımın, bacısı Sona xanımın yanında yaşamışam. Ətrafımda olan insanlar mənə «şahzadəmsən, sultanımsan" deyərək əzizləyərdilər. Əlbəttə, mən uşaqdım, mənasını anlamırdım. O zamanlar belə sözləri dilə gətirməyə belə qorxardılar. Əminə xanım mənə "sən sultan nəvəsisən " deyərdi və sonra da əlini dodağının üstə qoyaraq susmağı işarə edərdi. O, tibb fakültəsini bitirmişdi, həkim işləyirdi (Amma heç zaman ailə qurmadı. Səbəbi isə kiçik qardaşı Mövsüm Haşiminin 1939-cu ildə müharibədən geri qayıtmaması olub). Həmin dövrdə qorxudan ulu babalarımıza məxsus şəkillərin, sənədlərin çoxu yandırılaraq məhv edilmişdi.

**(Davamı 8-ci səhifədə)**

**...Müəllim cəmiyyətin intellektual və mənəvi inkişafında xüsusi rol oynayan əsas fiqurlardan biridir. Tarixən müəllimlik peşəsi yalnız bilik ötürülməsi ilə deyil, eyni zamanda tərbiyə, əxlaq və vətəndaş məsuliyyəti ilə assosiasiya olunub və ən vacibi, müəllim adı cəmiyyətdə hörmət və etimad mənbəyi kimi qəbul edilmişdir. Bu baxımdan, müəllim anlayışı uzun illər boyu müəyyən mənada müqəddəs dəyər statusu daşımışdır.**

# Müəllim müqəddəsliyi - keçmişin hörməti və müasir dövrün sınaqları...

*"Valideyn məsuliyyəti zəiflədikdə, bu yükün təkbaşına məktəbin üzərinə düşməsi effektiv nəticə vermir"*



Keçmiş dövrlərdə şagird-müəllim münasibətləri qarşılıqlı hörmət, intizam və yazılmamış etik normalar əsasında qurulurdu. Şagird müəllimi nümunəvi şəxsiyyət və ailə böyüyü kimi qəbul edir, müəllimin mövqeyi valideynlər tərəfindən dəstəklənirdi. Eləcə də, müəllimə qarşı hörmətsizlik təkcə məktəb qaydalarının pozulması deyil, ailə tərbiyəsinin zəifliyi kimi dəyərləndirilirdi. Bu mühitdə müəllim nüfuzu həm məktəb daxilində, həm də cəmiyyət səviyyəsində qorunurdu.

***

Müasir dövrdə isə təhsil mühitində bu münasibətlər ciddi şəkildə transformasiyaya uğramışdır. Şagird-müəllim münasibətlərində məsafənin azalması bəzi hallarda intizamın zəifləməsi və müəllim nüfuzunun sarsılması ilə müşayiət olunur. Valideynlərin məktəb prosesinə qeyri-konstruktiv müdaxiləsi isə müəllimin mövqeyinə etimadsız yanaşma hallarına gətirib çıxarır və təhsil mühitində gərginlik yaradır. Nəticədə məktəb ailə ilə birgə tərbiyə məkanı olmaqdan çıxaraq, müəyyən hallarda qarşıdurma məkanına çevrilir.

Son günlərdə azyaşlı bir şagirdin müəllimə qarşı törətdiyi ağır zorakılıq hadisəsi (liseydə güllələnmə) cəmiyyətdə ciddi narahatlıq və dərin sarsıntı doğurmuşdur. Bu fakt yalnız fərdi hadisə kimi deyil, daha geniş sosial məsuliyyətsizliyin nəticəsi kimi qiymətləndirilməlidir. Burada valideyn nəzarətsizliyi və etinasızlığı əsas amillərdən biri kimi ön plana çıxır. Azyaşlının davranışında formalaşan aqressiya və zorakılığa meyl, ilk növbədə ailə mühitindəki tərbiyə boşluqları, diqqət və məsuliyyət çatışmazlığı ilə əlaqələndirilməlidir. Valideyn məsuliyyəti zəiflədikdə, bu yükün təkbaşına məktəbin üzərinə düşməsi effektiv nəticə vermir. Uşağın əlində silah və qəlbində aqressiya yaranırsa, bunun kökü ailədən, laqeyd münasibətdən, sevgi və diqqət boşluğundan başlayır.

Eyni zamanda, qeyd edilməlidir ki, müəllim adının müqəddəsliyi onu daşıyan hər bir şəxsin davranışı ilə birbaşa bağlıdır. Müəllim də insandır və bəzi hallarda psixoloji gərginlik, aqressiya, yaxud özünü təsdiqetmə ehtiyacı peşə etikası çərçivəsindən kənara çıxan davranışlara səbəb ola bilər. Şagirdə (yaxud, tələbəyə) qarşı psixoloji təzyiq, alçaldıcı münasibət və qeyri-peşəkar davranışlar müəllim nüfuzuna da ciddi zərbə vurur, şagirdlərdə (yaxud tələbələrdə) uzunmüddətli psixoloji travmalar yaradır və ümumi təhsil mühitinə mənfi təsir göstərir.

Bu baxımdan, müəllimlik peşəsinin nüfuzunun qorunması üçün təkcə cəmiyyət tərəfindən hörmət gözləntisi kifayət deyil. Müəllim nüfuzu peşəkarlıq, etik davranış, psixoloji dayanıqlıq və yüksək məsuliyyət hissi ilə möhkəmləndirilməlidir. Eyni zamanda şagirdin hüquq və vəzifələri, valideynin tərbiyəvi məsuliyyəti və cəmiyyətin nəzarət mexanizmləri balanslı şəkildə təmin olunmalıdır.

Nəticə etibarilə, sağlam və təhlükəsiz təhsil mühiti müəllim, şagird və valideyn arasında qarşılıqlı etimad və məsuliyyət prinsipləri üzərində qurulmalıdır. Bu zəncirin istənilən halqasının zəifləməsi ciddi sosial və mənəvi fəsadlara yol aça bilər. Müəllim adı yenidən cəmiyyətdə mübahisəsiz hörmət mənbəyinə çevrilə bilər. Bunun üçün müəllim peşə etikası qorunmalı, valideyn məsuliyyəti gücləndirilməli, şagirdlərə isə azadlıq və sərbəstliklə yanaşı, intizam və cavabdehlik anlayışı aşılanmalıdır. Yalnız bu halda müəllim müqəddəsliyi formal anlayışdan çıxaraq real məzmun qazanacaq və təhsil sistemi öz əsas missiyasını layiqincə yerinə yetirəcək.

**Ramil Mərzili,**
**AYB üzvü,**
**Prezident təqaüdçüsü**



# BU TANINMIŞ SƏİDƏ BƏKİRQIZI KİMİ QALMAQAL SEVƏNLƏRƏ SƏRT CAVAB VERDİ

**...Təəssüflər olsun, qaşınmayan yerdən qan çıxartmaqla ictimai narazılığa yol açma indi dəbdədir... Yeri gəldi-gəlmədi hay-küy salmaq, özünü reklamlamaq kimi həvəskarlar da az deyil. Tanınmış ictimai xadim İbrahim Mehdi belələrinə sərt cavab və məsləhət verdi. Tezadlar.az həmin fb statusu təqdim edir:**

**"Özünü jurnalist adlandıranlar niyə araşdırmırlar ki:**

-Evi zəbt edən, evi zəbt olunan kimdir?

-30 il əvvəl zəbt olunan ev hansı təşkilatındır, çıxarışı olubsa, sahibi kim olub?

-Səs yazısı sübut deyilsə, bunu araşdırmadan tirajlamaq, bir nəfərin günahını çoxluğun adına yazmaqda məqsəd nədir?

-İki yerdə evi olan məcburi köçkünlərdən son illər mənimsəmə, korrupsiya, vəzifə səlahiyyətlərindən istifadə edən, həbs olunan varmı?

-Ölkənin sağdan, soldan təhdid olunduğu bir məqamda daxildə qarşıdurmaya, əsassız ittihamlara, ayrı-seçkiliyə sövq edilməsi anlaşılandırmı?!

Suallar çox, cavab verən isə yox.

O ki, qaldı jurnalistika və jurnalist adını daşımağa iddialılara, bunun üçün dövlətin səlahiyyətli qurumları, ictimai təşkilatları var. Zəhmət çəkin, bu sahədə yaranmış xoşagəlməz hallarla bağlı tədbirlər görün. Jurnalistika bəlağətli, pafoslu, diqqət cəlb etmək üçün danışıq meydanı deyil. Başqa peşə, sənət sahələrində olduğu kimi, bu sahədə də, yaxşını pisdən fərqləndirmək üçün sertifikasiya və başqa üsullardan istifadə etməyə ehtiyac var".

**SƏBUHİ**

# "Tərtər işi"ndə zərərçəkən maddi və mənəvi ziyana görə 10,5 milyon manat tələb edir!



**"Tərtər işi"ndə işgəncə nəticəsində öldüyü istintaq tərəfindən sübuta yetirilən leytenant Təmkin Nizamioğlunun ailəsi 50 min manat mənəvi təzminatdan imtina edərək apellyasiya şikayəti verib. Ailə vurulmuş maddi ziyanın əvəzinin ödənilməsinə görə 509 min 654 manat, mənəvi zərərə görə isə 10 milyon manat Maliyyə Nazirliyi vasitəsi ilə dövlət büdcəsindən tutularaq ona ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş edib.**

<u>Hərbi ekspert Ədalət Verdiyev yazır:</u> "...Nizami Quliyevin apellyasiya şikayəti təmin edilməyib.

Qeyd edək ki, leytenant Təmkin Nizamioğlu Tərtərdəki N saylı hərbi hissədə xidmət edib, Aprel döyüşlərinin iştirakçısı olub. Təmkinin işgəncəyə məruz qalmasına gəlincə, bu, onun təlimdə olduğu zaman baş verib. Belə ki, zabit təlimdən çağırılaraq Şırxarx qəsəbəsinə gətirilib və burada ona işgəncə verilib. 2017-ci ilin mayın 15-də isə ailəsinə Təmkinin öldüyü, cənazəsinin Ordubada göndərildiyi deyilib. Təmkinin nəşi atasının iştirakı olmadan Ordubadın Darkənd kəndində torpağa tapşırılıb.

Dəfn prosesində tabutun açılmasına icazə verilməyib, onun ürək çatışmazlığından vəfat etdiyi qeyd olunub. Ailənin müraciətlərindən sonra isə Təmkin Nizamioğlunun pnevmaniya - kəskin ağciyər çatışmazlığından ölməsi haqda tibbi rəy verilib.

2022-ci ilin mayın 11-də Təmkin Nizamioğlunun meyiti ekshumasiya olunub. Dövlət qurumlarının iştirakı ilə məzar açılan zaman, bədənin müxtəlif nahiyələrində sınıqlar aşkarlanıb. Onun küt alətlə döyüldüyü müəyyənləşdirilib. Cinayət işinin nəticəsi ilə sonradan müəyyən edilib ki, Təmkin Nizamioğlun günahı olmayıb, o, vətənə xəyanət etməyib. Bu proses yəqin ki, AİHM-də həllini tapacaq və Azərbaycan dövləti zabitin ailəsinə çox böyük miqdarda kompensasiya ödəyəcək. Təmkini döyüb öldürənlərə əmr verənlər, qanunsuz qərar qəbul edənlər isə kənarda qalacaq. Əslində bu tip proseslərdə dövlətin maliyyə yükü qatillər və onları mühafizə edənlər tərəfindən ödənilməsi daha məqsədəuyğun olardı".

**"Təzadlar"dan: Peşəkar hərbçilərimizi Vətən xaini etdirənlər mütləq cəzasını almalıdır! Və bu təzminatları Dövlət yox, həmin rütbəlilər ödəməlidirlər... Çünki belə olmazsa, bu tip qanunsuzluqlar davam edəcək, dərs olmayacaq...**




# RESTORANA MAL ƏTİ KİMİ SATACAQLARI AT ƏTİNİ ÖZLƏRİNƏ YEDİRDİB TV-DƏ GÖSTƏRƏCƏKLƏR!

**...At, eşşək, ölmüş camış ətini dana əti adı ilə sırımaq istəyənlərin cəzası nə olmalıdır? Təbii ki, inzibati cəza, cərimə keçərli deyil... Dəfələrlə yazmışıq ki, bu ətdən boşbaş bişirib həmin adamlara yedirtmək və TV-lərdə göstərmək lazımdır...**

Elə bu niyyətlə də Daxili İşlər Nazirliyi (DİN) və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) birgə reyd keçirib. Tezadlar.az xəbər verir ki, reyd zamanı Tərtər rayonunun Buruc kəndində Cəfərov Tural Əmrah oğluna məxsus tövlədə istehlaka yararsız ümumi çəkisi 146,8 kq olan sümükdən ayrılmış at əti, həmçinin 1 ədəd at başı və sümükləri aşkar edilib. Məlum olub ki, sözügedən atı eyni kənd sakinləri Seymur Baloğlan oğlu Məmmədov və Həsən İntiqam oğlu Cəfərli tövləyə gətirərək, qəssab Quliyev Seyfəddin Arif oğlu ilə birlikdə kəsiblər. Daha sonra sümükdən ayrılan əti paketlərə qablaşdırıblar. Həmin şəxslər at ətinin mal əti adı altında satılması məqsədilə Bakı şəhərinə Cəfərov Elməddin Bulud oğluna göndərməyi nəzərdə tutduqlarını bildiriblər. İstehlaka yararsız at ətindən nümunələr götürülərək soyuducu anbarda saxlanca yerləşdirilib. Faktla bağlı araşdırmalar davam etdirilir.

Bu da fırıldağın sonu!

**SƏBUHİ**



# Səfər Mehdiyev keçmiş köməkçisini niyə həbs etdirdi?

*"Hazırda aliment ödəyir, təqaüdünün 60 faizi alimentə yönəlir"*

**Dövlət Gömrük Komitəsinin müxtəlif yüksək vəzifələrdə çalışmış təqaüddə olan polkovniki Həbib Bağırlı həbs edilib.**

Tezadlar.az xəbər verir ki, 1980-ci il tarixdə Naxçıvan Muxtar Respublikasında anadan olmuş Həbib Bağırlı barəsində İnzibati Xətalar Məcəlləsinin 528.1-1-ci maddəsi protokol tərtib olunub və işə məhkəmədə baxılıb.

Məhkəmədə məlum olub ki, Həbib Bağırlının Bakıda fəaliyyət göstərən ASC-lərin birinə 423.489,69 manat borcu yaranıb. 2024-cü ildə Nərimanov rayon Məhkəməsi onun borcu ödəməsi barədə qətnamə çıxarıb. Üzərindən xeyli müddət keçməsinə baxmayaraq, Həbib Bağırlı borcundan cəmi 99 min manata yaxın ödəniş edib və 325.033 manat ödənilməmiş borc qalıb.

Nərimanov rayon İcra və Probasiya Şöbəsi tərəfindən Bağırlı Həbib Zahid oğlu barəsində protokol tərtib edilərək məhkəməyə müraciət edilib. O, məhkəmədə bildirib ki, gömrük orqanlarında müxtəlif vəzifələrdə işləyib və pensiyaya çıxıb.

Qeyd edib ki, hazırda aliment ödəyir, təqaüdünün 60 faizi alimentə yönəlir. Bu səbəbdən onun təqaüdünə yönəlmə dayandırılıb. İcra sənədi üzrə zamin olub, bağ evini girov qoyub, ev satılıb və borcun ödənilməsinə yönəldilib. Həbib Bağırlı barəsində inzibati xəta haqqında protokola xitam verilməsini məhkəmədən xahiş edib.

Məhkəmə isə təqaüddə olan polkovnikin xahişini nəzərə almayıb, onu İnzibati Xətalar Məcəlləsinin 528.1-1-ci maddəsində nəzərdə tutulan inzibati xətanı törətməkdə təqsirli bilib və barəsində 15 gün müddətində həbs qərarı verib.

Qeyd edək ki, Həbib Bağırlı 2018-2022-ci illərdə Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevin köməkçisi olub. 2022-ci ildə Səfər Mehdiyev vəzifəsindən azad olunduqdan sonra o da işdən çıxarılıb və təqaüdə göndərilib. Həmin ildən 2024-cü ilə kimi "Səba" Açıq Səhmdar Cəmiyyətində təftiş və nəzarət şöbəsinin müdiri vəzifəsində çalışıb. Ehtimal edilir ki, Həbib Bağırlı ASC-də çalışdığı müddətdə sözügedən şirkətə 423.489,69 manat ziyan vurub.

Xatırladaq ki, Həbib Bağırlı Dövlət Gömrük Komitəsində çalışdığı müddətdə "Dövlət qulluğunda fərqlənməyə görə" və digər mükafatlara layiq görülüb.

# Uzun illərdir vərəmdən müalicə alan gəncin hərbiyə yararlığına kim rəy verib?

**Dünən Mərkəzi Klinik Hərbi Hospitalda vəfat edən Müdafiə Nazirliyinin əsgəri Coşqun Zülfüqar oğlu Sadıqovun vərəm xəstəsi olduğu barədə rəsmi açıqlama yayılmışdı. Tezadlar.az xəbər verir ki, bu barədə hərbi ekspert Ədalət Verdiyev özünün sosial media platformasında da yazıb.**



Hərbi ekspert paylaşımında yazlb ki, Coşqun atasız olub, özü də vərəmdən əziyyət çəkirmiş. Sitat: "Vərəm xəstəsini minlərlə şəxsi heyətin olduğu hərbi hissəyə göndərmək böyük risklər vəd edir. Əgər əsgər xəstə idisə, hərbi xidmətə niyə göndərilib, hərbi hissə niyə xəstə əsgəri geri qaytarmayıb, yox əgər əsgər sağlam idisə, niyə 10 gün ərzində xəstələndi və dünyasını dəyişdi? Bütün suallara cavab tapılmalı, günahkarlar qanun çərçivəsində cəzalanmalıdır". Və maraqlıdır ki, **hərbi bloqer Tofiq Şahmuradov da diqqəti çəkən paylaşım edib. Sitat:** "Rəhmətə gedən əsgərin yaxınları bir az öncə mənimlə əlaqəyə çıxdılar. Atası yoxdur, anası böyüdüb. 25 yaşı olub, ağır vərəm xəstəsi imiş. Bir neçə dəfə xəstəliyinə görə həyati təhlükə yaşıyıb və bu səbəbdən 7 il hərbi xidmətə aparılmayıb. Buna baxmayaraq, bu çağırışın son günlərində qəfil göndərilib. Belə ağır vərəm xəstəsi yüzlərlə əsgərin içinə necə göndərilib?! Bu, orduya qarşı böyük təxribatdır, vərəm xəstəliyi keçicidir. İnsanlar yoluxa bilər. Əsgər xidmətə gedəndən 4-5 gün sonra vəziyyəti ağırlaşıb, xəstəxanada vəfat edib".

Quru Qoşunlarında xidmət edən C.Sadıqov vəfatından 10 gün əvvəl - yanvarın 26-da hərbi xidmətə gedibmiş.

**Lakin sual yaranır:** mövcud qaydalara görə, hərbi çağırış rayonların hərbi komissarlıqları, yəni Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələri tərəfindən həyata keçirilir. Hərbi çağırışçı isə həkim komissiyasından keçir, yararlığı təsdiqləndikdən sonra hərbi xidmətə götürülür.

Daha bir sual yaranır: vərəm kimi ciddi bir xəstəlikdən uzun illərdir əziyyət çəkib müalicə alan çağırışçını necə əsgər aparmaq olardı?

Yaxud, hərbi çağırışçıya sağlam olması barədə rəy verən həkim kimdir və o bunu necə və nə məqsədlə edib? Niyə belə bir xəstəni hərbi çağırışdan geri almayıblar, yəni birdəfəlik yararsızlığı təsdiqlənməyib???

**A.Məmmədli**

# "Alimlər Evi" tikilsin!- VACİB TƏKLİF

## *Ölkəmizdə alimə və elmə münasibət dəyişməlidir ki...*



**...Bir çox digər müsbət təcrübələr kimi, ölkəmizdə "mütəxəssis evlərinin" tikilməsi təcrübəsi də eyni qaydada yoxa çıxıb. Bakıda ilk "mütəxəssis evləri" 1930-cu illərdə mühəndislər, elm adamları, mədəniyyət xadimləri və digər ziyalılar üçün rahat yaşayış şəraitinin təmin edilməsi məqsədilə tikilmişdi.**

Gənc alimlər və mütəxəssislər üçün təkmilləşdirilmiş yaşayış (məişət) şəraiti və ailə əsaslı yaşayış yerləri təklif edən 1932-ci il "Mütəxəssislər Evlərinin Tikintisi haqqında" fərmana əsasən, Bakıda 100 mənzilli üç binanın istismara verilməsi planlaşdırılmışdı. Hər mənzil mətbəx, vanna otağı və sanitar qovşağı olmaqla, üç-dörd otaqdan ibarət olacaqdı. Bu binalar haqqında məlumat axtararkən yalnız Neftçilər prospektində Sadıx Dadaşov və Mikayıl Useynov tərəfindən layihələndirilmiş, Funikulyor və Bəhram Gur abidəsinin yanında yerləşən "Alimlərin Yaşayış Evi" haqqında məlumat tapmaq mümkün oldu. Lakin, məlum olduğu kimi, elm adamları bu binada yaşamırlar. Bu məsələni Azərbaycan Milli Elmlər Akademiyasının alimləri və əməkdaşları ilə müzakirə etmək qərarına gəldik. "Sizcə, belə bir binanın tikilməsi ölkədə elmin inkişafına necə təsir edəcək?"- sualımıza aşağıdakı cavabları aldıq:

-Yalnız müsbət! Bu tədbir bir neçə problemi eyni anda həll edəcək və dövlətin sosial yükü dərhal azaldılacaq. Məsələn, gənc alimlər mənzillə təmin olunacaq və yaşlı alimlər bütün həyatlarını həsr etdikləri mühitdən ayrılmayacaqlar. Elmlər Akademiyasında 75 yaşdan yuxarı çoxlu sayda alim çalışır. Onların əksəriyyəti başqa yerləri olmadığı üçün işdən çıxarıla bilməyən tənha yaşlı insanlardır. Onlardan dəfələrlə könüllü olaraq istefa verməleri istənilib və cavab həmişə eynidir: "Niyə evdə tək oturmalıyam? Ürəyim parçalanır və yarım əsrdən çoxdur ünsiyyətdə olduğum və işlədiyim insanlar buradadır". Təsəvvür edin ki, bu insanlar "Alimlər Evi"ndə yaşasaydılar - qonşu olardılar, daim əlaqədə olardılar və eyni binada yaşayan həmkarları olan gənc alimlər onlara qayğı göstərə və kömək edə bilərdilər.

***

Başqa bir rəy isə belə oldu:

-Bu yolla ölkədə elmi inkişafı fəal şəkildə stimullaşdıran elmi mühit qorunub saxlanılar. İndi bir layihəni başa çatdırmaq üçün alimlər görüşmək və elmi araşdırmalarını müzakirə etmək üçün yollarda uzun vaxt itirir. Alimlərin çoxu Sumqayıt, Xırdalan və digər şəhərlərdən gəlir. Lakin bir binada yaşamaq, daimi ünsiyyət, biliklərin yaşlı nəsildən gənclərə ötürülməsi və asudə vaxtın birlikdə keçirilməsi hər kəs üçün böyük fayda verəcək.

Bu fikirlər də maraqlıdır:

"Təəssüflər olsun ki, "Alimlər evi"nin tikilməsini təklif edən yoxdur, hətta alimlər çəkinirlər, hesab edirlər ki, onsuz da milyonlarla sərvətə sahib olanlar təşəbbüsü yenidən ələ keçirəcəklər, həqiqətən ehtiyacı olanlar, həqiqətən elmlə məşğul olanlar isə yenidən kənarda qalacaqlar. Təəssüf ki, elm ölkədə populyar deyil...".

"Məsələ ondadır ki, hətta iqtisadi cəhətdən belə evlər faydalıdır. Şəhəri dolduran boş binalar boş dayanmayacaq, əksinə, fəaliyyət göstərəcək və dövlət kommunal xərclərdən gəlir əldə edəcək. Əvvəllər bir ev Elmlər Akademiyasının yanında, metronun «Elmlər Akademiyası" stansiyasının yanında yerləşirdi, indi orada bir nəfər də olsun alim yaşamır. Digər bir bina isə M.Axundov adına Milli Kitabxananın yaxınlığında yerləşirdi. Yalnız bu yer və tədqiqat resurslarının yaxınlığı sayəsində elmi işlər yüksək elmi keyfiyyətdə idi. Amma təəssüf ki, elmə gələn kənar adamlar hər şeyi satdılar və indi bütün ölkə bunun nəticələrindən əziyyət çəkir. Lakin hər şeyi düzəltmək və elmimizi əvvəlki şöhrətinə qaytarmaq üçün heç vaxt gec deyil. Ölkənin alimləri Xilaskarlarını gözləyir və bu günün gələcəyinə inanırlar...".

Bəli, biz də inanırıq ki, elmi araşdırmaları, elmi kəşf və nailiyyətləri ilə dünyada tanınan alimlər vətəni olan ölkəmizdə alimlərə və elmə yanaşma mütləq dəyişəsək, qeyd olunan bu vacib problem də öz həllini tapacaq...

**A.Salmanov,**
**Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin tələbəsi**

# Qəzetçilik: ABŞ-da və Azərbaycanda - OXUCUMUZ NYU-YORK-DAN XƏBƏR VERİR

**...Azərbaycanda milli qəzetçiliyin öz ənənəsi var və bu ənənə özünəməxsusluğu ilə fərqlənir.**

Gəlirəm mətləbə: çap mediasının tarixə qovuşmaqda olduğunu demək olar, amma bunu qəbul etmək olmaz! Bir daha təkrarlayaq, qəzet, yəni çap məhsulları(-kitab, jurnal və s.) pozulmaz arxivdir, keçmişimizin gələcəyə informasiya-məlumat daşıyıcısıdır. Odur ki, elektron medianın yaxşı cəhətləri çoxdur, qəbul edirik, amma arxiv baxımından təbii ki, çap mediasını əvəzləyə bilməz! Bəlkə nə zamansa pozulmaz elektron arxiv də yaradıldı, amma bu gələcəyin işidir!

"Təzadlar"ın fəal oxucularından olan F.Abdullayeva bu dəqiqələrdə ABŞ-ın Nyu-York şəhərində qəzet satışının, yəni oxucu təmasının nə səviyyədə olduğunu araşdırıb. "Təzadlar"a fotoşəkillər göndərib. Məlum olur ki, ABŞ-da qəzet satışı bizdəki kimi xüsusi köşklərdə deyil, demək olar əksər marketlərdə xüsusi vitrinlərdə qoyulub satılır.

F.Abdullayeva deyir ki, qəzet satışı olan marketlərdə, xidmət sahələrində satıcılarla söhbətində bir daha yəqinləşdirib ki, ABŞ-da elektron media öz işindədir, amma qəzetlərin tirajında və satışında problemli nəsə yoxdur. Yəni, ABŞ-da bizdəki kimi qəzetlərə arxivə gömülən media kimi deyil, çap ənənəsini və informasiya mənbəyini saxlayan, qoruyan mətbuat kimi baxırlar, sevirlər və oxuyurlar...Sübut üçün fotonu təqdim edirik:




**A.Məmmədli**

**Sahibkar Ağasəf İsmayılovun surətini “Təzadlar” qəzeti redaksiyasına göndərdiyi şikayət və müraciətini həyəcansız oxumaq mümkün deyil. O, çıxılmaz vəziyyətdədir və Prezident İlham Əliyevdən kömək istəyir.**

**Söhbət 26 məhkəmə qərarında zərərçəkmiş kimi hüquqları təsbit olunmuş iş adamının barəsində hüquq mühafizə orqanlarında yol verilmiş süründürməçilikdən gedir. İnanılmaz faktlarla üz-üzəyik: necə ola bilər ki, 26 məhkəmə qərarı icra edilmir? Yaxud, məhkəmənin prokurorluq orqanlarına göndərdiyi çoxsaylı xüsusi qərarları niyə havadan asılı qalır və cinayət işi başlanılmır???**

**Aşağıda A.İsmayılovun surətini “Təzadlar”a göndərdiyi şikayət məktubunu təqdim edir və qarşı tərəfi də dinləməyə hazır olduğumuzu indidən bəyan edirik:**

**“Hörmətli cənab Prezident!**

# “26 MƏHKƏMƏ QƏRARI PROKURORLUQDA ÖRT-BASDIR EDİLİR” - SAHİBKAR PREZİDENTƏ MÜRACİƏT ETDİ

Şəxsi mülkiyyətlə bağlı hüquqi və ictimai əhəmiyyət kəsb edən bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Əmlakımın məlum şəxs tərəfindən oğurlanması ilə bağlı material icraatında olan polisin və mənimsəmə faktı ilə bağlı cinayət işi icraatında olan prokurorluğun müstəntiqləri, uzun müddət ərzində zəruri prosessual hərəkətlərini yerinə yetirmədikləri üçün məhkəmə nəzarəti qaydasında etmiş olduğum şikayətlər üzrə, birinci instansiya və apellyasiya məhkəmələrinin hazırda qüvvədə olan ümumilikdə 26 (iyirmi altı) qərarlarına baxmayaraq, həmin məhkəmə aktları da istintaqçılar tərəfindən davamalı olaraq icra edilmir. Göstərdiyim məhkəmə qərarlarında polisin və prokurorluğun müstəntiqlərinin icraatlarında olan işlər üzrə hərəkətsizlilikləri qanunsuz hesab edilməklə bərabər, hansı zəruri istintaq hərəkətlərinin də müstəntiqlər tərəfindən gələcəkdə yerinə yetirilməsi hakimlər tərəfindən xüsusilə qeyd olunmaqla nəzərlərinə çatdırılmışdır. Qərarların icra edilməsinə nəzarət isə, ibtidai istintaqa nəzarət etməli olan prokurora tapşırılmışdır. Bu məhkəmə qərarları illərdir ki, həmn istintaqçılar tərəfindən davamlı olaraq icra edilmir. Məhkəmə qərarında göstərilməsinə baxmayaraq, şikayətimlə bağlı polisin müstəntiqi, hətta ilkin izahatımı da almaqdan yayınır. Bu və digər qanuna zidd faktlar göstərdiyim 26 məhkəmə qərarlarının hər birində birmənalı şəkildə əks olunub. Bu müraciəti etməkdə məqsədim, həmin qərarları icra etməli olan 26 vəzifəli şəxslərin adları-soyadları da göstərilmiş bu 26 məhkəmə qərarlarının icra edilməsi üsulunu-yolunu öyrənməyə nail olmaqdır. Ona görə ki, fiziki və hüquqi şəxlər barəsində qüvvədə olan məhkəmə aktları üzrə verilmiş icra sənədlərini məhkəmələr aidiyyəti İcra və Probasiya şöbələrinə göndərir və onlar tərəfindən Azərbaycan Respublikasının “İcra haqqında” Qanunun tələblərinə uyğun olaraq, borclu barəsində icra hərəkətləri yerinə yetirilir. İndiki halda isə, müraciətlərim üzrə verilmiş məhkəmə qərarlarının hər biri icra edilməsi üçün prosessual hərəkətləri yerinə yetirmədiklərinə görə, barələrində məhkəməyə şikayət edilmiş müstəntiqlərin özlərinə göndərilmişdir ki, bununla da fatiki olaraq çevrə bağlanmışdır. Nəticədə isə, mənim - sahibkarlıqla məşğul olan bir ölkə vətəndaşının Konstitusiya ilə qorunan mülkiyyət hüquqlarının pozulması davam etdirilir. Ona görə ki, dövlət adından verilmiş məhkəmə aktları dövlət qulluqçaları tərəfindən inadkarlıqla yerinə yetirilmir.

Cənab Prezident! Sizdən kömək istəyirəm və xahiş edirəm, səlahiyyətli qurumlara göstəriş verilsin ki, mülki şikayətimlə bağlı verilmiş iyirmi altı məhkəmə qərarlarının icra taleyi müəyyənləşdirilsin. Axı necə ola bilər ki, bu sayda məhkəmə qərarlarının icrası havadan asılı qalsın və adi bir müstəntiqin və prokurorun şəxsi iradəsinə tabe etdirilsin!

Onu da qeyd edim ki, göstərdiyim məhkəmə qərarlarını tələb olunan təqdirdə təqdim etməyə hazıram”.

***

**Xatırladırıq ki, şikayətçi A.İsmayılov redaksiyamıza müvafiq sənəd və maddi sübutları özündə əks etdirən məhkəmələrin və prokurorluğun qərarlarını da göndərib. Bunları ümumiləşdirib, aidiyyəti qurumlara aydın olsun deyə, hələlik şikayətin əsas məzmunu barədə bunları təqdim edirik:**

**““Magna Trans” MMC-nin təsisçisi Ağasəf İsmayılov Sabunçu rayon Prokurorluğunun icraatında olan 210050957 saylı cinayət işinin istintaqı ilə bağlı hüquqlarının pozulması barədə bunları şərh edir:**

## *“Məhkəmə qərarları illərdir ki, həmn istintaqçılar tərəfindən davamlı olaraq icra edilmir”*



Bildirirəm ki, 2021-ci ilin mart ayından Sabunçu rayon prokurorluğunun icraatında olan 210050957 saylı cinayət işi, təsisçisi olduğum “Magna Trans” MMC-nin maddi-məsul şəxslərinin bir qrup şəxslərlə sövdələşərək, etibar edilmiş MMC-nin əmlakını sənədləri saxtalaşdırma yolu ilə mənimsəmələri barədə, mənim 30 yanvar 2021-ci il tarixdə DİN-ə etmiş olduğum şikayət ərizəmlə bağlı, əvvəlcə Bakı ŞBPİ-nin Təhqiqat Şöbəsində, sonradan isə Sabunçu RPİ-nin İŞ-də aparılmış araşdırmalar nəticəsində toplanmış materiallara əsasən, 04 noyabr 2021-ci il tarixdə Cinayət Məcəlləsinin 178.3.2 maddəsi ilə başlanmış, sonradan isə 179.3.2. maddəsinə tövsif edilmiş 210050957 saylı cinayət işi, 29 mart 2021-ci il tarixdə davam etdirilməsi üçün aidiyyəti üzrə **Sabunçu rayon prokurorluğuna** verilmişdir.

Qeyd edirəm ki, hələ polisdə araşdırılma dövründə, yəni 2021-ci ilin aprel-may aylarında **“Magna Trans” MMC-nin direktoru Mirzahid Ağayev** öz müavini **Ramil Xəlilovla** heç nədən çəkinmədən - yenidən sənədləri saxtalaşdırma yolu ilə MMC-nin istifadəsində olan 113, 208, 209, 213 saylı şəhərdaxili marşrutları da, **Ramil Xəlilovun eyni zamandadirektor olduğu “Transcontrol” MMC-nin** istifadəsinə ötürmüşlər.

Beləliklə “Magna Trans” MMC-nin 79 ədəd sərnişindaşıma avtobusları, 4 sayda şəhərdaxili marşrutları və MMC-nin fəaliyyətindən əldə edilmiş külli miqdar məbləğdə pul vəsaiti **digər həmtəsisçilər - Bürhan Həmidovla Namiq Hacıyevin** başçılıq etdikləri dəstə tərəfindən tamamilə talanıb mənimsənildikdən sonra, yəni 25 may 2021-ci il tarixdə (təhqiatda araşdırılma dövründə), 25 may 2021-ci il tarixdə direktor Mirzahid Ağayev və onun müavini olmaqla bərabər “Transcontrol” MMC-nin də direktoru olan Ramil Xəlilovun saxta məktubları əsasında BNA tərəfindən MMC-nin fəaliyyətinə xitam verilmişdir. **“Transkontrol” MMC-nin təsisçisi Rövşən Həmidov “Magna Trans” MMC-nin iştirakçıları Bürhan Həmidovun doğma oğlu, Namiq Hacıyevin doğma bacısı oğludur.**

**Cinayət işi Sabunçu RPİ İstintaq şöbəsində istintaq edilərkən, müstəntiq Elməddin Köçəriyev istintaq hərəkətləri nəticəsində, müəyyən etmişdir ki, “Magna Trans” MMC-nin balansında olmuş 79 ədəd sərnişindaşıyan avtobuslarıdan:**

- 21 ədədi sənədləri saxtalaşdırma yolu ilə satılıb,

- 24 ədədi metollolom şəklində aşkar olunması barədə müstəntiq Elməddin Köçəriyev hal şahidlərinin və mütəxəssisin iştirakları ilə akt tərtib edib cinayət işinə əlavə etmişdir,

- 34 ədəd avtobusun nə özləri, nə sənədləri, nə dövlət nömrə nişanları istintaq tərəfindən indiyə kimi müəyyən edilmmişdir.

Elə bu səbəbə görə, 2021-ci ildən indiyə kimi digər faktlarla bərabər göstərdiyim 34 ədəd sərnişindaşıma avtobuslarının istintaqla müəyyən olunması barədə, çoxsaylı yazılı vəsatətlərlə cinayət işinin istintaqını aparan prokurorluğun müstəntiqlərinə, sonradan isə Sabunçu rayon prokuroru İbrahim Lənbəranskiyə və aidiyyəti üzrə rəhbər prokurorlara ərizə və şikayətlərlə müraciətlər etmiş olsam da, heç bir tədbir müsbət nəticə əldə olunmadı. 34 ədəd avtobusun oğurlanması ilə bağlı, mən Bakı ŞBPİ-nə ərizə ilə müraciət etdim.

Bakı şəhər Baş Polis İdarəsinin Təhqiqat şöbəsindənünvanıma daxil olmuş 047-184401-3222 saylı, 01.12.2022-ci il tarixli məktubda göstərilmişdir ki, sitat: **“...34 ədəd müxtəlif markalı sərnişin avtobuslarının digər həmtəsisçi Həmidov Bürhan Əhməd oğlu və digərləri tərəfindən qanunsuz olaraq ələ keçirilməsi ilə bağlı müraciətinizə baxılmışdır. ...göstərilənlərə əsasən, müraciətiniz qeyd olunanlara əsasən, cinayət işinə əlavə edilib araşdırılması üçün Sbunçu rayon prokurorluğuna göndərilmişdir. Nəticəsi barədə prokurorluq orqanı tərəfindən sizə məlumat veriləcəkdir.”**

Bu günə kimi, 34 ədəd “yoxa çıxmış” avtobuslara dair prokurorluğun istintaqında heç bir araşdırılma aparılmamışdır.

Bundan başqa, “Magna Trans” MMC-nin direktoru Mirzahid Ağayevlə müavini Ramil Xəlilovun MMC-nin balansımda olmuş, yəni onlara etibar edilmiş 21 ədəd avtobusu sənədləri saxtalaşdırma yolu ilə alqı-satqı edərək əldə edilmiş pul vəsaitini hesabatdan gizlədərək mənimsəmələrinə dair çoxsaylı vəsatətlərim də istintaq tərəfindən araşdırlmadan qalmaqdadır.

Bütün bunlardan belə nəticəyə gəlinir ki, ümumiyyətlə bu 55 ədəd avtobusa dair 210050957 saylı cinayət işində heç bir sənəd yoxdur. Ona görə ki, 2021-ci ildən ta indiyə kimi **Sabunçu rayon prokurorluğunun müstəntiqləri Tural Mürsəlovla Fuad Babayev həmin cinayət işi üzrə:**

**- “zəruriY edilməsi barədə əsassız və qanunsuz olaraq 8 qərar,**

**- “cinayət işi üzrə icraatın dayandırılması” barədə əsassız və qanunsuz 1 qərar,**

**- mənim “cinayət prosesində zərərçəkmiş şəxs qismində iştirakıma xitam verilməsi haqqında” - əsassız və qanunsuz 4 qərar,**

**-“Magna Trans” MMC-nin direktor müavini Xəlilov Ramil Mətləb oğlu barəsində “Təqsirləndirilən şəxsin cinayət prossesində iştirakına xitam verilməsi haqqında” - əsassız və qanunsuz 3 qərar,**

**- “cinayət işi üzrə icraata xitam verilməsi haqqında”** - əsassız və qanunsuz 2 qərar, həmçinin prokuror İbrahim Lənbəranski tərəfindən əsassız bir apellyasiya protesti vermiş olsalar da, bir çox faktların, o cmlədən göstərdiyim 55ədəd avtobusun aqibəti barədə həmin sənədlərdə heç bir hüquqi qiymət verməmişlər.

Elə bu səbəbə də vermiş oluğum şikayətləri birinci və apellyasiya məhkəmələri əsaslı və qanuni hesab edərək müstəntiqlərin qərarlarının ləğv edilməsi və prokurorun apellyasiya protestinin təmin edilməməsi barədə ümumi 12 sayda məhkəmə qərarı vermişlər.

**Sonuncu dəfə, Sabunçu rayon Məhkəməsinin 04.07.2024-cü il tarixli, 6(008)-62/2024 saylı qərarında göstərilmişdir ki, sitat:**

**“...Məhkəmə cinayət işinin materiallarını öyrənərkən istintaq orqanı tərəfindən aşağıdakı halların araşdırılmalı olduğu halda araşdırılmaması qənaətinə gəlmişdir:**

**- 21 ədəd avtobusların satışından əldə olunmuş vəsaitin hara xərclənməsi, nəyə görə müəssisənin bank hesabına köçürülməməsi;**

**- 34 ədəd avtobusun oğurlanması faktı ilə bağlı Bakı şəhər Baş Polis İdarəsinin 29.03.2022-ci il tarixli məktubu ilə aidiyyəti üzrə Sabunçu rayon Prokurorluğuna göndərilsə də, həmin məlumatın yoxlanılması istiqamətində hər hansı addım atılmaması;**

**- Şahid qismində dindirilmiş Məmmədov Elman Nəriman oğlu 2011-ci ildən hər gün 7000-10000 manat aralığında, 2015-ci ildən ay ərzində 150 min manat civarında pulu qarajdan götürüb Həmidov Bürhan Əhməd oğluna aparıb təhvil verməsi ilə bağlı ifadə verməsinə baxmayaraq qeyd edilən şəxslər arasında üzləşdirmə istintaq hərəkəti aparılmamışdır.**

**- İş materiallarından görünür ki, məhz “Magna Trans’’ MMC və “Transkontrol” MMC-nin müraciətləri əsasında Bakı Nəqliyyat Agentliyinin sərəncamı ilə “Magna Trans” MMC-əayrılmış 113, 208, 209, 213 nömrəli marşrut xətti üzrə sərnişindaşıma fəaliyyəti dayandırılaraq “Transkontrol” MMC-yə həvalə olunmuşdur. “Transkontrol” MMC-nin təsisçilərindən birinin Bürhan Həmidovun oğlu Rövşən Həmidov, digər təsisçisinin isə “Magna Trans’’ MMC-nin direktor müavini Ramil Xəlilovun olması nəzərə alınaraq qeyd edilən müəssisələrin belə bir müraciətlə çıxış etmələrinin zəruriliyi istintaq orqanı tərəfindən araşdırılmamışdır.**

**- Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin6(008)-19/2024 saylı, 13.02.2024-cü il tarixli qərarında göstərilən digər xüsusatlarla bağlı əlavə araşdırma aparılmaması;**

**Göstərilən bu hallar müstəntiqin iş üzrə zəruri, tam, hərtərəfli və obyektiv araşdırma aparmadan cinayət işi üzrə icraata xitam verilməsinə dəlalət edən hallardır.**

**...Müstəntiqi Fuad Babayev tərəfindən qəbul edilmiş “cinayət işi üzrə icraata xitam verilməsi haqqında” 31 may 2024-cü il tarixli qərar qanunsuz və əsassız olduğu üçün ləğv edilsin. İsmayılov Ağasəf İslam oğlunun şikayətində göstərdiyi və hazırkı qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən xüsusatlarla bağlı əlavə araşdırma aparılsın.”**

**Fürsətdən istifadə edib Baş Prokuror Kamran Əliyevin bir daha diqqətinə çatdırıram ki, əmlakımın talanıb mənimsənilməsi barədə istintaq edilən 210050957 saylı cinayət işinin istintaqı ilə bağlı, 2021-ci ildən indiyə kimi Sabunçu rayon prokurorluğunun müstəntiqləri tərəfindən verilmiş qərarların ləğv edilməsi barədə 12 sayda birinci və apellyasiya məhkəmələrinin qərarları hazırda da icra edilmədən qalmaqdadır. Göstərdiklərimi nəzərə alaraq, məhkəmə qərarlarında göstərilən istintaq hərəkətlərinin, o cümlədən indiyə kimi aqibəti bilinməyən 34 ədəd və sənədləri saxtalaşdırma yolu ilə satılıb dəyərləri mənimsənilmiş 21 ədəd “Magna Trans” MMC-nin avtobuslarına dair məhkəmə qərarlarında qoyulmuş tələblərin təmin edilməsini Baş Prokurordan xahiş edirəm.**

**Hörmətlə,**

**Ağasəf İsmayılov,**

**210050957 saylı cinayət işi üzrə zərərçəkmiş şəxs”.**

**-Bəs məhkəmə qərarlarında qoyulmuş tələblərin Sabunçu rayon Prokurorluğunda təmin edilməsinə kimdir və nədir mane olan???**

**(Davamı var)**

**“Təzadlar”ın Araşdırma Qrupu**

# Bakı milyonçusunun memarlıq abidəsi və

*«O vaxtlar milyonçular qızıllarını gizlətmək üçün ev tikdirərkən gizli yer düzəldirmiş... Belə bir ev tikilərkən Tağıyevin gözlərini bağlayıb ora aparırlar... Sonradan həmin şəxs dünyasını dəyişir və övladları evi satanda Tağıyev həmin mülkü alır və..."*

(Əvvəli 5-ci səhifədə)

Biz uşaqlıqdan Ləhiş bağlarında böyüdük. Yəni, babama məxsus sarayımızda - malikanəmizdə. Əvvəllər həmin ərazi Kürdəxanı sayılırdı. Qəbiristanlığın yanında isə məscid vardı. Məscid də ulu babam tərəfindən Həzrəti Məhəmməd Peyğəmbərin (s) adına tikilmişdi. **Kitabəsinin üzərində ərəbcə "Pənci ali əba" yazılmışdı. Mənası "Həzrəti Məhəmmədin əbasının altında - Həzrəti Məhəmməd (s), Həzrəti Fatimə xanım, Həzrəti Əli və onların övladları İmam Həsən və İmam Hüseyn" deməkdir.**


Turqut Hüseynov, həyat yoldaş və Rəna Haşimi

Sovet dövründə bütün bu ərazilər "Bağlar massivi" kimi paylanılıb, hətta məzarlığın da böyük bir hissəsi... Təəssüf ki, həmin insanlar buranın qəbiristanlıq olduğunu belə nəzərə almadan traktorla qəbir daşlarını dağıtdılar və burada bağ saldılar. O insanlar sonradan həyatlarında xoşagəlməz hadisələr yaşadılar. Elə bil ki, hələ ad verilməyib. O zaman türk komandan öz adını körpəyə hədiyyə vermək istədiyini təklif edib və beləliklə, körpəyə Turqut adı verilib. Azərbaycanda o zaman belə ad olmayıb. Turqut bəy ailəsi ilə məscidin ərazisində tikilmiş evdə yaşayırdı və məscidi, qəbiristanlığı qoruyurdu. Onun xanımı da məhsəti türklərin yil, bir tarixdir, xalqa məxsus mədəni irsdir, mirasdır.

## "Bakıda iki qadın neft maqnatı olub - onlardan da biri Hacı Sultan Əlinin bacısı Tərlan xanım Haşimi idi"

...Bakıda neft maqnatları yaxşı pul qazanıblar və qazandığı pulları hamam, məscid, məktəb, gimnaziya... tikintilərinə sərf ediblər. Ovaxtkı milyonçular böyük xeyriyyəçi olublar. Məscidlərin tikintisinin də xüsusi əhəmiyyəti vardı. Məsələn, məscidə namaza - ibadətə gələn adamlar hər gün bir-biri ilə görüşür-


Kürdəxanıdakı məscidin son vəziyyəti

Oranı dağıdanlar indi bu dünyada yoxdurlar. Nəriman kişi vardı. Bir dəfə mənə təəssüfləndiyini etiraf etdi və bildirdi ki, böyük bir səhvə yol verib və nəticədə, sonralar iki oğlunu itirib... Ümumiyyətlə, çox faciələr yaşanıb: birini elektrik cərəyanı vurub, iki qardaş məscidin qırını oğurlayıblar və qıra düşüb ölüblər və s. Bu şəkildəki şəxs Turqut bəydir. Vaxtilə o mənə bir çox hadisələri danışıb və məlumatlar verib. 1918-ci ildə Bakıda türk-müsəlman əhaliyə qarşı bolşevik-erməni silahlı quldurların hücumu nəticəsində kütləvi qırğınlar baş verəndə, bildiyimiz kimi, **o zaman Türkiyədən də türk əsgərlər köməyə gəlmişdi. O zaman həmin əsgərlərdən yaralı olanları babam öz malikanəsində müalicə etdirib gəmilərlə Türkiyəyə yola salıb, şəhid olanları da qeyd etdiyim məscidin yanındakı qəbiristanlıqda dəfn etdirib. Çünki Bakıda baş verənlərlə bağlı xəbəri Türkiyəyə babam Hacı Sultan Əli göndərmişdi.** Xəbəri isə Sabirin yaşadığı evin zirzəmisində yerləşən telefonoqramla göndərib. Bir axşam isə Turqut (Hüseynov) babanın atası Məzahir əfəndi türk komandanını evinə axşam yeməyinə dəvət edir. Qonşu otaqdan körpə səsi eşidən komandan və əsgərləri evdə yeni dünyaya gəlmiş oğlan uşağının olduğunu öyrənirlər və əliboş gəldiklərindən təəssüfləndiklərini bildiriblər. Uşağın adı ilə maraqlanıblar. Bildirildən idi. Turqut baba o qəbiristanlıqda yatan türk şəhidlərinə böyük dəyər verirdi. Həmçinin haşimilər nəslindən dünyasını dəyişənlərin də hamısı orada dəfn olunublar. Hacı Sultan Əli babamın babası Sübhan babamın da məzarı oradadır. Turqut baba və ailəsi mənə öz ailəm qədər doğmadır. O da dünyasını dəyişib. Amma ailə üzvləri ordadı və Mədəniyyət Nazirliyinin 2001-ci ildən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qoruduğunu dediyi Ləhiş bağları ərazisində yerləşən Sultan Əli məscidini qoruyurlar.

## "Mənə mədəniyyət naziri Polad Bülbüloğlunun imzası ilə təsdiqlənmiş - məscidin mühafizə zonasının sənədini də verdilər"

**-Söhbət Ləhiş bağları ərazisindəki məsciddən düşmüşkən, orda son vəziyyət necədir? Mən 2005-ci ildəki fotosunu gördükdə, bərpası ümidverici idi. Amma indiki vəziyyət çox məyusedicidir...**

-Ötən il məsciddəki kitabənin bir hissəsi oğurlanıb. Buna görə Türkiyədəki müalicəmi yarımçıq qoyub Azərbaycana qayıtdım. Daha əvvəl kitabədən biri qopub yerə düşmüşdü və mən onu götürüb özümdə saxladım. O biri hissəsini isə bilərəkdən oğurladılar. Çünki çox adam bilmir ki, oralar qədim qəbiristanlıqdı, məsciddi, çünki artıq dağılıb, yox olmaq üzrədir. Ərazini satmaq üçün müştəri gətirəndə məscidi, üzərindəki kitabəni görüb almayacaqdılar. Yəni, həmin əraziyə kimlərsə naşı adamları müştəri qismində gətirdiyi deyilir, hansı ki, satılması qeyri-mümkündür.

**-Sənədlərə əsasən, həmin məscid Mədəniyyət Nazirliyi tərəfindən qorunub. Necə qorunub ki, məscid büsbütün dağılıb, yaxud kimlərsə dağıdıb?**


TƏSDİQ EDİRƏM
Ləhiş bağ sahəsində Hacı Soltan Əli məscidinin mühafizə zonasının planı


AZƏRBAYCAN RESPUBLİKASININ
MƏDƏNİYYƏT NAZİRLİYİ

Bakı şəh., Az 1000, Hökumət Evi
E-mail: mugam@culture.gov.az
Tel.: (99412) 93-30-02 Faks: 93-56-05
Teleks : 14-21-83 "MUĞAM" SU

№ 1109-2-59 "18" 02 2005 il

Bakı şəhəri, H.Cavid prospekti məhəllə 556/57
S.Dadaşov küçəsi, bina D, blok 4, mən.3
Əliyeva Rəna Nazir qızı

Hörmətli Rəna xanım!

Məktubunuza cavab olaraq bildiririk ki, Sabunçu rayonu, Kürdaxanı qəsəbəsi, Ləiş bağları ərazisində yerləşən Soltan Əli məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li Qərarı ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi (inv. № 3181, t/t –XIX əsr) dövlət tərəfindən qorunur.

«Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 19 və 25-ci maddəsinin III bəndinə əsasən «Abidələrdə və ya onların ayrı-ayrı hissələrində təmir, konservasiya və bərpa işləri icarəçinin vəsaiti hesabına *Mədəniyyət nazirliyinin mütəxəssislərinin nəzarəti ilə aparıla bilər»*, «Abidələrin təmiri və bərpası onların zədələnmiş və itirilmiş hissələrinin abidənin konstruksiyasına, həcm-planlaşma həllinə, xarici və daxili görünüşünə xələl gətirmədən təmir edib ilkin halına gətirilməkdir. Abidələrin bərpasına dair layihə Mədəniyyət Nazirliyində təsdiq edildikdən sonra aparılır».

Göstərilənləri və məscidin ciddi qəza vəziyyətində olduğunu nəzərə alaraq onu Sizin şəxsi vəsaitiniz hesabına bərpa olunmasına etiraz etmirik. Lakin bildirmək istəyirik ki, bərpa işlərindən öncə görüləcək işlərin layihəsi hazırlanmalı və razılaşdırma üçün Mədəniyyət nazirliyinə təqdim olunmalıdır.

Bu xeyirxah işlə əlaqədar Sizi Mədəniyyət nazirliyinə dəvət edirik.

Abidələrin qorunması və istifadəsi şöbəsinin müdiri R.Bayramov

-Mən Mədəniyyət Nazirliyinə məscidin mühafizəsi və bərpası üçün müraciət edəndə, hələ 2005-ci ildə mənə yazılı şəkildə cavab verildi ki, Ləhiş bağları ərazisində yerləşən Sultan Əli məscidi AR NK-nin 02 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi (inv. № 3181, t/t-XIX əsr) dövlət tərəfindən qorunur. Halbuki məscid qətiyyən qorunmurdu. Hətta mənə o zaman mədəniyyət naziri Polad Bülbüloğlunun imzası ilə təsdiqlənmiş sənəd də verildi. Həmin sənəddə Hacı Sultan Əli məscidinin mühafizə zonasının planının surəti arxayın saldı. Və mən ölkə xaricində yaşadığım üçün vəziyyətə daima nəzarət edə bilmirdim. Yalnız telefon vasitəsilə Turqut bəyin ailə üzvləri vasitəsilə xəbər tuturdum. Lakin buna baxmayaraq, özüm gəlib məscidin layihəsini hazırlatdırmışam - həm məscidin bərpası, həm də babamın məzarüstü türbəsinin layihəsini.

**-2024-cü ildə Mədəniyyət Nazirliyi tərəfindən sizə verilən sənəddə qeyd edilib ki, şəxsi vəsaitinizlə məscidin bərpasında iştirak edə bilərsiniz. Siz özünüz bu məzmunda müraciət etmişdiniz?**

-Mən məscidin dağıldığını və kimsənin maraqlanmadığını görüb 2004-cü ildə - maddi imkanım yol verən zaman Mədəniyyət Nazirliyinə müraciət edərək məscidi öz şəxsi vəsaitim hesabına bərpa etmək istədiyimi bildirmişdim. Lakin o zaman onlardan müsbət cavab almadım. Sonradan, mədəniyyət naziri Əbülfəs Qarayevin dövründə də - 2013-cü ildə bir daha nazirliyə məscidin bərpası üçün müraciət edəndə, yenə də yazılı cavab verildi ki, layihə hazırdır və bərpa işlərinin 2014-ci ildə nazirliyə ayrılacaq vəsait hesabına həyata keçirilməsi nəzərdə tutulub. Amma bu, yenə də vəd olaraq qaldı... 10 il keçdi və mən yalnız 2024-cü ildə nazirlikdən məscidin bərpa layihəsini təsdiqlənmiş şəkildə aldım. Yəni, əvvəldən layihə var idi və onu müxtəlif qurumlar - AMEA, FHN... təsdiqləyərək mənə geri verdilər ki, etiraz etmirik, get, bərpa elə... İndi isə mənim buna maddi imkanım yoxdur, həmçinin məscid tamamilə dağılıb. Hansı ki, illərlə Mədəniyyət Nazirliyi vədlər verərək məni arxayın salırdılar. Əsas odur ki, məscidin ətrafındakı qədim məzarlıqda Bakını erməni daşnaqlarından azad etmiş türk əsgərlərinin də qəbri var... Onu da qeyd edim ki, qəbiristanlığın ərazisinin tamamilə satılmasının qarşısını mən almışam. 2004-cü ildə Bakı şəhər RİH-in Abadlaşdırma və Park-Bağ Təsərrüfatının İnkişafı Departamentinə müraciət etdim ki, o qəbiristanlıq bizim nəslə-şəcərəyə məxsusdur. Onlar da sağ olsunlar, Bağlar Təsərrüfatının İnkişafı və İstismarı Birliyinə 12 sotluq qəbiristanlıq ərazisini sənədlə mənə verilməsi barədə göstəriş verdilər. Mən olmasaydım, kimsə sənəd veriləcəkdi, o da gedib bağ evi tikdirəcəkdi, bağ salacaqdı... Hazırda köhnə qəbiristanlıqda başdaşları yoxdur, yalnız qəbirlər qalıb. Dediyim kimi, orada həm də 1918-ci ildə şəhid olanlar da dəfn ediliblər. Mənim babamın xidmətləri çox olub. Heç olmasa tikdirdiyi məscid qorunardı, bərpa olunardı, qəbirüstü türbə tikilərdi. Halbuki hazırda mənim bütün bunları həyata keçirməyim üçün maddi vəsaitim yoxdur. Mən onun nəticəsiyəm və bütün bunları tələb etməyə haqqım var. Axı o, təkcə ulu babamdan qalan yadigar deyil, bir tarixdir... müşlər. Kimsə məscidə gəlməyəndə ona baş çəkərmişlər. Elə qadınlar olub ki, dul olublar, yaxud tənha yaşayanlar olub. Hacı Sultan Əlinin ya qızı, ya həyat yoldaşı həmin qadınların səhhəti ilə, yaxud nəyəsə ehtiyacı olub-olmaması ilə maraqlanarmışlar. Ləhiş bağlarında başqa bir məscid də var: ona görə ki, qadınlar, yaşlılar uzaq məsafələrdən məscidə gedib-gəlməsinlər və namaza yaxınlıqdakı məscidə getsinlər. Bəzən nəyəsə maddi ehtiyacı olanlar da məscidə gedər və orda bildirərmiş. Xəstə olanları sarayların olan loğmanlar müalicə edərdi. Mənim Xədicə xalam vardı, "Nizami" metrosunun yanında yaşayırdı, onda bəzi şəkillər vardı - Elmlər Akademiyasında çalışanlardan kimlərsə gəlib ondan məlumat toplayıb, hər gedən də bir şəkil alıb aparırmış. Heyif ki, o şəkilləri xalam yaşlı olduğu üçün inanaraq onlara verib... Hazırda məndə cəmi 3 foto qalıb. Hər dəfə həmin şəxslərlə görüşündən sonra o sevinərək bizə deyərdi ki, statusumuz özümüzə qaytarılacaq... Mən sənədləri topladıqdan sonra Elmlər Akademiyasına müraciət etdim və kitab, ensiklopediya hazırladıqlarını eşitdiyimi bildirdim. Onlara əlimdə Bakı şəhərinin tikintisində kimlərin iştirak etməsini özündə əks etdirən sənədlər olduğunu dedim. Mənə İçərişəhərə getməyi məsləhət gördülər. Mən ora da getdim, mütəxəssisləri tapdım. Onlara bildirdim ki, şəhərdə aparılan tikintilərdə, şəhərin quruculuğunda babam (Hacı Sultan Əli Haşimi) həm vəsaitini qoyub, həm də təşəbbüskarı olub.

# şəhid məzarlığı dağıdıldı

*"Mədəniyyət Nazirliyi babam Hacı Sultan Əlinin tikdirdiyi məscid dağıldıqdan sonra mənə şəxsi vəsaitimlə bərpa edə biləcəyimi bildirdi..."*

Bütün bunları arxivdəki araşdırmam zamanı orada çalışan iki rus qadının mənə Bakı şəhərinin xəritəsini verərkən öyrəndim. O xəritədə İçərişəhərin ala qapılarından prospekt başlayır - Haşiminin adına olub, yəni Hacı Sultan Əlininin - indiki "Tarqovıy". Dəfələrlə adlar dəyişib: məsələn, bizim Haşimilər məhəlləsi rusların işğalından sonra Sverdlovski, Kanitapinski oldu...



Hacı Sultan Əli övladları ilə

**-Sizin AR Milli Arxiv İdarəsindən əldə etdiyiniz bəzi sənədlərdə ulu babanız Sultan Əli Həşimovun (Haşimi) Bakı və Abşeronda olan mal-mülklərinin siyahısı var. Bu məlumatlar 1910-1913-cü illərə istinadən verilib. Bəzilərini qeyd etmək istəyirəm: Balaxanı bağları arasında 1 saylı torpaq sahəsi, Balxanı kəndində evi, Maştağa kəndində 1/600 desyatinə (1 desyatin = 1, 092 ha) bərabər torpaq sahəsi, yenə Maştağada 1120 sajına bərabər (1 sajın=2, 134 m) üzüm bağları, Bakı şəhərində o zamankı Sprasskaya küçəsində yerləşən tikilisində yeni dəyişikliklər edilmiş 137 saylı üç mərtəbəli - 17 mənzil, eyni zamanda 51 otaqdan ibarət olan evi (ümumi gəliri 7168 rubl, təmiz gəliri 5018 rubl), Kürdəxanı kəndində evi, Hacı Sultan Əlinin atası Haşim Sübhan oğlunun sağlığında ikən Balaxanı kəndində 3900 kv.sajına bərabər torpaq sahəsi (1kv sajın = 4,550 kv.m), Bakıda iki torpaq sahəsi - birincinin üzərində tikililəri olan - uzunluğu 14 1/2 sajına və eni 9 ? sajına bərabər Spasskaya və Kanitapinskaya küçələrinin kəsişməsində 149/9 saylı ünvanda, Spasskayada küçəsi 151 saylı ünvanda yerləşən ikinci torpaq sahəsinin üzərində isə ev, xidməti otaqları, həyəti 5 sajına 1 arşın 13 verşoka uzunluqda torpağı (malikanənin dəyəri 28000 rubl), 1-ci Paralelnaya küçəsi 75 saylı ünvanda evi, Balaxanıda 14 ədəd neft quyusu, vətəgələri və digər əmlakları olub.**

-Hacı Sultan Əlinin sənədə əsasən, 3 balıq vətəgəsi də olub - Novxanıda, Kürdəxanıda və bir də "Amburan mayakı" adlanan sahil zolağında. Mayak həm də liman kimi istifadə olunub. Bakıda, o zamanlar cəmi iki qadın neft maqnatı olub. Arxivdən mənə verilən sənədə əsasən, onlardan da biri Hacı Sultan Əlinin bacısı Tərlan xanım Haşimidir. Onun 4 neft mədəni-buruğu olub. Babam Bakıdan başqa Dərbənddə, Qubada, İsmayıllıda, cənub zonasında da məscidlər tikdirib.

## ""Hacı Sultan Əli" məscidi"nin memarı Zivər bəy Əhmədbəyov deyil, polyak memar-mühəndis İ.K.Ploşko olub"



Sultan Əli Haşiminin Balaxanıdakı məktəbinin açılışı

**-Mən sənədləriniz arasında sizin vaxtilə Türkiyə səfirliyinə ünvanlamış müraciətinizin surətinə də rast gəldim. Müraciətdə bildirmisiniz ki, 1918-ci ildə erməni quldurların Bakıya hücumu zamanı onlara qarşı döyüşdə qəhrəmancasına həlak olmuş türk komandirin və digər gəncin nəşi ulu babanızın mərkəzdə yerləşən "Hacı Sultan Əli" məscidinin həyətində dəfn edilib. Lakin sovet hakimiyyəti qurulduqdan sonra həmin qəbirlər yoxa çıxıb. Bu ərizəniz səfirliyə yetişdimi, ümumiyyətlə, həmin hadisə necə baş verib?**

-1904-1910-cu illərdə milyonçu babamın vəsaiti ilə "Hacı Sultan Əli" məscidi inşa edilib, hansı ki, indiki "Nizami" metrosunun arxasında yerləşir. Məscidin memarı polşalı memar-mühəndis İosif Kasperoviç Ploşko olub.

**-Əslində, bəzi mənbələrdə həmin məscidin Azərbaycanın ilk memarı Zivər bəy Əhmədbəyov tərəfindən inşa edildiyi deyilir. Mən də başqa mənbədə "XIX-XX əsrin əvvəlləri Azərbaycanın şəhərsalma və memarlığı" kitabına əsasən həmin məscidin Ploşko tərəfindən layihələndirilməsi barədə ehtimala rast gəlmişəm...**

-Ploşko ilə bağlı məlumatı mənə mərhum akademik, AMEA-nın həqiqi üzvü Şamil Fətullayev görüşümüz zamanı demişdi. 1918-ci ildə erməni daşnakların hücumu zamanı həmin məscidin yaxınlığında bir türk əsgəri və qonşuluqdan gənc bir oğlan şəhid olub.

**-Mən gətirdiyiniz sənədlər içərisində İncəsənət Muzeyinin baş mütəxəssisi Nailə Rəhimovanın xatirəsinə rast gəldim. Nailə xanım həmin qətlə yetirilən azərbaycanlı gəncin Məşədi Rəfi Əhmədovun sonbeşik oğlu Paşa olduğunu qeyd edib. 31martda "Bayır şəhər"də müxtəlif ünvanlarda yaşayan oğlanlarına Novruz sovqatı göndərmək istəyən Məşədi Rəfinin ailəsi 18 yaşlı Paşanın əlinə bayram xonçası verib qardaşlarıgilə yola salırlar. Axşamın qaranlığında isə Paşa məscidin qarşısında erməni güllələsinə tuş gəlir.**

-Elədir, babam onları məscidin ərazisində dəfn etdirir. Sovet dövründə məsciddə müxtəlif təşkilatlar yerləşdirilib. Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra məscid əvvəlki kimi fəaliyyətini davam etdirib. Sonradan abadlaşdırmaq adı altında həmin qəbirləri olduğu yerdən götürüblər. Dediklərinə görə, yeni minarənin altında dəfn ediblər... Amma o zaman qəbrin üstündəki kitabədəki qeydlər qalıb. Mən onu tərcümə etdirdim. Orada bu sözlər yazılıb: **"1918-ci ildə vəfat edib. Allah günahlarını bağışlasın".** Mən o zaman həmin qəbirlərin tapılması ilə bağlı müraciətlər etmişdim... Onu da əlavə edim ki, babam tikdirdiyi məscidlərdə minarə inşa etdirməyib. Hazırda mövcud olan minarə isə sonradan tikilib.

**-Mən özüm də araşdırmışam və məlumata əsasən, minarənin tikintisi zamanı aparılan qazıntı işləri vaxtı onun alt hissəsində Qafqaz İslam Ordusunun Əhməd adlı əsgərinin məzarı tapılıb. Ehtimallara əsasən, əsgər 1918-ci ildə həmin dövrdə "Karamelni" deyilən ərazidə erməni daşnakları ilə döyüşdə həlak olub və mərhumun ruhuna hörmət əlaməti olaraq o, məscidin həyətində dəfn edilib. Tikinti işləri zamanı mərhumun nəşinin qalıqları toplanıb minarənin alt hissəsində yenidən dəfn olunub və kitabəsi divara həkk olunub. Və həmin məscid AR NK-nin 2 avqust 2001-ci ildə verdiyi 132 nömrəli qərar ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb.**

-Tərcümə etdirdiyim həmin kitabə təəssüflər olsun ki, qəbirlər sökülərkən məscidin tamamilə görünməyən və çox aşağı yerində yerləşdirilib. Mən o zaman buna etiraz etdim. Etirazımdan sonra, məscidin o zamankı rəhbərliyi kitabəni yerindən çıxarmağa cəhd edib. Hazırda kitabənin bir küncü sındırılmış vəziyyətdədir... Həmçinin sənədlərdə məscidin ölkə əhəmiyyətli olduğu qeyd edilsə də, təəssüf ki, giriş qapısına vurulmuş lövhədə yerli əhəmiyyətli memarlıq abidəsi kimi təqdim edilir. Bununla bağlı bir neçə il öncə Mədəniyyət Nazirliyinə rəsmi müraciət etmişəm. Hələ də nəticəsi yoxdur...

## "Elə adam var, dəfələrlə gedib Həcc ziyarətinə, 10 dəfə getdiyi ilə öyünənlər var. Bu din adamlarının necə ola bilər ki, gözü önündə belə bir məscid-Allahın evi dağılıb gedir, amma onların tükü belə tərpənmir?"

**-Rəna xanım, sizin sənədlər əsasında bizə təqdim etdiyiniz sübutlar inkaredilməzdir. Azərbaycanın memarlıq abidəsinə bu qədər laqeyd yanaşılması qəbuledilməzdir. Bilirəm ki, əliniz hər yerdən üzüldüyü üçün redaksiyamıza müraciət etmisiniz. Əlbəttə, biz də bununla bağlı müraciət edəcəyik. Son olaraq nə demək istərdiz və gözləntinz nədən ibarətdir?**

-Mən Kürdəxanıdakı ulu babama məxsus tarixi memarlıq abidəsinin - məscidin bərpasını və gələcək nəsillər üçün qorunmasını istəyirəm. Bilirsiniz, heç Mədəniyyət Nazirliyini demirəm, axı ölkəmizdə hacıların sayı-hesabı yoxdur. Elə adam var ki, pulunun çoxluğundan dəfələrlə gedib Həcc ziyarətinə. On dəfə getdiyi ilə öyünənlər var. Bu din adamlarının necə ola bilər ki, gözü önündə belə bir məscid dağılıb gedir, amma onların tükü belə tərpənmir? Belə şəxslərin hacı olması, yaxud özünə hacı titulu götürməsi nə dərəcədə düzgündür? Mən baş verənlərlə bağlı Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya yazılı müraciət etmişəm. Məni Heydər Əliyev Fondunda qəbul ediblər və dinləyiblər. Qəbuldan sonra 2024-cü ildə Sabunçu RİH-dən zəng edib bildirdilər ki, məscidin bərpası ilə bağlı imkanları yoxdur, həm də Mədəniyyət Nazirliyinin balansındadır və məzarlıqlarla da bələdiyyə məşğuldur və s. Yəni, Fonddakı qəbuldan sonra yönəldildiyim RİH bu işdə gücsüz olduğunu bildirdi. Onu da xatırlatmaq istəyirəm ki, M.Ə.Sabirin Bakının mərkəzində olan heykəli sonradan Balaxanıya - onun dərs dediyi məktəbin qarşısına gətirilib qoyuldu. **Lakin heç bir kəs maraqlanmır ki, bəs şairin dərs dediyi məktəb hanı? Bu gün həmin məktəbi küftəçiyə, yeyib-içmək məkanına çevirənlər həm babamın, həm də şairin ruhuna hörmətsizlik etmiş olurlar.** Təklif edərdim ki, milyonçunun nəticəsi - varisi olaraq həmin məkan mənə verilsin və mən orada kitabxana, yaxud şahmat evi və bu qəbildən maarifləndirici bir ocaq yaradım. Mən uzun illər bu yolda təkbaşına mücadilə vermiş biri kimi bu dəfə sizin "Təzadlar" qəzetiniz - mətbuat vasitəsilə tarixi abidəimizə qarşı bu diqqətsizliyi ictimailəşdirmək və bir daha aidiyyəti qurumların diqqətinə çatdırmaq istəyirəm. Bəlkə səsimə səs verən tapıldı... Bilirəm ki, Mehriban xanım Əliyeva belə məsələlərə çox həssas yanaşır. Gördüyü işlər göz önündədir. Əminəm ki, məni bu böyük layihənin həyata keçirilməsində yalqız buraxmaz...

**Yasəmən Məmmədli**

**P.S. Keçmişimiz bizim milli kimliyimizdir - pasportumuzdur. Zaman-zaman tariximizə sahib çıxmadıqca, keçmişimizi qoruyub gələcəyə götürə, həm də ötürə bilmədikcə söykək verə biləcəyimiz, nümunə göstərəcəyimiz keçmişimiz də, kimliyimiz də silinib gedəcək. Ümid edirik ki, Mədəniyyət Nazirliyinin yeni rəhbərliyi əvvəlki sələflərindən fərqli mövqe nümayiş etdirərək artıq "can üstə" olan memarlıq abidəsini "yoxdan vara" çevirə biləcək.**

**Səhiyyəmizdəki bərbad qarışıq dolaşıq vəziyyət heç kimə sirr deyil. Bunu gizlətməyə, üstünü örtməyə ehtiyac yoxdur. Hər kəsə şamil edildiyi deyilən icbari tibbi sığorta isə demək olar ki, çoxlarına real fayda vermir. Açıq desək, əmək haqlarımızdan tutulan sığorta vəsaitini çox vaxt boşuna ödəyirik. İnsanlar sığorta ilə müalicə olunarkən özlərini güvənli hiss etmirlər. Çünki sığorta ilə müraciət edən pasiyentlərə çox zaman dırnaqarası, yəni həkimlər birtəhər baxır. Faktdır ki, pullu ödəniş edənlərlə sığortalı xəstələrə göstərilən münasibət eyni deyil. Bu, artıq gizli məsələ yox, hər kəsin bildiyi açıq və acınacaqlı həqiqətdir. Daha acınacaqlısı isə odur ki, sığortanı rüşvətlə “həll edəndə” xəstəyə münasibətin birdən-birə dəyişməsi açıq şəkildə görünür.**

# ŞOK: Sığorta bir ailəni belə məhv etdi!

## *Səhiyyəmiz niyə bu qədər qorxunc hala düşüb?*






Məhz bu səbəbdən insanlar düşünür ki, sığorta ilə əməliyyat olunmaq, ümumiyyətlə, müalicə almaq xəstənin həyatı üçün risklidir. Bu yerdə haqlı suallar yaranır: niyə həkimlər sığorta ilə gələnlərə soyuq yanaşırlar? Niyə pasiyentin üzərində əməliyyat və digər tibbi müayinələr həkim etikasına uyğun aparılmır? Bəlkə sığortalı xəstələrə görə həkimə büdcədən pul ödənilmir? Yoxsa, onlara yetərincə maaş verilmir və buna görə ələbaxımlıq çıxış yolu sayılır?! Yoxsa problem sadəcə tamahkarlıqdadır?

Bu suallar nəinki təkcə mənim, hətta mənim kimi yüzlərlə insanın beynini məşğul edir. Sığorta ilə ilk müayinəyə getməkdən qorxanları eşidəndə onları qınamaq mümkün deyil.

### Bir ailənin faciəsi və ya sığortanın iflası...

Bu sığorta sisteminə həyati əhəmiyyətli mexanizmlər əlavə olunmasa, bu cür faciələr davam edəcək. İndi danışacağım hadisə bunu açıq şəkildə sübut edir. Bu günlərdə bir yas mərasimində idim. Rəhmətə gedən orta yaşlı bir kişi idi, 50 yaşı belə tamam olmamışdı. Soruşdum ki, bu insan nədən dünyasını dəyişib? Dedilər ki, pis xəstəliyə tutulmuşdu. Sonradan məlum oldu ki, bu insan 15 yaşlı qızını itirib. Qızını tək böyütmüşdür. Qızı 3 aylıq olarkən həyat yoldaşı qəfil ürək tutmasından dünyasını dəyişib. Ata övladına həm ana, həm də ata olmuşdur. Faciənin ən ağırı elə buradan başlayır. Onun gözünün ağı-qarası olan bircəcik qızı qəfil koma vəziyyətinə düşür. Beyin fəaliyyəti var, amma huşsuzdur. Uşaq süni tənəffüs aparat hesabına yaşayır. Amma aparatla yaşamaq böyük pul deməkdir. Aylarla davam edən müalicə borc-xərc, yalvarış, kömək üçün döyülən, amma açılmayan qapılar... Ata hər yerə müraciət edir, yazmadığı yer qalmır. Lakin səsinə səs verən tapılmır. Hospital üçün isə əsas olan puldur. İnsan həyatı onlar üçün ikinci planda dır. Və ata məcbur qalır - pulu olmadığı üçün övladını aparatdan ayırır. 15 yaşlı qız kasıbçılığın qurbanı olur...

Bu faciədən sonra ata psixoloji sarsıntı keçirir, ağır xəstəliyə düçar olur və dünyasını dəyişir. Beləcə, bir ailə məhv olur. Bunun kökündə nə dayanır? Pulsuzluq, tibbimizin vətəndaşına biganəliyi və həkimlərin harınlığı...

***

Deyirlər ki, səhiyyəmiz inkişaf edib. Bəli, ürək əməliyyatları, böyrək köçürmələri var. Amma bu “inkişaf” yalnız pullular üçündür. Sadə vətəndaş üçün isə, qayda dəyişməzdir: pulun var - yaşa, pulun yoxdursa, ölməlisən. Bəs dövlət baba haradadır?

Belə hallarda dövlət öz vətəndaşının yanında olmalıdır. “Hamı sığortalıdır” deməklə iş bitmir. Bu cür ağır vəziyyətlərdə sığorta işə yaramırsa, onun adı nədir?

Gündəlik aparat xərcləri hər sığortalı və ya kasıbın cibi üçün deyil. Orta əmək haqqı 400 manat olan ölkədə kasıb bunu necə ödəsin? Ata ümid edir ki, övladı komadan ayılar, həyata qayıdar. Amma pulu çatmır. Necə ki şəkər xəstələrinə dövlət pulsuz dərman verir, koma vəziyyətində olan xəstələr üçün də dövlət mexanizmi olmalıdır. Bəlkə o qız aparatla yaşasaydı, müalicə ilə həyata dönəcəkdi.

***

Bu yazı ilə yuxarı qurumlara, xüsusən də səhiyyə nazirimizə, TƏBİB-in rəhbərliynə müraciət edirik: pulsuzluğa görə insanları ölümlə üzüzə qoyanların cəzalandırılması barədə aidiyyəti qurumlara göstəriş verilməlidir! Dövlət vətəndaşının arxasında durmalıdır və vətəndaş da dövlətinə güvənməlidir.

### Şəxsi təcrübə: MRT-yə getmək üçün ölüm halına düşməkmi lazımdır?

Bir dəfə adi bir baş ağrısı ilə qeydiyyatda olduğum poliklinikaya üz tutdum. Uzun, əsəbləri tarıma çəkən növbədən sonra nəhayət, həkimin qəbuluna düşdüm və şikayətimi bildirdim. Həkim məni müayinə etdi, müalicə yazacağını dedi. Mən isə istədim ki, ürəyim arxayın olsun deyə, MRT müayinəsindən keçmək istədiyimi bildirdim. Həkimdən qısa və soyuqqanlı cavab: “Səni MRT-yə göndərə bilmərəm”. Səbəbini soruşanda isə, həkim belə izah etdi: **“Biz göndəriş verəndə əsaslı, ciddi faktlar yazmalıyıq ki, orada bilsinlər səndə ciddi problem var.”**

Həkimin dediklərinin öz sadə dilimizdə ifadəsi: Yəni, bu sistemin dili ilə desək, sən artıq ölüm ayağında olmalısan ki, sığorta çərçivəsində MRT-yə layiq görüləsən. Əlbəttə, bu, təkcə mənim yaşadığım hal deyil.

İndi isə, tanıdığım başqa bir insanın başına gələn sığorta kabusundan danışım. Azərbaycanda “Yeni Klinika” adlı, səhv etmirəmsə, 14 korpusdan ibarət nəhəng bir xəstəxana var. Günlərlə növbələrdə gözləyən insanlar, ölkənin dörd bir yanından ümidlə üz tutulan “Yeni Klinika”... Həmin tanıdığım insan deyir ki, səhər saat 7-dən növbəyə dayanıb, axşama qədər gözləyib. Nəhayət, həkimin qəbuluna düşə bilib. Amma nəticə daha da acınacaqlı olub: ona əsassız diaqnozlar qoyulub, 500 manatdan artıq dərman yazılıb. Yaxşı ki, sonradan başqa bir həkimə müraciət edib. Məhz ondan sonra məlum olub ki, əvvəlki “müalicə”lərin hamısı səhv və əsassız imiş. Faciə bununla bitmir. O boyda “Yeni Klinika”da cəmi bir USM (UZİ) aparatı və bir rentgen kabineti var. Həmin insan soruşub: - Bəs indi nə etməliyəm?

Cavabları isə bu olub ki, **“...növbəyə yazıl. Ancaq siyahı iki ay əvvəldən doludur. Sən üçüncü ayda gələrsən”.**

**Üstəlik, ona açıq-aşkar şəkildə özəl Diaqnostika Mərkəzinə getmək tövsiyə olunub.**

**Bir sözlə, icbari tibbi sığorta sistemimizin real mənzərəsi məhz budur. Dövlət xəstəxanasında aylarla növbə, yanlış diaqnozlar, lazımsız dərmanlar və sonda yenə də cibdən pul çıxarıb özələ getmək “məsləhəti”.**

Biz **“Avropadan nümunə götürürük”** adı altında yalnız qiymətləri qaldırmaqla məşğuluq. Tarifləri Avropa səviyyəsinə çatdırmağa çalışırıq, amma nədənsə, xidmət keyfiyyətini, oradakı yüksək əməkhaqlarını, həkimlərin sosial təminatını, pensiyaçıların layiqli pensiya alması nümunəsini götürmürük. Çünki bu, sərf etmir. Bunun əvəzinə yalnız bir modeli mənimsəmişik: insanı əzmək modeli! Və bu model, acı da olsa, bizdən başqa demək olar ki, heç yerdə bu qədər sistemli şəkildə tətbiq olunmur.

***

Hər şey bahalaşır, hər şey “Avropa qiyməti”nə uyğunlaşdırılır, amma söhbət icbari tibbi sığorta ilə müraciət edən vətəndaşa göstərilən münasibətdən, keyfiyyətli xidmətdən gedəndə, Avropa birdən-birə yadımıza düşmür. Sığorta ilə gələn xəstəyə hörmət, diqqət, məsuliyyət anlayışı bu sistemdə demək olar ki, yoxdur. Daha acınacaqlısı isə odur ki, sığorta çərçivəsində çalışan həkimlərin böyük bir hissəsi ya peşəkarlıq baxımından yetərsiz təsir bağışlayır, ya da bu sistemə qarşı tam biganədir. Halbuki inkişaf etmiş ölkələrdə icbari tibbi sığorta məhz ən güclü, ən təcrübəli həkimlərin toplandığı sahədir. Və ən yüksək maaşlar da elə həmin həkimlərə verilir.

Bizdə isə sığorta sistemi xəstəni qoruyan mexanizm olmaqdan çıxıb. Bu sistem vətəndaşı bezdirən, qorxudan və sonda onu yenidən pullu tibbin qapısını döyməyə məcbur edən bir mexanizmə çevrilir.

Qısa desək, bizdə icbari tibbi sığorta, deyəsən, xəstə üçün yox, səhiyyə sisteminin öz rahatlığı üçündür.

**Elşad FƏRMANOĞLU**

# "Ömrümü Qarabağın dirçəlməsinə həsr edəcəyəm..."

## Zamin Təhməzov: "Universitetdə dərslər ənənəvi üsulla deyil, Avropanın ən yeni təhsil metodları ilə keçirilir"



**...Füzulidə müəllim ailəsində doğulub... İlk dəfə məktəbə yollandığı gün sevinci yerə-göyə sığmırdı. Lakin bu sevincin ömrü çox qısa oldu. Ermənilərin Qarabağda törətdiyi müharibənin amansızlığı onun da uşaqlıq xəyallarını yarımçıq qoydu... Və isti bir yay günündə ailəsi ilə birlikdə yurd-yuvasından didərgin düşəndə hələ bilmirdi ki, o ağrılı günlər qəlbində silinməz izlər buraxacaq, acı bir xatirəyə dönəcək... İllər keçsə də o, hələ də sevimli iti Alabaşın onların mindiyi maşının arxasınca ulaya-ulaya necə qaçdığını hələ də unuda bilmir. İt, sanki nalə çəkirdi...**

***

Köçkünlük illərindən danışanda bu gün də səsi titrəyir, gözləri dolur. Lakin qəlbindəki nisgil onu ruhdan salmayıb, əksinə, gecə-gündüz çalışaraq özünü elmin zirvəsinə hazırlayıb.

Qısa tanışlıq: Zamin Təhməzov 1998-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Filologiya fakültəsinə daxil olub. Magistratura təhsilini bitirdikdən sonra 2004-cü ildə Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun əyani aspiranturasına qəbul olunub. "Müasir Azərbaycan dilində köməkçi nitq hissələrinin təsnifi" mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasını müdafiə edərək həmin institutda elmi işçi kimi fəaliyyətə başlayıb.

Zamin Təhməzov pedaqoji fəaliyyətini 2014-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun baş müəllimi kimi davam etdirən Zamin müəllim, 2016-cı ildən 2025-ci ilə qədər həm ADPU-da, həm də universitetin Quba filialında dosent vəzifəsini icra edib...

### Xankəndidə reallaşan arzu- Qarabağ Universiteti...

...Zamin müəllimin Qarabağ Universiteti ilə bağlı seçimi sadəcə, bir iş yeri deyil, onun üçün mənəvi bir ehtiyac olub. Deyir: "...Qarabağın həsrətini uşaqlıqdan çəkmişdim. Torpaqlarımızın azad olunması xəbərini eşidəndə içimdən bir istək keçdi: mən orada olmalıyam! Qarabağ Universiteti fəaliyyətə başlayan kimi bu arzumu reallaşdırdım", -deyə maraqlı xatirələrini danışır.

Onun fikrincə, buradakı tələbə-müəllim mühiti fərqlidir. Qarabağ Universitetinin tələbələrini daha aktiv, məsuliyyətli və həvəsli hesab edir:

-Bura qəbul olan tələbələrin balları yüksəkdir. Onlar üçün yaradılan müasir şərait və zəngin maddi-texniki baza elə bir səviyyədədir ki, müəllimlərin yaxşı dərs keçməkdən, tələbələrin isə yaxşı oxumaqdan başqa yolu yoxdur. Həmçinin Xankəndidə əyləncə mərkəzlərinin yox dərəcəsində olması tələbələrin asudə vaxtlarını daha çox mütaliəyə və öz üzərlərində işləməyə yönəltməsinə səbəb olur."

Dosent Zamin Təhməzov vurğulayır ki, universitetdə dərslər ənənəvi üsulla deyil, Avropanın ən yeni təhsil metodları ilə keçirilir. O özü də dərslərində interaktiv metodlara - spontan sorğulara, diskusiya və debatlara üstünlük verir. Cəmi iki il əvvəl yaradılmasına baxmayaraq, universitetin əldə etdiyi uğurları dövlət qayğısı və rektor Şahin Bayramovun həssas yanaşması ilə əlaqələndirir:

-Rektor elə bir mühit formalaşdırıb ki, burada hamı bir ailə kimidir. "Hamı bir nəfər, bir nəfər hamı üçün!" prinsipi ilə çalışırıq. Müəllimlər tələbələrə xüsusi qayğı və həssaslıqla yanaşırlar... Çünki indi işğaldan azad Qarabağda yaşamaq da, oxumaq da, oxutdurmaq da bir məsuliyyətdir...

***

...Müharibənin acılarını sinəsində daşıyan, yaxınlarını itirən Zamin müəllim "Yəqin ki, sizi Qarabağ Universitetinə çəkib gətirən də, sadəcə, bir təhsil ocağı olmayıb, hansısa müqəddəs duyğularınız olub"- sualıma belə cavab verdi:

-Bu sual mənim üçün çox çətindir. Qarabağ mənim məbədgahımdır. İşğal xatirələri uşaqlığımdan içimdə sağalmayan, qaysaq bağlamayan bir yara kimidir... Allah mənə nə qədər ömür veribsə, Qarabağda qalıb çalışacağam. Bu torpağın yenidən dirçəlməsinə öz töhfəmi vermək ən böyük borcumdur...

***

...Zamin Təhməzov bu gün Qarabağ Universitetində tələbələrin qiymətləndirilməsindən tutmuş, tədrisin keyfiyyətinə qədər hər bir xırda detalın mükəmməl olması üçün fədakarlıqla çalışan bir ziyalı olaraq yurda qayıdışın sevincini yaşayır. Ona bu müqəddəs işində böyük uğurlar diləyirik.

**Səriyyə MÜSLÜMQIZI,**
**"Təzadlar"ın Qarabağ üzrə xüsusi müxbiri**

## "Bu uşaq hərbiçidir, polisdir, nədir ki, silah əlində olarkən bilməyərəkdən ehtiyatsız davranıb..."



**"İdrak"ın işi Allaha qalıb... Direktor və təsisçi deyir ki, uşaq ehtiyatsızlıqdan atəş açıb... Tezadlar.az xatırladır ki, sənətşünas Musa Nəbioğlu özünün sosial media platformasında bu barədə belə yazır və sual edir: "...Məktəbli öz müəllimini güllələyib.**

Hansı səbəbdən, niyə güllələyib, silahı hardan alıb, ailədə və məktəbdə bu uşağın tərbiyəsi ilə necə məşğul olublar, bunlar başqa söhbətin mövzusudur və istintaqla hər şeyə yəqin ki, aydınlıq gətiriləcək. Burada diqqətçəkən bir məqam isə odur ki, məktəbin direktoru deyir, hadisə ehtiyatsızlıq nəticəsində baş verib. Görəsən, direktor dediklərinə özü inanırmı, yoxsa insanları əbləh yerinəmi qoyur? Bu uşaq bəyəm hərbiçidir, polisdir nədir ki, silah əlində olarkən bilməyərəkdən ehtiyatsız davranıb və hadisəni törədib? Şagirdin ehtiyatsız davranması nəticəsində dərs zamanı qlobus əlindən düşüb sına bilər, kimya laboratoriyasında kolba sınar, hansısa kimyəvi reaktivlər dağılar, fizika laboratoriyasında hansısa cihazı sındıra bilər. Daha əlindəki silahdan güllə atılmaz ki...".




## "İDRAK"IN DİREKTORU BAŞ PROKURORLUĞU VƏ JURNALİSTLƏRİ ƏLƏ SALIR?- İNANILMAZ!

**Müəllimi şagirdi tərəfindən güllələnən "İdrak" liseyinin təsisçisi Mönsüm Ədil oğlu Alışov və direktor Natəvan Üzeyim qızı Alışova guya bic tərpənib, bütün valideynlərə və hadisə barədə yazan jurnalistlərə vərəqə paylayıb, məlumat yayıb ki, guya liseydə heç nə baş verməyib.**

Bu nə ələsalmadır, bu nə oyundur? Baş Prokurorluq, DİN rəsmi məlumat yayıb ki, şagird müəllimini atasının tüfəngi ilə güllələyib, müəllimə xəstəxanada ölümlə çarpışır, direktor və təsisçi isə feyk məlumat paylaşır ki, liseydə belə şey olmayıb. Bilmirik, bəlkə media Venesuelada baş verənlərlə "İdrak"da baş verənləri səhv salıb?! Hər şey ola bülər...

Nə isə! Baş Prokurorluq fakt üzrə istintaq aparır, mane olmayaq! Daha doğrusu, mane olmasınlar...

**"Təzadlar"**

# Vüqar Səfərlinin əmlakının müsadirəsi barədə bu da son qərar!

## *"Vüqar Səfərlinin həyat yoldaşının adına olan mənzilə qoyulan xüsusi müsadirə qərarı ləğv olunub, əmlakın üzərindən həbs götürülüb"*

**Bakı Apellyasiya Məhkəməsində ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) həbsdə olan sabiq icraçı direktoru Vüqar Səfərlinin əmlakları ilə bağlı məhkəmə prosesi keçirilib. Tezadlar.az xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsində hakim Aqil Musayevin sədrliyi ilə keçirilən prosesdə qərar qəbul edilib. Qərara əsasən, Vüqar Səfərlinin əmlakı ilə bağlı onun həyat yoldaşının iddiası təmin olunub. İş üzrə maraqlı şəxs qismində tanınan Vüqar Səfərlinin həyat yoldaşının adına olan mənzilə qoyulan xüsusi müsadirə qərarı ləğv olunub, əmlakın üzərindən həbs götürülüb.**




Qeyd edək ki, ləğv edilmiş KİVDF-nin vəzifəli şəxslərinin qanunsuz əməllərinə dair Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olan cinayət işi üzrə aparılmış istintaq tədbirləri ilə fondun sabiq icraçı direktoru Vüqar Səfərlinin müvafiq vəzifələrdə çalışmış Bünyamin İsmayılov, Ədalət Vəliyev, Nadir Məmmədov və digər yeddi nəfər şəxslə qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək dövlət satınalmalarına dair qanunvericiliyin tələblərinin pozulması, dövlət vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi, tikinti normalarına əməl olunmamaqla iş həcmləri və qiymətlərinin şişirdilməsi yolu ilə dövlətə məxsus ümumilikdə 18 milyon 500 min manat məbləğində pul vəsaitinin mənimsəmə və israf etmə yolu ilə talanmasına, rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığı törədilməsinə, habelə cinayət yolu ilə əldə edilmiş 5 milyon 700 min manat pul vəsaitinin leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Vüqar Səfərli və digərlərinə müvafiq olaraq Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə - xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma - külli miqdarda törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə - ağır nəticələrə səbəb olduqda), 313 (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilmiş, Vüqar Səfərli barəsində məhkəmənin qərarı ilə həbs, digər şəxslər barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

İbtidai istintaq zamanı cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın bir hissəsinin ödənilməsi təmin edilib, habelə təqsirləndirilən şəxslərə məxsus olan daşınar və daşınmaz əmlak və bank əmanətlərinin üzərinə həbs qoyulub. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Vüqar Səfərli 10 il 6 ay, onunla birlikdə saxlanılan Nadir Məmmədov 6 il müddətinə azadlıqdan məhrum ediliblər. Cinayət işi üzrə digər təqsirləndirilənlər - Bünyamin İsmayılov, Ədalət Vəliyev, Namiq Hacıyev, Bəxtiyar Fətullayev, Təmkin Xəlilov, Telman Tahirov, Valeh Orucov, Şahin İbrahimov və Təhminə Yaqubovaya sınaq müddəti seçilməklə şərti cəza verilib. Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə hökm dəyişdirilmədən qüvvədə saxlanılıb. Ali Məhkəmə də hökmü qüvvədə saxlayıb. Cinayət işi üzrə Medianın İnkişafı Agentliyi (MEDİA) zərərçəkmiş qismində tanınıb.

# O, GİNNESİN REKORDLAR KİTABINA DÜŞMƏYİN BİR ADDIMLIĞINDADIR- İNANILMAZ!

**“Təzadlar” bu yazını qarışqanın filə çevrilməsini istəməyən məmurlar-vəzifəlilərin düşünməsi və nəticə çıxarması üçün dərc etməli oldu:**




**“Hörmətli “Təzadlar”! Müstəqil nəşr olmağınızı nəzərə alıb bu məktubu Sizə ünvan etdim.**

Biləsiniz, axır ki, mən də bir rekorda imza atacağam. Bəli, düz anladınız. Mən artıq Ginnesin Rekordlar Kitabına müraciət hazırlamaq üçün lazım olan sənədləri, yeni dəlilləri toplayıram. Səbəb? Səbəbə əvvəldən başlayaq.

Mən 1972-ci il təvəllüdlü bir şəxsəm. Qarabağ müharibəsində iştirak edib, zədə almışam. 1994-cü ildə “Azəriqaz” İB-nə çilingər vəzifəsinə daxil oldum. Bir müddət sakit işləsəm də, sistemdə o vaxtlar olan bəzi qanun pozuntularına göz yuma bilmədiyimdən rəhbərliklə ara-sıra kiçik konfliktlərim olurdu. 2014-cü ildə ilk dəfə ixtisara salınandan sonra məhkəməyə müraciət etdim. Bakının Xətai rayon Məhkəməsi bu ixtisarı qanunsuz hesab edib məni öz iş yerimə qaytardı. 1 illik məhkəmə çəkişməsindən sonra öz növbəli iş rejimimə dönüb, 1 illik məcburi işə buraxılmamanın əmək haqqını “Azəriqaz”dan aldım.

*Struktur dəyişikliyi adı altında qaz təsərrüfatını elə bərbad hala saldı ki...*

Çox keçmədən, 2019-cu ilin fevralında “Azəriqaz”da gedən struktur dəyişikliklərində olan bərbad- daha dəqiq desək, əmək təhlükəsizliyi qaydalarına zidd olan ixtisara (yəni, qəza-bərpa və istismar xidmətinin operativ qrupunda çilingərlərin sayının azaldılması) etiraz olaraq Dövlət Əmək Müfəttişliyinə və Fövqəladə Hallar Nazirliyinə müraciət ünvanladığımdan sonra, rəhbərlik mənim əlil olmamı bəhanə gətirərək növbəli işdən çıxardıb, 8 saatlıq, adı eyni olsa da fərqli iş prinsipi olan işə keçirdi. Bu dəfə də öz hüquqlarımı məhkəmədə axtardım və qalib gəldim. Qalib gəldim, ona görə yox ki, məni qanunsuz çıxartmışdılar, ona görə ki, “Azəriqaz” artıq 2015-ci ildən bəzi işçi qruplara verməli olduğu ağır iş əmsalını vermədiyindən mənim çalışdığım peşə artıq sadə peşələr siyahısında idi və əlilliyi olan insanı bu peşədən uzaqlaşdırmaq üçün təkcə istək az idi, işə götürən həm də müxtəlif qayda-qanuna riayət etməli idi ki, atdığı addım qanuni saysın.

Bir müddətdən sonra “Azəriqaz” rəhbərliyi yenə də qanun pozuntusuna əl atıb, bu dəfə artıq məni 3-cü dəfə (2023-cü ildə) mənə və mənim kimi əlilliyi olan insanlara aid olmayan bir maddə ilə işdən uzaqlaşdırdı.

Düzü, bu dəfə artıq canını məndən qurtaran rəhbərlikdən çox, mən özüm sevindim. Rəhbərlik ona görə sevindi ki, eyni vaxtda bir neçə əlilliyi olan şəxsi işdən çıxartmaqla, əlilliyi olan şəxslər üçün vacib olan iş şəraitini qurmaqdansa (yəqin bu şəraiti onun da öz rəhbərliyinin əmri ilə, öz hesabına etmək əmri olduğundan maddi cəhətdən baha başa gəlirdi deyə) əlilliyi olan insanlar üçün ayrılan iş yerləri kvotasını pozana tətbiq olunan cüzi cəriməni ödəmək daha sərfəli idi.

Mən isə ona görə sevindim ki, bəzi naşi hərəkətlərdən irəli getməyən, əmək qanunvericiliyindən xəbəri olmayan rəhbərliyin kortəbii verdiyi əmri yerinə yetirməklə, “Azəriqaz”in yerli xırda məmurları qanunları kobud şəkildə pozdu və hər hansı bir məhkəmə mənim... daha dəqiq desək, bizim xeyrimizə qərar verəcəkdi. Buna tam əmin idim. Səbəb də bu idi ki, Mən artıq “ Azəriqaz“ rəhbərliyinin sahəsində özüm əmək qanunvericiyi ilə maraqlanırdım və 2023-cü ildən Vətəndaş Huquqlarının Müdafiəsinə Dastək (VHMD) Müstəqil Həmkarlar Birliyinin həmtəsisçisi və sədr müavini idim. Və elə də oldu. İl yarımlıq məhkəmə çəkişməsindən sonra, 2025-ci ilin mart ayında öz işə yerimə, yəni Bakı şəhəri Nəsimi rayon Qaz İstismar Departamentinə, növbəli iş rejiminə döndüm.

Amma deyirlər, adam pis verdişi daha tez öyrənir. Bir də atalar sözü var, deyirlər atalar üç dəfədən deyib. Amma nədənsə “Azəriqaz” rəhbərliyinə isə bu xalq məsəllərini vaxtında öyrədən olmayıb deyə, çox keçmədən “Azəriqaz” rəhbərliyi Bakı Regional Qaz İstismar İdarəsinin rəhbərliyinin köməyi ilə məni bir daha “sevindirdi”. Amma “Azəriqaz” rəhbərliyi məhkəmə yolu ilə işə qayıtdığımdan cəmi 6 ay sonra məni yenidən ixtisara saldı. Bu kifayət deyil kimi, hələ struktur dəyişikliyi adı altında qaz təsərrüfatını elə bərbad hala saldı ki, bu gün Bakının mərkəzində yeraltı qaz xətlərində hər hansı bir xəta baş versə, bu işə cavabdeh olan çilingər qaz quyusuna daxil olub o xətanı aradan qaldırsa, qanunları pozmuş olacaq. Səbəbi də odur ki, əvvəla, çilingər təkdir; ikincisi, o çilingər hər səhər işə başlamamışdan öncə əmək təhlükəsizliyi qaydalarına imza atır. O qaydalarda isə açıq-açığına yazılıb ki, hər hansı bir yüksəkliyə (yəni nərdivan tələb olunan halda) və ya yeraltı quyuda qəzanı aradan qaldırmaq üçün ən azı 3 nəfər lazımdır. Biri avtomobil yolunu bağlayır, biri quyuya düşür və biri də quyuya düşəni qoruyucu kəmərlə yuxarıdan saxlayır ki, quyuda çilingərin vəziyyəti pisləşərsə, onu quyudan vaxtında çıxara bilsinlər.

***

Nə başınızı ağrıdım! Qayıdaq indi bir daha rekordlar kitabına. İxtisara salınandan sonra mən öz ənənəm üzrə işi məhkəməyə verdim və... Düz tapdınız. Xətai rayon Məhkəməsinin hakimi İlahə xanım Abbasova ədalətli qərarı ilə mənim 4-cü dəfə işə qayıtmam barədə qərar qəbul etdi.

Odur ki, hörmətli oxucu, mən bu günlərdə Ginnesin Rekordlar Kitabının Zaqafqaziya üzrə nümayəndəliyi ilə əlaqə saxladım və daha dəqiq desək, “Azəriqaz”ın növbəti dəfə eyni şəxsə uduzmasının qeydə alınması barədə sorğu ünvanladım. Qaldı indi bu rekordun təsdiq edilməsi üçün bir neçə sənədləşməişi.

**Əhməd Rəhmanov,**
**I Qarabağ Müharibəsi veteranı”.**

**REDAKSİYADAN: təkrar edirik, bu yazını-məktubu düşünüb nəticə çıxaranlar üçün təqdim etdik. O iş ki, həyata keçirilməlidir, onu məhkəmə qərarı ilə edib özünü hörmətdən salmağın nə mənası?!**

**Abşeron rayonunun Qobu bələdiyyəsi ilə qəsəbə sakinləri arasında torpaqla bağlı yaranan problemlər dəfələrlə mətbuatın gündəminə gətirilib. Tez-tez rayon sakinlərindən redaksiyamıza məmurların vətəndaşlarla qeyri-rəsmi sövdələşməyə girməsi, bələdiyyə tərəfindən fərdi yaşayış evlərinin tikintisi üçün verilən torpaq sahələrinin başqalarına satılması ilə bağlı şikayətlər daxil olur.**

# Abşeron rayonunda torpaq qalmaqalı səngimir

## Qobu bələdiyyəsinin sədri Araz Nəcəfov dedi ki, 100 min manat verib torpaq almışam ki, sənə verim?



Tezadlar.az-ın redaksiyasına daxil olan son şikayət də bu qəbildəndir. Qeyd edək ki, Abşeron rayonunun Qobu qəsəbə sakini Rüstəmova Pakizə Ağamurad qızının redaksiyamıza ünvanladığı şikayətində Qobu bələdiyyəsinin sədri tərəfindən başına gətirilənləri həyəcansız oxumaq mümkün deyil.

Şikayətçi bildirir ki, 2006-cı ildə fərdi yaşayış evi tikmək məqsədilə Abşeron rayon Qobu bələdyyəsinin ehtiyat fondundan onun mülkiyyətinə 20 sot torpaq sahəsi verilməsi üçün 800 manat rüsum pulunu o vaxtkı “Texnikabank” vasitəsilə Qobu bələdyyəsinin hesabına köçürüb. Bələdiyyədən bildiriblər ki, ona ən yaxşı yerdən - “Çənlibel” restoranının yaxınlığından torpaq sahəsi veriləcək. Amma... Sonra məlum olub ki, ona verilən torpaq sahəsini bələdiyyə başqasına satıb: “Narazılığımı bildirdikdən sonra söz verdilər ki, mənə ayrı-ayrı ərazilərdən hər biri 10 sot olmaqla 2 yerdən torpaq sahəsi verəcəklər. Doğrudur, mənə 10 sot ərazini Qobu bələdiyyəsinin yerquruluşu planından çıxarış əsasında göstərsələr də, sənəddə nə möhür vardı, nə Abşeron RİH-nin Memarlıq şöbəsinin o vaxtkı müdiri Akif Əliyevin, nə də Qobu bələdiyyəsinin sədri Araz Nəcəfovun imzası. Bu məmurlar uzun müddətdir ki, saxta sənəd verərək məni süründürürlər. Hətta sonradan məlum oldu ki, onların mənə verdiyi çıxarış sənədində göstərilən ərazi örüş sahəsi imiş. Təbii ki, həmin ərazidə ev tikmək qadağandır.Yəni Qobu bələdiyyəsinin sədri Araz Nəcəfov bələdyyənin ehtiyat fonduna aid olmayan ərazini qanunsuz olaraq bələdiyyə torpağı adı altında saxta sənədlərlə mənə sırımaqla pul qazanmaq niyyətində olub. Araz Nəcəfovun “adamları” torpağın sənədlərinin qaydaya salınması üçün məndən 6500 manat tələb etdilər. Mən də həmin pulu Kapital Bank-dan kredit götürüb Araz Nəcəfova iş otağında verdim ki, sənədlərimi versin. Amma bu günədək nə torpaq sahəsini ala bilirəm, nə də sənədlərimi. Onların mənə verdiyi saxta sənəd yoxlanıldıqda məlum oldu ki, nəzərdə tutlan ərazi bələdiyyə torpağı deyil, kənd təsərrüfatlı örüş sahəsi olduğu üçün heç vaxt ona Çıxarış verilə bilməz. Artıq illərdir Qobu bələdiyyəsinə ayaq döyməkdən yorulmuşam. Tək ailə başçısı olduğumdan Kapital Bank-dan götürüb Araz Nəcəfova verdiyim pulun kreditini çətinliklə ödəyirəm. Hazırda öhdəmdə 5 ailə üzvü var. Ailədə işləyən tək mənəm və ayda 263 manat əməkhaqqı alıram.

*“Mən də həmin pulu Kapital Bank-dan kredit götürüb Araz Nəcəfova iş otağında verdim ki, sənədlərimi versin”*

Abşeron RİH başçısının köməkçisi Fuad müəllimin qəbulunda oldum. O, Araz Nəcəfova zəng edib tapşırdı ki, mənim torpaq məsələmi həll etsin. Araz Nəcəfov isə söz verdi ki, problemi aradan qaldıracaq. Fuad müəllimin xahişini nəzərə alıb Araz Nəcəfovun yanına getdim. O, iş kabinetində əvvəlcə mənə başqa təkliflər etdi, əvəzində, mənim torpaq məsələmi həll edəcəyini bildirdi. Mən isə ayağa qalxıb kabinetin qapısını çırpıb getdim. Sonralar bir dəfə də Abşeron RİH əməkdaşının göstərişi ilə Araz Nəcəfovun qəbulunda oldum. O, bu dəfə də əvvəlcə məni təhqir etməyə başladı ki, “Yenə məndən şikayət yazmısan. Amma onu da bil ki, səndən aldığım pulu kimsəsiz uşaqlar evinə verərəm, amma sənə qaytarmayacağam, torpaq da verməyəcəyəm”. Mən yenə Abşeron Rayon İcra Hakimiyyətinin o vaxtkı başçısı İradə Gülməmmədovanın qəbuluna düşmək istədim. İçəri keçməyə icazə vermədilər. Məcbur olub rayonumuzun deputatı Şahin Seyidzadədən xahiş etdim ki, üzləşdiyim problemin həllinə köməklik göstərsin. Milli Məclisin 2 mart 2021-ci il tarixli rəsmi məktubu ilə Araz Nəcəfova müraciət edildi ki, Rüstəmova Pakizə Ağamurad qızının torpaq sahəsinin sənədlərinin verilməsi təmin edilsin. Lakin yenə də heç bir nəticə olmadı. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı qəsəbəmizə səyyar görüşə gələndə Araz Nəcəfov məndən xahiş etdi ki, ondan başçıya şikayət etməyim, torpaq məsələsini yoluna qoyacaq. Amma heç bir tədbir görülmədi.

Araz Nəcəfov köhnə qəbiristanlığın yanında 4 ha torpq sahəsini hasarlayıb özününküləşdirib. Bunu qəsəbədə hamı bilir. Köməkçisi Ədalətin yanında Araz Nəcəfovdan həmin torpaq ərazisindən torpaq sahəsi istədim. Qobu bələdiyyəsinin sədri Araz Nəcəfov dedi ki, 100 min manat verib torpaq almışam ki, sənə verim? Bələdiyyə sədrinin Lökbatan yolunun sağ və sol tərəfində daha 2 ha özünə məxsus torpaq sahəsi vardı. Oradan mənə 10 sot torpaq sahəsi verəcəyini bildirmişdi.

Bir gün Qobu bələdiyyəsi sədrinin yanına gedib vəd verdiyi torpaq sahəsinin verilməsini və sənədləşdirilməsini istəyəndə, o, nalayiq sözlərlə məni təhqir edib kabinetdən qovdu və dedi ki, get, hara istəyirsən şikayət elə, ta sən məni bezdirdin...

Bu məsələ barəsində yuxarı instansiyalara etdiyim şikayətlər də cavabsız qaldı.

Hörmətli redaksiya! Xahiş edirəm, mənə məxsus olan torpaqların özümə qaytarılması ilə bağlı, eyni zamanda məni aldadaraq etibarımdan sui-istifadə edən Qobu bələdiyyəsinin sədri Araz Nəcəfovla bağlı müvafiq tədbir görülməsi üçün səsimi aidiyyəti dövlət orqanları rəhbərlərinə çatdırasınız”.

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

**E.ŞİRİNOV**

# Erməni terrorundan zərərçəkən Gəncə sakini Prezidentdən kömək istəyir

*"Möhtərəm cənab Prezident! Sərəncamınızla yaradılmış Dövlət Komissiyası tərəfindən evimə dəyən ziyan tam deyil, qismən ödənilib, həyətimin hasarına və digər köməkçi tikililərə dəyən zərərə görə ümumiyyətlə kompensasiya, eləcə də kirayə və zərər görmüş əşyaların pulu ödənilməyib"*

**Tezadlar.az saytına Gəncə şəhəri, Cümhuriyyət küçəsi, 72 (keçmiş Əli Məmmədov küçəsi, 1B) ünvanında yaşayan Qoşqar Umud oğlu Haqverdiyevin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətinin surəti daxil olub.**



Düşmənin hücumu zamanı yaşayış evləri tamamilə dağıldı, sakinlər dağıntılar altında qaldı, şəhid oldu, yaralandı

Q.Haqverdiyev müraciətində Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci il oktyabrın 17-də Gəncə şəhərinə atılan raket zərbələri nəticəsində ona məxsus olan fərdi yaşayış evinə dəyən ziyana görə kompensasiyanın tam deyil, qismən ödənildiyini, həyətinin hasarına və digər köməkçi tikililərə dəyən zərərə görə ümumiyyətlə, kompensasiya, eləcə də kirayə və zərər görmüş əşyaların pulu ödənilmədiyini bildirir...

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 noyabr 2020-ci il tarixdə (№ 2292) "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Sərəncamda 2020-ci il sentyabrın 27-də Ermənistan Respublikası silahlı qüvvələrinin ölkəmizə qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qətiyyətli əks-hücum əməliyyatlarına başladığı və bir neçə rayonu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad etdiyi qeyd olunur. Vurğulanır ki, Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olub. Döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki əhalini, eləcə də infrastruktur obyektlərini hədəf seçib, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törədib, mülki şəxslərin vəhşicəsinə qətlə yetirib, insanların əmlakına, infrastruktur obyektlərinə irimiqyaslı zərər vurublar.

Sərəncama əsasən, sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi rəhbər tutularaq məlum tərkibdə Dövlət Komissiyası yaradıldı.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə də ümumilikdə 5 dəfə (4, 5, 8, 11, 17 oktyabrda) raket və ağır artilleriya ilə hücum edildi.

Xatırladaq ki, 2020-ci il oktyabrın 17-də gecə saat 1 radələrində düşmən cəbhə zonasından kənarda yerləşən Gəncə şəhərini SCUD-/Elbrus əməliyyat-taktiki ballistik raketləri ilə növbəti dəfə atəşə tutdu. Düşmənin hücumu zamanı yaşayış evləri tamamilə dağıldı, sakinlər dağıntılar altında qaldı, şəhid oldu, yaralandı. Eyni zamanda, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

Ermənistan silahlı qüvvələrinin həmin gecə Gəncəni raket atəşinə tutması nəticəsində zərərçəkənlərdən biri də Gəncə şəhəri, Cümhuriyyət küçəsi, 72 (keçmiş Əli Məmmədov küçəsi, 1B) ünvanında yaşayan Qoşqar Umud oğlu Haqverdiyev olub.

Q.Haqverdiyev Prezident İlham Əliyevə ünvanladığı müraciətində bildirir ki, Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci il oktyabrın 17-də Gəncə şəhərinə atılan raket zərbələri nəticəsində ona məxsus olan Gəncə şəhəri, Cümhuriyyət küçəsi, ev 72 (keçmiş Əli Məmmədov küçəsi, 1B) ünvanında yerləşən fərdi yaşayış evimə, köməkçi tikililərə və həyətimin hasarına ziyan dəyib: "Ancaq çox təəssüf ki, Sizin "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" 6 noyabr 2020-ci il tarixli Sərəncamınızla yaradılmış Dövlət Komissiyası tərəfindən evimə dəyən ziyan tam deyil, qismən ödənilib, həyətimin hasarına və digər köməkçi tikililərə dəyən zərərə görə ümumiyyətlə kompensasiya, eləcə də kirayə və zərər görmüş əşyaların pulu ödənilməyib. Hazırda həmin köməkçi tikililər və həyətimin hasarı qəza vəziyyətindədir. 65 yaşlı işsiz vətəndaş olaraq mövcud problemləri aradan qaldırmağa yetəcək maddi imkanım yoxdur. Odur ki, Sizdən xahiş edirəm, Dövlət Komissiyası tərəfindən həyətyanı sahəmə yenidən baxış keçirilsin və köməkçi tikililərin mövcud vəziyyətinin qiymətləndirilməsi təmin edilsin.

Möhtərəm cənab Prezident! Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi yüksək qayğıya və diqqətinə güvənərək, ümid edirəm ki, müraciətim nəzərə alınacaq. Öncədən sizə özüm və ailəm adından təşəkkür edirəm".

Q.Haqverdiyev Prezident İlham Əliyevə ünvanladığı müraciətində onu da bildirir ki, sözügedən Sərəncamla əlaqədar yaradılan Dövlət Komissiyasının sədri - Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova, sədr müavini - Baş nazirin müavini Şahin Mustafayevə, eyni zamanda Komissiyanın üzvlərinə - Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Xalid Əhədov, Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov, Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə məsələ ilə bağlı müraciət etsə də, heç bir cavab almayıb.

**REDAKSİYADAN: Müraciətlə bağlı aidiyyəti dövlət qurumlarının da mövqeyini dərc etməyə hazırıq.**

**E.ŞİRİNOV**



# Təhsildə aktual preblemlər

**Təhsil cəmiyyətin intellektual potensialını formalaşdıran əsas sosial institutlardan biridir. Müasir dövrdə elmin, texnologiyanın və qloballaşmanın sürətli inkişafı təhsil sisteminin qarşısında yeni və mürəkkəb vəzifələr qoyur.**

Bu dəyişikliklər fonunda təhsilin məzmunu, təşkili və idarə olunması ilə bağlı bir sıra aktual problemlər meydana çıxır. Sözügedən problemlərin elmi baxımdan təhlili və onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi dayanıqlı inkişaf baxımından xüsusi əhəmiyyət kəsb edir.

## Təhsilin keyfiyyətinin təmin olunması problemi

Təhsildə ən mühüm məsələlərdən biri keyfiyyətin təmin edilməsidir. Bir çox hallarda tədris prosesi faktoloji biliklərin ötürülməsinə yönəlir və şagirdlərin analitik təfəkkürünün, tənqidi düşünmə bacarıqlarının formalaşması ikinci plana keçir. Halbuki müasir təhsil konsepsiyası şəxsiyyətyönümlü və kompetensiya əsaslı yanaşmanı tələb edir. Təhsilin keyfiyyəti yalnız nəticələrlə deyil, eyni zamanda tədris prosesinin məzmunu və metodları ilə də ölçülməlidir.

## Müəllim hazırlığı və pedaqoji səriştə

Elmi-pedaqoji tədqiqatlar göstərir ki, müəllimin peşəkar səriştəsi təhsilin effektivliyinə birbaşa təsir göstərən əsas amillərdəndir. Müasir müəllim yalnız bilik ötürən deyil, həm də tədqiqatçı, fasilitator və motivator rolunu yerinə yetirməlidir. Lakin bəzi hallarda müəllimlərin innovativ tədris metodları və rəqəmsal bacarıqları kifayət qədər inkişaf etməmiş olur. Davamlı peşəkar inkişaf mexanizmlərinin gücləndirilməsi bu problemin həllində əsas şərt kimi çıxış edir.

## Təhsildə rəqəmsallaşma və texnoloji çağırışlar

Rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası yeni imkanlarla yanaşı, müəyyən risklər də yaradır. Texnologiyadan məqsədsiz və nəzarətsiz istifadə öyrənmə prosesinin effektivliyini azalda bilər. Bundan əlavə, texniki infrastrukturun regionlar üzrə qeyri-bərabər paylanması təhsildə sosial bərabərsizlik problemini daha da dərinləşdirir. Elmi yanaşmaya əsasən, texnologiya təhsildə məqsəd deyil, vasitə kimi istifadə olunmalıdır.

## Təhsildə bərabər imkanlar və sosial ədalət

Təhsildə aktual problemlərdən biri də bərabər imkanların tam təmin olunmamasıdır. Sosial-iqtisadi fərqlər, regionlararası inkişaf səviyyəsi və ailə mühiti şagirdlərin təhsil nailiyyətlərinə ciddi təsir göstərir. Elmi araşdırmalar sübut edir ki, inklüziv və ədalətli təhsil sistemi cəmiyyətin ümumi rifahının yüksəlməsinə xidmət edir. Bu baxımdan, dövlət siyasətində təhsildə sosial ədalət prinsipinin qorunması prioritet olmalıdır.

## Qiymətləndirmə sisteminin elmi əsasları

Qiymətləndirmə tədris prosesinin ayrılmaz hissəsidir və onun elmi əsaslara söykənməsi vacibdir. Yalnız imtahan və test nəticələrinə əsaslanan qiymətləndirmə şagirdin real bacarıqlarını tam əks etdirmir. Müasir pedaqogika formativ qiymətləndirmə, layihə əsaslı tapşırıqlar və portfolioların tətbiqini daha məqsədəuyğun hesab edir. Bu yanaşma şagirdin inkişaf dinamikasını daha obyektiv şəkildə müəyyən etməyə imkan verir.

**Nəticə**

Aparılan elmi təhlil göstərir ki, təhsildə mövcud olan aktual problemlər sistemli və kompleks xarakter daşıyır. Bu problemlərin həlli üçün elmi əsaslara söykənən islahatların aparılması, müəllim hazırlığının gücləndirilməsi, təhsildə innovativ yanaşmaların tətbiqi və bərabər imkanların təmin olunması zəruridir. Təhsil yalnız bilik verən deyil, müstəqil düşünən, sosial məsuliyyət daşıyan şəxsiyyət formalaşdıran bir sistem kimi qurulduqda cəmiyyətin davamlı inkişafına real töhfə verə bilər.

**Səma TAĞIZADƏ,**
**Bakı şəhəri**

# 80 yaşın işığında...

## *Sabiq ədliyyə naziri Əlisaab Orucovun doğum gününə dərin hörmətlə...*

**Arayış: Azərbaycan Respublikasının sabiq ədliyyə naziri Əlisaab Orucovun yubileyidir! İki gün sonra anadan olmasının 80 illiyi tamam olur.**

Əlisaab Səftər oğlu Orucov 1946-cı il yanvarın 24 - də Göyçay şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1966-1971-ci illərdə ADU-nin (indiki BDU) Hüquq fakültəsində əyani təhsil alıb. Hüquq ixtisasına yiyələndikdən sonra təyinatla Azərbaycan SSR Ədliyyə Nazirliyinin Məhkəmə Orqanları İdarəsində məsləhətçi vəzifəsində işə başlamışdır. 1973-1977-ci illərdə Gəncə şəhər Xalq Məhkəməsinin hakimi, 1977-1980-ci illərdə isə Resublika Ali Məhkəməsinin üzvü kimi fəaliyyət göstərmişdir. Daha sonra əmək fəaliyyətini Ali Məhkəmənin sədr müavini (1980 - 1982) və sədrin birinci müavini (1982 - 1985) kimi davam etdirmişdir.

1985-ci ilin yanvarında Ə.Orucov Azərbaycan SSR ədliyyə naziri vəzifəsinə təyin olunmuş, bu vəzifədə 1992-ci ilədək çalışmışdır. Onun fəaliyyəti bir müddət Qarabağla əlaqəli olmuşdur. Azərbaycan KP MK Bürosunun qərarı ilə 10 oktyabr 1988-ci ildə Qaçqınlarla iş üzrə Dövlət Komissiyasının ilk dəfə Ağdamda yaradılan qərargahına rəhbərlik etmişdir.

***

**Ə.Orucov Qarabağda gedən müharibənin ilk günlərindən ön cəbhədə olmuşdur. Qarabağ münaqişəsinin ən qızğın vaxtlarında daim erməni təcavüzünə məruz qalan əhalinin yanında olmuş, onlara mümkün olan hər cürə köməkliyi göstərmişdir. Qarabağ İpək Kombinatından və digər müəssisələrdən azərbaycanlıların kütləvi şəkildə işdən çıxarılması zamanı onların alternativ sahələrdə işlə təmin olunmasında böyük əməyi olmuşdur.**

Ə.Orucov münaqişənin ilk vaxtlarından Azərbaycanın ərazi bütövlüyünün bərpasının yalnız qəhrəman ordumuz tərəfindən, hərb yolu ilə mümkünlüyünü faktlarla sübut etmiş və bunu “Mübarizəmiz Qarabağdadır” kitabında (2011) nəzəri cəhətdən bir daha əsaslandırmışdır. Ə.Orucov Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən AR Ali Sovetinin sədri Y.Məmmədovun 8 aprel 1992-ci il tarixli Fərmanı ilə Azərbaycan Resplikası Prezidentinin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi təyin olunmuşdur. Qısa müddət ərzində bu vəzifədə çalışdıqdan sonra o, Azərbaycan Respublikası Prezidentinin 1 iyul 1992 - ci il tarixli fərmanı ilə həmin vəzifədən azad olunmuşdur. Ə.Orucov sonrakı illərdə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının vitse - prezidenti (1993 - 1995) və AR Ədliyyə Nazirliyi yanında Notariat və VVAQ idarəsinin rəisi (1995 - 2001) vəzifələrində çalışmışdır.

Ə.Orucov XI çağırış (1985 - 1989) AR Ali Sovetinin, XII çağırış (1990 - 1995) AR MM-in deputatı olmuşdur. Hazırda təqaüddədir.

Xatırladaq ki, Ə.Orucov müstəqil Azərbaycan Respublikasının ilk ədliyyə naziri olub.

***

**-Salam, hörmətli Əlisaab müəllim. Sizinlə görüşmək, həmsöhbət olmaq çox xoşdur. Sizinlə təmas qurub fəaliyyətinizlə bağlı məlumatları özünüzdən esitməyi həmişə arzulamışıq. Qismət bu günə-Sizin 80 yaşınızın tamam oduğu bir vaxta imiş. Sizi qəzetimizin əməkdaşları və şəxsən öz adımdan ürəkdən təbrik edir, möhkəm can sağlığı arzu edirəm. 80 yaş ömrün müdriklik çağı olmaqla yanaşı, həm də insanın yaddaşında xatirələrin tez - tez boy verdiyi bir yaşdır. Bu müdriklik zirvəsində özünüzü necə hiss edirsiniz?**

- Çox sağ olun. Əvvəla mənim üçün həyatımın belə bir xoş günündə ötən illərə, geridə qoyduğumuz xatirələrə yenidən səyahət etmək, yaddaşımızı yenidən təzələmək imkanı yaratdığınıza görə təşəkkür edirəm. Həqiqətən də zamanın axarının sürətlə irəlilədiyi bir vaxtda geriyə baxmağa, yaşanmış ömrün hər bir məqamını bir daha necə deyərlər “saf - çürük” etməyə tez-tez ehtiyac duyulur. İndi ömrün bu zirvəsinə gəlib çatmaq imkanı da demək olar ki, bir o qədər asan deyil, ona görə də geridə qalan illərdən bu günə hesabat verərkən gərək hər şeyi dürüst, öz adı ilə, hər bir faktı yerində təqdim edəsən, ən xırda məqamı belə diqqətdən qaçırmamağa çalışasan. Bu, müəyyən mənada həm də keçdiyin həyat yoluna veriləcək qiymətdir. Bu nöqteyi-nəzərdən düşünürəm ki, mən də yaşadığım illəri hədər keçirməmişəm, başucalığı gətirən məqamlar çox olub, ona görə də bu gün necə deyərlər, bu “hesabat dövründə” özümü rahat hiss etməyə müəyyən qədər əsasım var. İnşallah, sizinlə söhbətimizdə də öz fəaliyyətimin əsas məqamlarına mümkün qədər obyektiv yanaşmağa çalışaram.



**- Əlisaab müəllim, təbii ki, Siz olduqca zəngin həyat yolu keçmişsiniz və respublikada kifayət qədər tanınmış bir imza sahibisiniz. Lakin gəlin bu əlamətdar yubiley günlərində Sizi bir daha yaxından tanıyaq. Dünyaya göz açdığınız ailə, uşaqlıq, orta məktəb illəriniz barədə zəhmət olmasa oxucularımıza məlumat verərdiniz.**

***“Bu vəzifədə çalışdığım müddətdə nazirliyin maddi - texniki bazasının möhkəmləndirilməsi sahəsində müəyyən işlər görüldü”***

Məmnuniyyətlə. 1953-cü ildə Göyçay şəhər 3 saylı orta məktəbin birinci sinfinə getmişəm. 1964 - cü ildə həmin məktəbi bitirmişəm. Təhsil aldığım dövrdə mənə valideynlərim qədər əziz olan mərhum Kamal müəllimin, Ağarəhim müəllimin, Tahirə müəllimənin, Fikrət müəllimin, Firuzə müəllimənin üzərimdə zəhmətləri az olmamışdı. Atam Göyçay rayon mühafizə bölməsində gecə gözətçisi işləyirdi, anam isə evdar qadın idi. Biz böyük ailə olmuşuq. Maddi vəziyyətimiz ağır olduğu üçün mən səkkizinci sinifdə oxuyarkən fəhləlik eləməyə başladım. Paltarlarımı, məktəb ləvazimatlarımı da özüm alırdım. Sinif yoldaşımla birgə yay tətilində Göyçayda, onun yaxın kəndlərində kərpic kəsər, usta yanında fəhləlik etməklə ev xərclərimizə köməklik edərdik. Hətta o ustaların adlarını indi də yaxşı xatırlayıram... Orta məktəbi bitirdikdən sonra instituta daxil ola bilmədiyimə görə bir neçə il fəhlə işlədim. Sonuncu iş yeri kimi isə Bakı metro tikintisinin təchizat bazasında yükvuran kimi çalışmışam. 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Hüquq fakültəsinin əyani bölməsinə daxil ola bildim.

***“Mənim ömür yoluma həmişə xeyirxah insanlar çıxıb. Köməyimə çatıb, qayğılarını məndən əsirgəməyiblər...”***

**- Ali məktəb illəriniz, müəllimləriniz barədə nə deyə bilərsiz?**

- Əslində ali məktəb illərinin özü də mənim üçün asan keçmədi. Universitetdə təhsil aldığım dövrdə gecələr qarolçu işləyərək maddi ehtiyaclarımın ödənməsində ailəmizə mümkün qədər yük olmamağa çalışmışam. Yəni həyatımın çox da asan keçməmiş əhəmiyyətli bir hissəsi olan bu dövrdə üzləşdiyim məhrumiyyətləri adlamaq üçün heç bir əziyyətdən çəkinməmiş, özümü gələcək həyat yoluna hazırlamışam. Bu gün o illəri xatırlamaq çətin olsa da şükürlər olsun ki, məqsədimin yolundakı maneələri hər zaman uğurla dəf edə bilmişəm. Mənim ömür yoluma həmişə xeyirxah insanlar çıxıb. Köməyimə çatıb, qayğılarını məndən əsirgəməyiblər. Ali təhsil illəri də bu cəhətdən istisna olmadı. Belə insanlardan biri də o vaxtlar Ali Məhkəmənin üzvü (hakimi) olan və bizə saat hesabı Əmək hüququndan dərs deyən, Azərbaycanda hüquq elminin ən görkəmli simalarından sayılan İbrahim İsmayılov idi. Yuxarı kurslarda əlaçı təqaüdü ilə oxuyurdum. Müəllimlərin, o cümlədən İbrahim müəllimin də rəğbətini qazanmışdım. Univesiteti bitirdikdən sonra təyinatımı respublika Ədliyyə Nazirliyinə verdilər. İbrahim müəllim bunu biləndə dedi ki bu günlərdə mən Ədliyyə Nazirliyinin Məhkəmə orqanları idarəsinə rəis vəzifəsinə keçəcəyəm, qismət olarsa bir yerdə işləyərik. Elə də oldu. Mən Ali təhsilimi başa vurandan sonra İbrahim müəllimin rəhbərlik etdiyi idarəyə məsləhətçi təyin olundum. Bundan əlavə mənim oxuduğum Hüquq fakultəsində o vaxt Azərbaycanda hüquqşünaslar nəslinin Məsumə Məlikova, Murtuz Ələsgərov, Kamalə Sarıcalinskaya, Xızır Süleymanov, Fazil Məmmədov kimi çox dəyərli nümayəndələri dərs deyirdilər.

**- Hüquqşünas kimi fəaliyyətə başladığınız ilk illər barədə bir qədər məlumat verməyinizi xahiş edirik.**

- Qeyd etdiyim kimi, 1971 - ci ildə təyinatla göndərildiyim Ədliyyə Nazirliyinin Məhkəmə orqanları idarəsində məsləhətçi kimi əmək fəaliyyətinə başladım. Sonrakı illərdə fəaliyyətimi Gəncə Şəhər Xalq məhkəməsində hakim, Azərbaycan SSR Ali Məhkəməsinin üzvü (hakimi), Ali Məhkəmə sədrinin müavini və birinci müavini kimi davam etdirdim. Yeri gəlmişkən, Ali məhkəmədə müavin vəzifələrinə namizədliyim 1980 - ci ilin fevralında Ali Məhkəmənin sədri təyin olunmuş İbrahim İsmayılov tərəfindən irəli sürülmüşdü. Ali məhkəmədə rəhbər vəzifədə çalışanda da ən çətin məqamlara daha çox diqqət yetirir, mülki sahəyə rəhbərlik edirdim. Hakim kimi səyyar məhkəmə iclaslarında mülki və ağır cinayət işlərinə də baxırdım. Ədliyyə sistemində ən yüksək və məsul posta - Ədliyyə naziri vəzifəsinə təyin olunanda isə cəmi 38 yaşım vardı.

**-Əlisaab müəllim, böyük zəhmət, gərgin və həyəcanlı illər bahasına yüksəldiyiniz bu vəzifədə Siz müstəqil Azərbaycan Respublikasının ilk, keçmiş SSRİ - də isə ən gənc Ədliyyə naziri idiniz. Nazir postunda fəaliyyətiniz dövründə hansı islahatlara nail ola bildiniz?**

- Bu vəzifədə çalışdığım müddətdə nazirliyin maddi - texniki bazasının möhkəmləndirilməsi sahəsində müəyyən işlər görüldü. Hər il nazirliyin gənc mütəxəssislərinin və uzun müddət nazirlikdə çalışıb evi olmayan işçilərin mənzil probleminin həlli diqqət mərkəzində oldu. Xeyli əməkdaş bağ sahəsi, avtomobillə təmin olundu. Azərbaycan keçmiş İttifaqın tərkibində yeganə respublika idi ki, Ədliyyə Nazirliyi tabeliyində Hüquq kadrlarının təkmilləşdirilməsi İnstitutunun açılmasına nail olmuşduq. Bundan əlavə, Azərbaycan müstəqillik qazanandan sonra Nazirliyin beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində də müəyyən addımlar atıldı. Digər dövlətlərin müvafiq nazirlikləri ilə işgüzar əlaqələr yaradıldı, qarşılıqlı hüquqi yardım və iş təcrübəsinin öyrənilməsi kimi məsələlərlə bağlı görüşlər keçirildi.

**- Həmin ağır və məsuliyyətli dövrdə Sizin fəaliyyətiniz yalnız tutduğunuz vəzifə ilə məhdudlaşmadı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, Qərbi Azərbaycandakı ata - baba yurdlarından didərgin düşən qaçqınların, Qarabağın dağlıq ərazisindən köçkün düşən əhalinin problemlərinin həllində sizin də müstəsna əməyiniz oldu. Fəaliyyətinizin həmin dövrləri barədə bir qədər məlumat verməyinizi xahiş edirik.**

- 1988 - ci ilin yanvarında keçmiş Dağlıq Qarabağda iğtişaşlar başladı. O dövrdə mən bir neçə dəfə Ermənistanda ezamiyyətdə oldum. Oradan qayıdandan sonra Azərbaycan KP MK - nə dəvət olundum və MK Bürosunun 10 oktyabr 1988 - ci il tarixli qərarı ilə məcburi köçkünlərlə iş aparmaq üçün 10 gün müddətinə nazir kimi Ağdam şəhərində yerləşən qərargaha göndərildim. O vaxt Qarabağdan olan ilk qaçqınlar Ağdam qərargahına müraciət edirdilər. Orada fəaliyyət müddətim bitdikdən sonra məni əvəz etmək üçün başqa nazir gəlmədiyinə görə MK birinci katibi Ə.Vəzirovla telefon əlaqəsi yaradarkən mənə bildirdi ki, hələlik qərargahda qal fəaliyyətini davam etdir. Mən 1990 - cı ilin yanvarınadək orada qalmalı oldum. Bundan sonra vilayətdə fəaliyyətə başlayan “Respublika Təşkilat Komitəsi”nin sədri Viktor Polyaniçko vilayətdə yaşayan Azərbaycanlı əhaliyə dəstək verib onların hüquqlarının bərpasını tələb etdiyimə görə məni millətçi adlandıraraq qərargahı tərk etməyimə nail oldu. Buna baxmayaraq mən ətraf sərhəd rayonlarından vilayətə daxil olaraq yerli əhaliyə kömək göstərməyə davam edirdim. Lakin artıq Vilayətin taleyi Polyaniçkonun əlində cəmləşmişdi, o da Azərbaycanlı əhalinin vilayəti tərk etməsini sürətləndirərək Arkadi Volskinin başladığı bu prosesi tezliklə başa çatdırdı.

**- 1992-ci ilin aprelində Azərbaycan Respublikası Ali Sovetinin Sədri, Respublika Prezidentinin səlahiyyətlərini həyata keçirən Yaqub Məmmədov tərəfindən Azərbaycan Respublikası Prezidentinin Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi təyin olunmuşdunuz. Həmin dövrü necə xatırlayırsız?**

- 1992-ci ilin aprelin 7- də respublikaya müvəqqəti rəhbərlik edən Ali Sovetinin Sədri Yaqub Məmmədov “Azərbaycanın müharibə gedən rayonlarında Prezident idarə üsulu tətbiq etmək” haqqında Fərman imzalamışdı. Həmin vaxt Şuşa şəhəri istisna olmaqla Dağlıq Qarabağın bütün ərazisi işğal olunmuşdu. Ermənilər “Bala Kirs” adlanan yüksəklikdən Şuşa yolunu atəş altında saxlayırdılar. Şəhərin mühasirəsi getdikcə daralırdı. Şəhər qan içində çabalayırdı. Artıq 5 - ci il idi ki, mən Dağlıq Qarabağda fəaliyyətimi davam etdirirdim. Azərbaycanlı əhali orada tam müdafiəsiz vəziyyətdə idi. Camaatı o vəziyyətdə köməksiz qoyub oranı tərk etmək qeyri - mümkün idi.

***“Yaqub Məmmədovu inandırmağa çalışdım ki, oraya səlahiyyətli nümayəndə göndərmək əvəzinə vilayəti birdəfəlik hərbi yolla, güc vasitəsilə azad etmək daha məqsədəuyğun olardı...”***

Bu müddətdə gördüyümüz bütün tədbilər onların doğma yurdlarını tərk etməmələrinə yönəldilmişdi. Cəbhə bölgələrində yaranmış son dərəcə ağır vəziyyətə baxmayaraq hələ də vahid komandanlıqdan söhbət belə gedə bilməzdi. AXC - nin ayrı-ayrı silahlı birləşmələri, hətta bu qurumun ayrı-ayrı liderlərinin öz dəstələri, yerli rəhbərlərə və nüfuzlu şəxslərə tabe olan özünümüdafiə batalyonları, Müdafiə Nazirliyinin pərakəndə silahlıları hər biri öz siyasi məqsədlərinə xidmət edirdi. Belə bir vəziyyətdə Prezidentin Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi təyin olundum. Mən Yaqub Məmmədova izah etdim ki, ermənilər onlara himayədarlıq edən Arkadi Volskinin və Viktor Polyaniçkonun əllərində olan böyük səlahiyyətlər hesabına vilayətə tam yiyələnmişlər. Artıq nəzarətdən çıxmış bir əraziyə səlahiyyətli nümayəndə göndərilməsinin hansı hüquqi nəticələri ola bilərdi? Həmin dövrdə respublikanın hələ MDB - ə daxil olmaması da Ermənistanın hərbi imkanlarını artırmışdı. Yaqub Məmmədovu inandırmağa çalışdım ki, oraya səlahiyyətli nümayəndə göndərmək əvəzinə vilayəti birdəfəlik hərbi yolla, güc vasitəsilə azad etmək daha məqsədəuyğun olardı. O mənimlə razılaşmadı. Belə olduqda ondan xahiş etdim ki, əgər məni vilayətə səlahiyyətli nümayəndə göndərmək fikrində qətidirsə o zaman mənə mülki səlahiyyətdən vacib hərbi səlahiyyət də verilməlidir. Yaqub Məmmədov mənim bu təklifimlə razılaşdı və ona görə də bu məqsədlə mənim təyinatımla bağlı imzaladığı Fərmanın 4 - cü bəndinə qeyd olundu ki, Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasına Ə.Orucovun Dövlət Müdafiə Komitəsinin tərkibinə daxil edilməsi təklif olunsun. Həmin fərmandan sonra Milli Şuranın bir neçə iclası keçirilsə də, Qarabağ məsələsinə toxunulsa da mənə hərbi səlahiyyət verilməsi məsələsi gündəliyə çıxarılmadı. Mən səlahiyyətli nümayəndə vəzifəsinin icrasına başladığım gündən bir həftə ərzində müharibə gedən bütün bölgələrdə olub onların müdafiə qabiliyyətlərilə tanış oldum. Bundan sonra, aprelin 19 - da Y.Məmmədovla telefon əlaqəsi yaradıb ona cəbhə xəttində vəziyyətin son dərəcə ağır olmasını məruzə etdim və təkliflərimi verdim, ondan mənə hərbi səlahiyyət verilməsinin tezləşdirilməsini bir daha xahiş etdim. O mənə bildirdi ki, bu məsələyə yaxın vaxtda baxılacaq.

**(Davamı 15-ci səhifədə)**

# 80 yaşın işığında...

**“Son nəticədə mənə məqsədyönlü surətdə hərbi səlahiyyət verilmədi, bunun səbəbini soruşduqda isə Y.Məmmədov dedi ki, sənə hərbi səlahiyyət verilməsinə Rəhim Qazıyev imkan vermir...”**



(Əvvəli 14-cü səhifədə)

Əlavə olaraq mənə bildirdi ki, oradakı vəziyyəti nəzərə alıb qısa müddət ərzində Ağdam şəhərində hərbi əməliyyatlara yerində rəhbərlik etmək üçün hərbi qərargah yaradılmasına dair Müdafiə naziri Rəhim Qazıyevə göstəriş veriləcək.

Son nəticədə mənə məqsədyönlü surətdə hərbi səlahiyyət verilmədi, bunun səbəbini soruşduqda isə Y.Məmmədov dedi ki, sənə hərbi səlahiyyət verilməsinə R.Qazıyev imkan vermir. Ancaq buna baxmayaraq bəzi briqada komandirləri mənim sözümü eşidib uğurlu hərbi əməliyyatlar keçirdilər. Bir neçə döyüş əməliyyatlarında özüm də sıravi bir əsgər kimi iştirak etmişəm. Bu haqda mən 1990 - cı illərin sonu - 2000 - ci illərin əvvəllərində Qarabağlı jurnalistlər Şöhrət Səlimbəyli, Nizami Zamanov və Rauf Əliyevin müəllifliyi ilə çapdan çıxmış və qeyd olunan faktları özündə əks etdirən bir neçə kitabda, o cümlədən özümün də müəllifi olduğum “Mübarizəmiz Qarabağdadır” adlı kitabda geniş surətdə qeyd etmişəm. Dağlıq Qarabağda hadisələr başlayan ilk gündən mətbuatda, televiziyada, radioda çıxışlar edib həqiqətləri xalqa çatdırmışam. Müharibənin ilk günlərindən məsələnin beynəlxalq təşkilatlar vasitəsilə sülh danışıqları yolu il deyil, yalnız hərbi yolla həll olunmasının zəruri olduğu fikrini irəli sürmüşəm. Ayrı - ayrı yazılarımda da bu faktlar öz əksini tapıb.

**«Respublikanın o vaxtkı Prezidenti Əbülfəz Elçibəy iyunun 25-də məni Bakıya qəbuluna çağırdı. Onunla söhbət zamanı hiss etdim ki, Ağdamda görülən işlər barədə tam məlumatlıdır və...”**

**- Buna baxmayaraq səlahiyyətli nümayəndə vəzifəsində çox qısa müddət çalışdınız. Buna səbəb nə idi?**

- 1992 - ci ilin may - iyun aylarında Ağdam hərbi briqadasının komandiri Elxan Orucovla birgə yüksək hazırlıqlı peşəkar hərbçilərin də cəlb olunması ilə Əsgəran istiqamətində başlanacaq hücum - hərbi əməliyyat keçirib torpaqlarımızın azad olunmasına hazırlıq işləri apardıq. Hərbi səlahiyyətim olmadığına görə əməliyyatın keçirilməsində rəsmən iştirak edə bilməsəm də cəlb olunmuş kəşfiyyatçılar və hərbçilər hamılıqla Elxan Orucovun komandir olduğu hərbi hissədə yerləşdirilib onun tabeliyinə verilmişdi. Bu əməliyyata qədər artıq Əsgəran rayonu istiqamətində hərbçilərimiz tərəfindən uğurlu əməliyyatlar keçirilərək 7 kəndimiz düşməndən azad olundu. O zaman AXC iqtidarı da Ağdama öz nümayəndələrini göndərib yerində məsələ ilə maraqlanıb bunun şahidi olmuşdu. Xanabad kəndi istiqamətində planlaşdırılmış və xeyli torpaqların azad olunmasına yol açacaq əsas əməliyyat isə qəsdən pozuldu. Respublikanın o vaxtkı Prezidenti Əbülfəz Elçibəy iyunun 25-də məni Bakıya qəbuluna çağırdı. Onunla söhbət zamanı hiss etdim ki, Ağdamda görülən işlər barədə tam məlumatlıdır.

**“Lakin 1992-ci il iyulun 2-də, cəmi 2 ay 20 gündən sonra mən Respublika Prezidentinin Fərmanı ilə həmin vəzifədən azad olundum, əvəzimə isə Surət Hüseynov təyin olundu...”**

Onda mən Elçibəyə mənə hərbi səlahiyyətin verilməsi barədə bir daha öz təklifimi bildirdim, o da dedi ki, Türkiyəyə rəsmi səfərə gedir və qayıdandan sonra bu məsələnin müsbət həllinə çalışacaq. Mənə müvəqqəti olaraq Bakıda qalıb onu gözləməyimi məsləhət gördü. Mən Elçibəyə müharibə bölgəsində vəziyyətin son dərəcə gərgin olduğunu bildirib israrla Ağdama qayıdacağımı söylədim. O da mənimlə razılaşıb dedi ki, Türkiyədən qayıdandan sonra məni təkrar Bakıya dəvət edəcək. Lakin 1992-ci il iyulun 2-də, cəmi 2 ay 20 gündən sonra mən Respublika Prezidentinin Fərmanı ilə həmin vəzifədən azad olundum, əvəzimə isə Surət Hüseynov təyin olundu. Ona əlavə olaraq hərbi səlahiyyətlər verildi - korpus komandiri təyin edildi. Məndən bir gün əvvəl - iyul ayının 1-də briqada komandiri Elxan Orucov da mənim təklifimlə əməliyyat keçirmək istədiyinə görə vəzifəsindən kənarlaşdırıldı. Onun yerinə Abdullayev soyadlı birini təyin etdilər, o da peşəkar kadrların əməliyyatdan, ümumiyyətlə isə Ağdamdan uzaqlaşdırılması üçün əlindən gələni etdi.

**- Əlisaab müəllim, təbii ki, bunlar tariximizin ağrılı, acılı səhifələridir və bu səhifələrin silinməsi mümkün deyildir. Sizin həyatınızda da bu səhifələr öz izini qoyub. Amma hər halda Sizin fəaliyyətinizdə xoş məqamlar, sevindirici notlar da az deyil. Bunların da bir hissəsi Sizin Azərbaycan Parlamentində millət vəkili kimi fəaliyyətiniz dövrünə təsadüf edir. Zəhmət olmasa bu dövr barədə oxucularımızı bir qədər məlumatlandırardınız.**

- Mən 1985-ci ildə Cəbrayıl rayonunun Quycaq, 1990-cı ildə isə Goranboy rayonunun Dəliməmmədli Seçki dairələrindən millət vəkili seçilmişəm. Deputat olduğum müddət ərzində seçicilərimin bir sıra problemlərinin müsbət həllində yardımçı olmuşam. Bir neçə kənddə sosial problemlərin diqqətdə saxlanmasına, o cümlədən yolların çəkilməsinə, artezian quyularının qazılmasına nail olmuşam. O vaxtlar pambıq işinə görə Goranboydan məhkum olunmuş bir çox insanların Respublika Ali Sovetinin qərarı ilə əfv olunması və ya Ali məhkəmənin qərarı ilə azad olunması öz müsbət həllini tapıb. Dövlət əmlakının xüsusilə külli miqdarda mənimsənilməsi faktları üzrə rayonda aparılan cinayət işlərində adları keçən insanlar haqqında cinayət işlərinə ibtidai istintaq orqanlarında xitam verilməsi və onların həbsdən azad olunmaları haqqında müraciətlərim müsbət qarşılanıb. Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalinin vəziyyətini nəzərə alaraq o vaxtlar Azərbaycan SSR Cinayət məcəlləsinin 162 - ci maddəsilə “Özbaşına torpaq zəbtetmə” üstündə çoxlu sayda insanları cinayət məsuliyyətinə cəlb edən maddənin CM - dən xaric olunub ləğv edilməsinə dair Ali Sovetə ünvanladığım təqdimat öz həllini tapıb. Bundan sonra Dağlıq Qarabağda qısa müddət ərzində çoxlu sayda şəxsi evlər tikildi, orda yaşayan əhalinin sayı sürətlə artmağa başladı. O vaxtlar Əsgəran rayonunun Meşəli kəndində olan evlərin sayı qısa müddət ərzində 40 - dan 180 evə qədər çoxaldı. O cümlədən vilayətin başqa kəndlərində də çoxlu sayda yaşayış evləri inşa olundu. Parlament fəaliyyətim dövründə həmçinin bir çox qanun layihələrinin hazırlanıb qəbul olunmasında da fəal iştirakım və təşəbbüsüm olmuşdur.

- Əlisaab müəllim, şükürlər olsun ki, bu gün Azərbaycan torpaqları artıq işğaldan tamamilə azad olunub, ölkəmizin bütün ərazisində Azərbaycan dövlətinin suveren hüquqları bərpa edilib. Şübhəsiz ki, Qarabağ hadisələri başlayan zaman fəaliyyətinin müəyyən dövrü ərzində birbaşa hadisələrin mərkəzində olmuş bir şəxs kimi ərazi bütövlüyümüzün bərpasına ən çox sevinənlərdən biri də sizsiniz. Bu barədə təəssüratlarınızı bölüşməyinizi xahiş edirik.

- Tamamilə doğru buyurursuz, bu gün hər bir Azərbaycanlının ürəyini qürur hissi ilə dolduran, bizə qalibiyyətin sonsuz sevincini yaşadan bu möhtəşəm hadisə təbii ki, məni də ürəkdən sevindirir. Çox şadam ki, yurdumuzun gözəl bir parçası olan Qarabağımızın düşmən tapdağından azad olunması uğrunda vaxtilə gərgin səylər göstərmiş şəxslərdən biri kimi bu əziz günləri görmək, yaşamaq mənə də nəsib oldu. Bu gün azad edilmiş torpaqlarda davam edən geniş bərpa və quruculuq işləri, uzun müddət öz doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın respublika hökumətinin uğurla həyata keçirdiyi Böyük qayıdış planı üzrə yenidən öz ata - baba ocağına üz tutması əlbəttə möhtəşəm bir hadisədir.

44 günlük Vətən müharibəsində qazandığımız böyük zəfər bizi qarşıda hələ çox uğurlara qovuşduracaq. Bu zəfərin əldə olunnmasında öz canlarını belə əsirgəmədən düşmən üzərinə şığıyan, Vətənə, xalqa sədaqət nümunəsinə çevrilməyi bacaran qəhrəman şəhid övladlarımızın əziz xatirəsinə dərin ehtiramımı bildirirəm, qazilərimizə Allah - dan can sağlığı arzulayıram.

**- Bir qədər də ailə həyatınız barədə zəhmət olmasa...**

- Mən çox xoşbəxt ailə başçısıyam. 4 övladım var. Hər biri də öz ailəsinə sıx bağlı olan, uğurlarına birgə sevinib qayğılarını və problemlərini birlikdə çəkən xoşbəxt ailə sahibidirlər. 9 nəvəm və iki nəticəm var. Mən onların hər biri ilə qürur duyuram, bir baba kimi də daim xoşbəxt və firavan həyat yaşamaları üçün, savadlı, təhsilli, Vətəninə faydalı övladlar kimi yetişmələri üçün əlimdən gələni əsirgəmirəm. Özüm də 30 ildən artıqdır ibadət əhliyəm. Özümü gümrah hiss edirəm, Allah - dan çox razıyam.

**- Müasir gəncliyə tövsiyyələriniz.**

- Gənclər hər bir xalqın xoşbəxt gələcəyə olan ümididir. Bizim ölkəmizin elmi, ictimai - siyasi, mədəni həyatında da gənclərin yaxından iştirakı, onların Vətənə, torpağa bağlı vətənpərvər övladlar kimi yetişmələri üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub. Bu mənada mən bu günkü Azərbaycan gəncliyini yüksək qiymətləndirirəm. Tövsiyyəm də ondan ibarətdir ki, onlar həyatda uğurun sirrinin həm də mükəmməl təhsildən, gərgin zəhmət və əməkdən keçdiyini unutmasınlar, öz məqsədləri uğrunda heç bir çətinliyin önündə əyilməsinlər, kimliyindən və hansı peşəyə sahib olmağından asılı olmayaraq daim öz işlərinə səylə yanaşsınlar. Onlara heç bir fayda gətirməyən gərəksiz vərdişlərdən və əməllərdən uzaq olsunlar, yaşadıqları ömrün hər dəqiqəsini qiymətləndirməyi bacarsınlar.

**- Oxucularımıza sözünüz.**

- Qəzetinizin əməkdaşlarına uğurlar, tükənməz enerji, oxucularınıza da hər zaman xoşbəxt günlər, bütün arzu və istəklərimizin tez bir zamanda gerçəkləşməsini, hər birinizin ailəsinə, ocağına firavanlıq arzu edirəm. Yolunuz uğurlu, işinizi avand, nailiyyətləriniz bol və davamlı olsun. Həyatda heç bir sıxıntınız olmasın.

**- Əlisaab müəllim, bir daha doğum gününüzü ürəkdən təbrik edirik, Sizə uzun ömür, can sağlığı arzu edirik. Yaşadığınız ömrü bundan sonra da xeyirli və sağlam yaşayasız. Sizi hər zaman belə şad, gümrah görək. O gün olsun 100 illiyinizə qovuşasınız.**

**-Təşəkkür edirəm.**

**Həmsöhbət oldu:**
**Vüqar Abdullayev**
**(Xüsusi olaraq “Təzadlar” üçün)**




**...Bu gün nəşriyyatın başı üzərinə qara buludlar çöküb. Bu qaralan buludların gəlişi “Azərbaycan” nəşriyyatını gözlənilməz şəkildə silkələdi. Redaksiyalarda ardı-arda yayılan xəbərlər çoxunu çaşdırdı: nəşriyyat 15 gün ərzində boşaldılmalıdır! Amma səbəb və məqsəd nədir? Bu suala cavab yoxdur.**

# Zərurətin olmadığı yerdə “ZƏRURƏT”

*(“Azərbaycan” Nəşriyyatının bu günkü vəziyyətinə həsr edirəm)*

Gəlin məntiqlə yanaşaq. Yarım ay müddətinə bu doqquzmərtəbəli, görkəmli bina hara köçürüləcək? Yer ayrılıbmı? Dövlət büdcəsindən maliyə dəstəyi varmı? Hansı şirkət tender yolu ilə təmir işlərini üzərinə götürüb? Bütün bu suallar cavabsız qalır.

Əgər təmir doğrudan da mütləqdirsə, niyə hissə-hissə aparılmır? Qışın soyuq çağında bütün mətbuatı çölə tökmək haqsızlıq deylmi? Belə ani atılan addımlar yalnız mətbuatı çökdürmək prizmasından izah oluna bilər. Nəşriyyat artıq öz axarı ilə izdihamlı deyildi. Sanki onun divarlarına da sükut çökmüşdü.

Arıq nəşriyyat adlı məkanın içi sükutdan qopmuş bir sükunətə bürünmüşdür. Kitablar dağınıq halda, hər kitabın öz xatirəsi masalar üzərində sərilmişdi; hər künc bir əhvalatı xatırladır, hər səhifə bir zamanın şahidliyini özüylə daşıyırdı.

- Buradan, sadəcə, bir köç deyil, illərlə yığılmış zəhmət və ömür qopub gedirdi.

İnsanların baxışları yorğun, amma hələ də həyatın ritmini saxlayır kimi görünürdü. Bu mənzərə mənə göstərirdi ki, yalnız fiziki köç baş vermirdi; illərlə yığılmış zəhmət, sevinc, kədər, qəlbimizin içində gizlənmiş hər anın daşıyıcısı idi. Bu hadisəni öz gözlərilə görən yazar özünə belə sual verməyə bilməzdi: bəs bu, göstərişlər kimlərə xidmət edir? Niyə səslər batırılıb? Azərbaycan Jurnalistlər Birliyi haradadır? Yazıçılar Birliyi niyə səsini çıxarmır? Mətbuat Şurası, MEDİA Agentliyi niyə dinmir??? Ziyalılarımız, qələmlərini işə salmalı olanlar niyə susurlar? Mətbuat orqanları, saytlar niyə öz haqq səslərini tələb etmirlər?

Belə suallar insanda daha çox düşüncələr yaradır və özün özünlə danışırmış kimi deyirsən: “İnsan bəzən bir binanın yoxluğunu deyil, bir dövrün səssizcə çəkilib getməsini hiss edir. Divarlar qalır, pəncərələr yerindədir, amma içindəki nəfəs kəsilib”.

Burada yalnız fiziki məkan yox, illərlə yığılmış ömür və yaradıcılıq sükutda qalır.

Bəzən insan düşünür ki, yəqn bir müddət sonra yenə hər kəs öz məkanına dönər... Lakin vaxtı bilinməyən bu təmirin vaxtvədəsi də məlum deyil. Hər addım məxfilik altında həyata keçirilir. Sanki hər şey planlı və düşünülmüş şəkildə icra olunur. Bu vəziyyət təsadüfi deyil, arxasında dayananlar əlləri ətəklərindən uzun hərəkət edirlər.

Mən isə deyirəm: “Əlimə qələm alanda anladım ki, sözlər yalnız kağızda gizlənmir, zamanın yaddaşına da yazılırdı. Hər bir nəfəs, hər bir baxış, hər bir susqunluq bir hekayə daşıyır…”.

Ey qəlbim, sən hər sözü bilirsən… Sükut içində danışırsan, amma mən səni eşidirəm. Pulun adının yüksək tribunalarda yer aldığı və onun adıyla ölçüldüyü bir zamana gəlib çıxmışıq. Sözün çəkisi yox, xərci soruşulur. Halbuki bu məkan pulun deyil, yaddaşın mülkü və məkanı idi. Qoy kimsə bir gün bu sətirləri oxuyanda bilsin ki, burada tək nəşriyyat yox idi. Burda yaşanmış həyat vardı. Ömürdən qopan anlar bəzən qayıtmır. Amma yazıya köçürüləndə unudulmur… Nəşriyyat da, o canlılıq da artıq öz taleyinə vida söyləyir… Ey ömürdən itən günlər!

**Təranə Şəms,**
**AJB- nin üzvü,**
**şairə-publisist**

TƏZADLAR

02 (2398) 10.02.2026 www.tezadlar.az

# Həftəbecər



Ailə qurandan sonra səhnəni tərk edən Avroviziya təmsilzimiz, 3 uşaq anası, müğənni Aysel Teymurzadə ( Adgüzəlzadə) sosial mediada mini geyimdə "əkillərini paylaşıb. Məlumatlara görə, Ayselin mini geyimdə, yəni budu züldə qalan "əkilləri izləyicilərin marağına səbəb olub.

***P.S. Mən belə izləyicilərı çay aşağı axıdım, çay yuxarı axtarım. Ətiniz tükğlsğn elə...Zalım uşağı, elə bil ümrğndə hez bud-zad gürməyib. Rəhmətliyin uşağı, efirlərimiz səhərdən ax-"ama qədər budlarını belə züldə qoyanlarla doludur. Güzləriniz onlardan doymur məgər? Elə siz izləyicilərsiniz bu "ou əhli xanımları efirlərdə soyunduranlar. Məhz sizlər o budları çöldə olanlara "bəyən" i"arəsi qoymasanız, xo" süzlər yazmasanız, əksinə, onları ictimai qınaq obyektinə zevirsəniz, bir də qələt edib o xanımların biri də soyunmaz.***

***

Hazırda müzakirə gedir ki, 10 milyon əhaliyə 125 deputat azdır və bu say artırılmalıdır. Amma həm deputatlar, həm ictimai xadimlər, həm də əksər insanlar 125 deputat olmasını düzgün sayırlar və bu rəqəmin artırılmasına ehtiyac gürmğrlər.

**P.S.Düz də edirlər. Çünki 125 deputatdan gül dərmişik ki, sayı çoxalan kimi də onlardan gülab çəkəcəyik. 125 deputat indiyə qədər hansı seçicinin sınıq dırnağına çırt eləyib ki?! Milli Məclisdə deputatların sayı çoxalan kimi, yatanların da sayı çox olacaq.Əşi, atalar nahaqdan demirlər ki, çoxluq tortluqdur...**

***

ABŞ-da həbsxanada olarkən intihar edən, daha doğrusu, gorbagor olan iş adamı, cinsi cinayətkar uşaqbaz, gənc qızları satan Cefri Epşteyn məsələsi dünya gündəmini zəbt edib. "Epşteyn işi"ndə artıq sabiq xarici işlər naziri Elmar Məmmədyarovun və sabiq nəqliyyat naziri Ziya Məmmədovun da adı çəkilir. Bir jurnalistin "niyə məhz sizə qarşı bu cür fikirlər səsləndirilir"- sualına Elmar müəllim belə cavab verib: "Yəqin ki, məşhur adam olduğuma görə ortaya belə iddialar atırlar. 6 ildir işdən çıxmışam, amma görürsünüz, yenə də adım bəzi yerlərdə hallanır".

***P.S.Heyranına şükür, ya rəbbim! Görün xarici işlər naziri kimi mühüm bir postu, uzun müddət kimə etibar etmişik? Elmar müəllim deyir ki, yəqin məşhur adam olduğum üçün adım "Epşteyn işi"ndə hallanır. Bu adam hələ bilmir ki, adı uşaqbazlıq, azyaşlı qızları tora salıb cinsi istismar edən və satan bir iş adamı ilə adı hallanır. Onda belə çıxır ki, Elmar Məmmədyarovun da iş adamı olmuş "Epşteyn işi"ndən bəhrələnən insanlardan olub dayna.***

***

Azərbaycanlılara qarşı Qarabağda dəhşətli cinayətlər törətmiş separatçı qatillərə nəhayət, hökm oxundu. Bəzilərinə ömürlük, bəzilərinə də 15-20 il arası həbs cəzası verildi. Bu uşaq qatillərinə verilən cəza, onların törətdikləri saysız-hesabsız cinayətlərə görə adekvatdırmı?

***P.S.Əlbəttə, yox! Uşaqlara, hamilə gəlinlərə, azyaşlı qızlara, qadınlara, qocalara dəhşətli cəzalar verən daşnak cəlladlarına ölüm hökmü çıxarılmalı idi. Amma eybi yox, bu erməni daşnaklarını bizim həbsxanalarda yəqin ki, şampanla, dəm-dəstgahla qarşılayacaqlar.***

***

Məlumatlara görə, Hindistan Ermənistanı silahlandırmaqla cənubi Qafqazda sülhə qarşı hücuma keçir.

***P.S.Eh Cimmi, Şaka, Şanti, Şanu, Racu, Zita və Gita, hardasınız? Uşaqlıq və gənclik illərində sizləri o qədər sevmişdik ki, elə bilirdik Hindistan ikinci vətənimizdir. Sən demə Hindistana olan sevgimizlə içimizdə əfi ilan bəsləmişik. İndi bu Hindistan düşmənimiz olan Ermənistana silah- sursat satır və sülhə mane olur. Biz o vaxtkı kinolarda görürdük ki, əyalətlərdə insanlar ac yalavacdır və komalarda, daxmalarda yaşayırlar. Hindistanın hazırki baş naziri cənab Narendra Modi məhz həmin ac- yalavac bölgənin təmsilçisidir. Yaxşı olar ki, hörmətli Modi müəllim Ermənistana verdiyi silahların əvəzinə, o pulları həmin bölgənin ac-yalavac insanlarının problemlərinə xərcləsin. Amma belə baxanda həm Hindistandan olan qaraçı ermənilər, həm də Hindistan qaraçıları elə bir kökdəndirlər axı. Ona görə də Ermənistan istəməsə də, Hindistan qaraçıları, "səni sevəcəyəm, sən sevməsən də" prinsipi ilə köməklərini əsirgəmirlər. Deyirəm, bu hind qaraçılarına elə Pakistan qardaşlarımız qənim olsun...***





Müğənni Şəbnəm Tovuzlu "Rəngarəng" verilişinin aparıcısı Zaur Nəbioğlunun, ona qalmaqallı müğənni deməsinə etiraz edib və qalmaqallı müğənni olmadığını diqqətə çatdırıb. Amma aparıcı bu sözü bir daha təkrar edəndə isə, Şəbnəm efiri tərk edib.

***P.S.Bu yerdə Şəbnəm Tovuzlu düz edib. Zaur Nəbioğluna baxıram, maşallah, boylu- buxunlu, bığlı- saqqallı bir kişidir. Di gəl ki, xanımla etik qaydada danışmağı belə bacarmır. Şəbnəm dəfələrlə bildirdi ki, "gəl sənətdən, musiqidən, mahnı oxumaqdan danışaq, qanımızı qaraltma səhər-səhər...". Kimə deyirsən? O boyda bığlı-saqqalı kişini qadın qeybəti kimi qalmaqal maraqlandırırdı. Mən başa düşə bilmirəm, bir kişi müğənni xanıma qarşı etdiyi kobudluğu milyonların qarşısında özünə necə sığışdırır? Ayıbdır, vallah o boy-buxuna ayıbdır ki qadınlarla qadın kimi qeybət edir...***



Əməkdar artist, məşhur qarmon ifaçısı Gövhər Rzayeva "Günə doğru" verilişində ailə həyatından danışarkən belə deyib: "Ər çörəyi yeyən qadın dünyanın ən xoşbəxtidir".

***P.S. Ay Gövhər xanım, bu olmadı də-ə... İndi deyirsən ki, şou əhli xanımların arasında xoşbəxt olan yoxdur? Nöşün ki, onların çoxunun ya əri yoxdur, ya da əksinə, əri arvad çörəyi yeyir. Gövhər xanım, qadının ər çörəyi yeməsi keçmişdə qaldı. Bu gün arvad çörəyi yeyən ər, dünyanın ən xoşbəxtidir...***

Müğənni Arzuxanımın şəxsi həyatı ilə bağlı verdi açıqlama geniş müzakirələrə səbəb olub. O deyib: "Hamilə olduğum üçün toy etmədim. Abır-həya yaxşı şeydir. Amma rəsmi nigahımız var. Mənim də həyat yoldaşımın da ilkin evliliyidir, həmçinin bu, hər ikimizin ilk övladıdır".

***P.S.Deməli, abır-həya edərək Arzuxanım hamilə ola-ola toy etməyib. Neynək, qoy o deyən olsun. Yaxşı, ay Arzu xanım əgər o abır-həyanı düşünə bilirdinsə niyə toya qədər hamilə olmusan? Nə olmuşdu, nə xəbərdi? Yəni həyat yodaşınla məhəbbətin o qədər qıcqırmışdı ki, toya qədər səbr edə bilmədiniz? Ax ax ax.. lənətə gəlsin bu abır-həyanı. Harda idi onda görəsən? Bəlkə o abır-həya həmin zaman tıxaca düşübmüş. Bir az da gözləyərdiniz də... Bu yerdə "O qızı tapın" filmində rəhmətlik Nəsibə Zeynalovanın söylədiyi bir bayatı yada düşür:***

*" Əzizinəm qız-qıza,*
*Oğlan qıza, qız-qıza,*
*Oğlan qızsa tez sönər.*



*Vay o gündən qız-qıza".*
*Həə... qız da ki, qızanda abır-həya tıxaca düşür. Nəticədə bir qız arzuladığı toydan məhrum olur.*

***

Müğənni Nadir Qafarzadə "Xəzər axşamı" verilişində atasının Əliağa Vahidlə dostluğundan danışarkən belə deyib: "Hərdən düşünürəm ki, o vaxtkı zəhmli kişilər indi yoxdur. Biz çalışsaq da atalarımız kimi kişilər ola bilmirik".

***P.S. Ay Nadir Qafarzadə, etiraf etmək də böyüklükdür. Atalar elə ona görə deyiblər ki, "oddan kül törəyər. Yaxşı ki, etiraf edirsən ki, atan kimi kişi ola bilmirsən. Ola da bilməyəcəksən. Çünki o dövrdə atan kimi kişilər üz-gözünə, dodağına əl gəzdirmirdi, yanağını botoks etdirmirdilər. Amma sən ruhdan düşmə, Nadir bəy, kişi olmağa çalışmaq, cəhd etmək özü də bir kişilikdir, mən ölüm. Özü də daha o dövrün yox e, indiki dövrün kişiləri kimi...***



**ELÇİN**
**elcinmemmedli58@gmail.com**

**Baş redaktor:**
**Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 1233
Çapa imzalanmışdır:
09.02.2026